
Camal Zeynaloğlu
GECİKMİŞ SEVGİ

**Camal Zeynaloğlu**

# Gecikmiş sevgi

**“Ünsiyyət” nəşriyyatı**

**Bakı - 2014**

**Az 2**
**--------**
**2014**

**Camal Zeynaloğlu: "Gecikmiş sevgi"**
(Azərbaycan dilində)

**Redaktor: Həqiqət Kərimova,**
fəlsəfə elmləri namizədi.

**Bakı, "Ünsiyyət" nəşriyyatı – 2014, - 160 səh.**

*Bu kitab Camal Zeynaloğlunun oxucuları ilə* **on birinci** *görüşüdür. Kitabda yazıçının yeni hekayələri və esseləri verilmişdir.*

**26470007**
**C------------------ Qrifli nəşr**
**095 - 2014**

**© C. Zeynaloğlu – 2014**

**İSBN: 978-9952-440-32-7**

# Ön söz

*İnsan təbiəti iki xassəlidir. Zahirən görünən, maddi xüsusiyyətlərə malik olan insan - yəni zamanın təsiri ilə dəyişən insan; ikincisi daxili aləminə aid olan, yəni zəka, idrak, vicdan kimi keyfiyyətləri özündə birləşdirən mənlikdir ki, maddi aləmdə nisbi olan hər şeyi onunla anlayıb təyin edir, dəyişkənlikləri müqayisə edirik. Məhz insana xas olan bu ikinci xassə məkan və zamanın təsirindən dəyişmir. Vicdan həqiqət və mənəvi Əxlaqdır. Hər bir insanın təbiətinə Allah tərəfindən bəxş edilmiş, yerləşdirilmiş nurdur. Lakin hər adam bunu lazımi səviyyədə dərk etmir. Camal Zeynaloğlunda qəlbindən zahirinə süzülən ilahi işıq var.*

*Bəzən düşünürəm;"Camalı öz dövrünün Ziyalılarından fərqləndirən əsas cəhətlər hansılardır? Doğulub böyüdüyü mühitdə aldığı tərbiyəmi? Kamilliyə can atmağı, Allaha qəlbən bağlılığı, sadəliyimi?"*

*Bütün bunların hamısı Camalda var. O, elmə, savada yüksək qiymət verən ailə mühitində kamilliyə çatmaqda yol göstərən müəllimlər əhatəsində, ona halallıq təlqin edən, Allahın böyüklüyünə sığınan ata-anasının tövsiyələri ilə böyümüşdü. Bəs sadəlik? "Sadəlik onun geyindiyi ən gözəl libasdır" - desəm, daha doğru olar. Ata tərbiyəsi, qardaş himayədarlığı onun dünyagörüşünün formalaşmasında az rol oynamamışdır.*

*Camal Zeynaloğlu zamanın nəbzini tutan, yazıçı-publisist, tərcüməçi-psixoloq kimi öz əsərləri ilə ədəbiyyatımıza yeniliklər gətirən yazarlardandır. O, nə yazırsa yazsın bütün əsərlərində bugünkü həyatın reallıqlarını əks etdirdiyinə görə oxucu onu sevə-sevə oxuyur. Çünki onun qələmə aldığı hekayə və povestlərdə haqsızlığa qarşı mübarizə, qanunun aliliyini qoruyub saxlayan, ona hörmətlə yanaşan bəzi hüquq müdafiəçilərin hələ də cəmiyyətdə var olmaları, insan*

*ləyaqətini, şərəfini hər şeydən uca tutan qəhrəmanların mövcudluğu və onların cəmiyyətdə tör-töküntülərinə qarşı mübarizə aparması oxucularda istər-istəməz sabaha ümid və inamla baxmasına stimul verir.*

*C.Zeynaloğlunun əsərlərində yaratdığı, bəzən adını dəyişdiyi qəhrəmanları həyatda bizimlə çiyin-çiyinə çalışan, hər gün rastlaşdığımız real insanlardır. O, qəhrəmanları ilə görüşüb söhbət edir, onlarla dərdləşir, onları narahat edən problemləri birgə cözməyə çalışır. Ona görə də Camal müəllimin yaratdığı qəhrəmanlar oxucular tərəfindən sevilir. Çünki bu görüşlər, ünsiyyətlər olmasa o, yazmır. Bəlkə elə buna görə də onun yazdıqlarında oxucunu cəlb edən, ovsunlayan nə isə var.*

*Kitabda toplanmış "Ziyarət", "Paxıllıq", "İftira", "Qızıl külqabı", "Quru çörək", "Qonşu tikəsi", "Nərəy dərəsində qanlı döyüş", "Ölüm düşərgəsindən qaçış" adlı hekayələrində hər bir oxucunu düşündürən, onu narahat edən, onun psixolojisinə təsir göstərən, iç dünyasını titrədən və ibrət götürüləsi çox şeylər var. Məsələn, "Gecikmiş sevgi" hekayəsini həyəcansız oxumaq mümkün deyil. Şəxsən mən hekayəni oxuyanda həm kövrəldim, həm də təəssüf hissi keçirdim. Kövrəldim ona görə ki, ömrünün ahıl çağında özündən asılı olmadan sevdaya düşən bir qadının taleyi yenə də gətirmir. Təəssüfləndim ona görə ki, bugünkü gənclərimiz kaş ki, bu qadının "ahıl yaşında həyatına müsafir olan və çox da gecikmiş əsl sevgi hissi" keçirə biləydilər. Mən C.Zeynaloğlunun əsərlərini təhlil etmək fikrim yoxdur, çünki bu məsələni dəyərli oxucularımızın ixtiyarına buraxıram.*

*Bir qədər də Camal Zeynaloğlunun yeni yaradıcılıq janrı olan esseləri haqqında söz demək istəyirəm. Etiraf edim ki, mən bu esseləri daha diqqətlə oxudum. "Əlim yetmədi sənə", "Yuxularına gələcəyəm", "Sənsizəm", "Həsrət", "Sən gedəni", "Şəhid anası", "Kaş biləydin ki...", "Həsrətə dözmür ürək", "Mənimçün heç qocalmadın ki...", "Başqasına dəyişdin məni", "Mənə dözüm ver, İlahi!" kimi esselər yazıçının dərin*

*psixoloji dünyasının güzgüsü kimi daxili duyum hissini, düşüncələrini özündə əks etdirə bilmişdir. Elə buna görə də qələm sahibinin kövrək hisslər üzərində köklənmiş esselərinin dostları və oxucuları tərəfindən uğurla qarşılanacağına əminəm. Esselərdə öz əksini tapmış inam, etiraf, inad, küskünlük, itirdiklərindən doğulan can yanğısı düşündürücü olduğu qədər də bir qəlbin etiraz səsidir. Bu esseləri düşünə-düşünə, təhlil edə-edə oxudum. Nəhayət ki, səni sıxan, qətrə-qətrə ürəyində közərən hisslərini ifadə edə biləcək bir üslub tapa bilmisən. Təbrik edirəm, dostum, qələmin kəsərli olsun!*

***Redaktor***

# Gecikmiş sevgi

(hekayə)

Tələbəlik illərində Bakının Kubinka deyilən məhəlləsində, tənha yaşayan, kimi-kimsəsi olmayan Klara xalanın həyət evində kiçik bir otaqda kirayəçi qalırdım. Həmin həyətdə məndən başqa, daha iki kirayəçi yaşayırdı, ancaq onlar ailəli idilər. Klara xala digər kirayəçilərinə qarşı həddindən artıq sərt və ciddi davrandığı halda, mənə qarşı həmişə qayğıkeş və mehriban idi. O, mənim doğru-dürüst, başıaşağı, qızdan-gəlindən həyalı, əxlaqlı və tərbiyəli bir gənc olduğumu bildiyindən mənə qarşı bu cür davranırdı. Ailəli kirayəçilər ev pulunu vaxtından bircə gün belə kecikdirsəydilər, o zaman Klara xala onlara "toy" tuturdu; dişinin dibindən çıxanı söyləyirdi. Mənə isə bu barədə heç bir söz deməzdi. Həyətdəkilər də Klara xalanın xasiyyətinin tünd olduğunu bildiklərindən daha onun sözünün qabağına bir söz deməzdilər, sadəcə başlarını aşağı dikib eləcə susurdular. O, evdən bayıra çox nadir hallarda çıxardı, o da mağazaya ərzaq almağa gedəndə. Mən orada yaşadığım müddətdə kimsə onun qapısını açıb içəri girmədi, kimsə ona baş çəkməyə, əhvalını sormağa gəlmədi. Bu həyət də ona atasından qalıbmış. Atası Böyük Vətən müharibəsinə gedib, bir də geri qayıtmayıb. Atasından sonra Klaranın anası xəstəlikdən öləndə, balaca qızcığazın cəmi dörd yaşı varmış. Sonra ona xalası sahib çıxıb. Beş ildən sonra Klaranın yeganə ümidi olan xalası da rəhmətə gedib. Bundan sonra Klara Allahın ümidinə qalmış, həyatın onunla oynadığı sərt və amansız oyunlarla baş-başa qalaraq, bütün ömrü boyu təkbaşına həyatla mücadilə edib. O, ömrünün 27 ilini, ən gözəl gənclik illərini həbsxanada

keçirib. Cinayət aləmində ona ad da verilibmiş. Onu tanıyanlar Klaradan həmişə çəkiniblər, onun bir sözünü iki etməyiblər. O, heç bir vaxt  ailə həyatı qurmayıb. Deyilənə görə, gəncliyində onu sevən birisi olub. Klara cavan vaxtı çox gözəl qız imiş. Oğlan uzun müddət onun arxasınca "sürünüb," ancaq heç cür qızı özünə ram edə bilməyib. Klara həyatda kimsəyə güvənmədiyindən oğlana heç fikir belə vermirmiş. Klara həm də digər qızlara nisbətən çox inadkar, sərt, ciddi və asanlıqla ipə-sapa yatmayan birisi olub. O, oğlanlara heç bir zaman inanmayıb. Sonda oğlan qızın bu inadkarlığını görüb, onun qarşısını kəsərək deyib:  "Siz mənim sevgimə müsbət cavab verməsəniz, özümü dənizə atıb intihar edəcəyəm!" Amma Klara həddindən artıq qürurlu olduğundan bu dəfə də özünü oğlanın qarşısında sındırmaq istəməyib.  Və cavabında həmin oğlana: " Kişi, özünü hər yerdə əsl kişi kimi aparmalıdır, daha qadın qarşısında acizliyini göstərməz! Bunu da bil ki, özünü intihar etmək,  acizlik əlamətidir. Mənimsə aciz kişilərdən zəhləm gedir!" deyib. Əslində, qız da oğlana qarşı biganə deyilmiş, hardasa içində ona qarşı azca da olsa, istək hissi varmış, ancaq o, bu istəyi oğlan duyacaq qədər ona hiss etdirməyib.

Klara özünü müdafiə üçün yanında həmişə düyməli bıçaq gəzdirərmiş. Sonra günlərin birində o, dənizkənarı parkda həmin oğlanı başqa bir qızla qol-boyun gəzdiyini görüb ona yaxınlaşıb: "sevgisi uğrunda özünü dənizə atan, oğlan, xoş gördük. Bəs bu sevginə nə vəd etmisən, ay kişi qırığı?" deyib. Oğlan da Klaranın bu sözündən bərk əsəbiləşərək,  öz növbəsində qızı hiddətləndirib, özündən çıxarmaq istəyərək deyib: " Mən sizin arxanızca gedərək,  sərf etdiyim vaxta indi çox heyifsilənirəm.  Çünki anladım ki, siz buna heç də layiq deyilmişsiniz!"  Klara bu sözləri oğlandan eşidəndə, beynində "qırmızı işıq" yanıb. "Eləmi?!" deyərək, yanında gəzdirdiyi düyməli bıçağı nə vaxt oğlanın ürəyinə sancdığını belə

bilməyib. Oğlan elə yerindəcə, “ikinci sevgilisi”nin qucağında keçinib. Sonra həbsxanalar...

Bütün bunları mənə Klara xalanın qonşusu Nəsibə xala söyləmişdi. Və bunun müqabilində qonşu bu xəbərin ondan eşitmədiyini dönə-dönə məndən xahiş etmişdi. Ev sahibəmiz özü isə bizə şəxsi həyatı barədə bircə kəlmə belə danışmamışdı. Bu barədə ondan soruşanda, Klara xala həmişə susardı. Onu da qeyd edim ki, Klara xalanın yaşının çox olmasına baxmayaraq, özünün dediyinə görə bu günə kimi səhhətindən heç vaxt şikayətlənməyib.

Bir dəfə gördüm ki, Klara xala əlində həsir zənbil bazardan gəlir. Ona yaxınlaşıb kömək etmək istədim. Amma o, etiraz etdi:

- Oğul, həyatda indiyə kimi, yaşadığım anlarda kimsənin köməyinə heç ehtiyac duymadım. Həyatda həmişə yalnız özümə güvəndim və təkbaşına mübarizə apardım.

- Klara xala, niyə həyatda kimsəyə inanmadınız? İnsan inamsız həyatda necə yaşaya bilər?! - deyə soruşdum.

- Ömrüm boyu yalnız bircə dəfə kiməsə inanmaq istədim. Amma həmin vaxt da xəyanətlə qarşılaşdım. Bundan sonra içimdəki o inam hissini əbədi “dəfn” etdim.

- Klara xala, insan bütün ömrü boyu yalqız, tənha yaşaya bilməz ki. O, kiməsə inanmalı, kiməsə ürəyini açmalı, dərdini-sərini kiminləsə paylaşmalıdır.Həyatda hər bir insanın həmdəmi, ürək sirdaşı hökmən olmalıdır. - dedim.

Amma Klara xala bundan sonra mənimlə daha danışmaq istəmədi...

Bu söhbətdən iki-üç gün keçmişdi, dərsdən çıxıb evə gəlirdim. Yolumu evimizin yanındakı parkdan saldım. Məndən sağ tərəfdəki skamyada iki yaşlı - bir kişi, bir qadın oturub şirin-şirin söhbət edirdilər. Onların bərabərliyinə çatanda, gözlərimə inana bilmədim. Bu Klara xala idi. O, məni görcək gülümsədi. İlk dəfəydi ki, ev sahibəsinin üzündə təbəssüm

görürdüm. Mən onların “məhəbbəti”nə mane olmamaq üçün sadəcə salam verib, evə yolumu davam etdirdim.

Ertəsi gün də onları həmin skamyada birlikdə gördüm. Üçüncü-dördüncü günlərdə də...

Bir axşam özümü saxlaya bilməyib Klara xalaya dedim:

- Klara xala, deyəsən artıq özünə həmdərd tapmısan? Düzü, buna çox sevindim. Əlbəttə, belə bir yaşda insan kiminləsə həmsöhbət olmalıdır ki, dərd-sərini unutsun.

- Sən haqlısan, oğul. Tənhalıq, yalqız olmaq ancaq Allahın şəninə yaraşıb. Mən başa düşdüm ki, tənhalıq adamı məhv edir, insanın axırına çıxır, onu bitirib tükəndirir. Mən bu bir neçə gündə özümdə qəribə halların baş verdiyini hiss edirəm. İçimdə sanki vulkan kimi nəsə qaynadığını duyuram, - deyə Klara xala sanki utanırmış kimi astadan söylədi.

- Bundan sonra hələ çox şeylərin şahidi olacaqsınız, Klara xala, - deyə zarafatla gülümsədim.

Bir həftə idi ki, ev sahibəsi həyətdəki kirayəçilərlə çox mehriban, səmimi dolanırdı. Kirayəçilər Klara xalanın onlara qarşı bu davranışlarına təəccüb edirdilər. Onlardan birisi dözə bilməyib, mənə yaxınlaşaraq dedi:

- Cəmil, son günlər Klara xalada bir dəyişiklik hiss edirsənmi?

- Necə bəyəm? Hansı mənada deyirsən, Eldar? - deyə özümü o yerə qoymadım.

- Necə deyim, Klara xala sanki başqa bir adam olub. Elə bil ki, əvvəlki qəddar, əzazil Klara gedib, onun yerinə xeyirxah, mehriban, qayğıkeş birisi gəlib. - Eldar təəccübünü gizlədə bilmədi. - İnsanın birdən-birə bu qədər dəyişdiyinə heç cür inana bilmirəm.

- Eldar, həyatda hər şey ola bilə və hər şey mümkündür! - gülərək bildirdim.

Əlbəttə, həyətdəki kirayəçilər Klara xalanın “ahıl sevgi”si barədə heç nə bilmirdilər.

Klara xala ilə naməlum yaşlı kişi arasındakı sevgi macərası iki həftə idi ki, davam edirdi. Onlar hər gün günortadan sonra

parkdakı skamyalarında oturub dərdləşirdilər. Amma bir gün Klara xalanı həmin skamyada tək oturan gördüm. Ona yaxınlaşıb təəccüblə soruşdum:

- Klara xala, bu gün nə əcəb təksiniz? Bəs o, gəlməyib?
- Mən də başa düşmədim. Gəlməli idi, ancaq hələ də gəlib çıxmayıb. Çünki dünən Rəhman özü söz vermişdi, - deyə Klara xala “aşiq”inin bu gün gəlməməsinə narahat oldu.
- Fikir etmə, harda olsa gələr, - deyə ev sahibəsinə ürək-dirək verdim.

Amma həmin gün Rəhman kişi görüş yerinə gəlmədi. Klara xala da çox narahat görünürdü. O, bir neçə dəfə həyətdən küçəyə çıxıb parka boylanmışdı da. Rəhman ertəsi gün də görüş yerinə gəlməmişdi. Artıq Klara xalanın həyəcanını hər kəs hiss edirdi. O, sanki qəfəsə salınmış quş kimi çırpınırdı.

İki gündən sonra xəbər çıxdı ki, Rəhman kişini doğma oğlu bıçaqla qətlə yetirib. Klara xala bu xəbərdən bərk sarsıldı, hətta yatağa düşdü. O, iki gün nə bir tikə çörək yedi, nə də bir qurtum su içdi. Bizim də bütün səylərimiz nəticəsiz qaldı. Üçüncü gün Klara xalanın halı fənalaşdı. Təcili yardım çağırdıq. Həkim Klara xalanın qida rejiminə hökmən diqqət yetirməsini tapşırdı. Həmin gün mənim və həyətdəki kirayəçilərin təkidi ilə zorla ev sahibəsinə bir-iki tikə çörək yedizdirə bildik.

Ertəsi gün dərsdən evə qayıdarkən, həyətdə çoxlu adamların toplaşdığını gördüm. Nə hadisə baş verdiyini soruşdum. Dedilər ki, Klara xala infarkt keçirib, sol tərəfi iflic olub, nitq qabiliyyətini də itirib, danışa bilmir. Mən cəld ev sahibəsinin otağına girdim. Klara xala hərəkətsiz halda çarpayıda uzanmışdı. Ona yaxınlaşdım. Məni görcək, doluxsundu, gözlərindən bir damla yaş axaraq, yanaqlarında donub qaldı. O, indi məsum və son dərəcə yazıq baxışlarıyla mənə nəsə deməyə çalışırdı, ancaq bacarmırdı. Mən isə bu gözlərdəki mənanı anladım. Klara xala mənə demək istəyirdi

ki, “oğul, gördünmü mənimki həyatda heç gətirmir. Çünki bəxtim-taleyim əvvəlcədən qara yazılıb!”

Həkimdən Klara xalanın sağlıq durumunun bundan sonra necə olacağını soruşdum. O, dərindən köks ötürüb dedi ki, Klara xala möhkəm stress keçirib, daxili həyəcan yaşayıb və bunun nəticəsində də geniş infarkt baş verib. Həkim könül açılası, ümidverici nəsə xoş bir söz söyləmədi. Mən çox məyus oldum, ev sahibəsinin bu halına acıdım.

İki gündən sonra həkimlərin səyinə baxmayaraq, Klara xala dünyasını dəyişdi. Onun cənazəsinə gözləmədiyimizdən də çox adam gəlmişdi. Hər kəs onun kimsəsiz olduğunu bilirdi, ancaq həyətdə və küçədə gördüyümüz insan axını düşündüyümüzün tam əksini göstərdi...

Klara xalanın dəfninin sabahısı günü parkda həmin skamyada oturmuş Rəhman kişini gördüm. Əvvəcə gözlərimə inanmadım. Bir az da yaxınlaşdım. Yox, yox o, həqiqəqtən də Rəhman kişi idi.Ona yxınlaşıb bu qədər müddətdə harada olduğunu soruşdum. Rəhman kişi möhkəm xəstələndiyini və xəstəxanada yatdığını söylədi.

- Bəs dedilər ki, sizi oğlunuz öldürüb?! - soruşdum.

- Oğul, bunlar şayiə və yalan xəbərlər idi haqqımda çıxarmışdılar. Bunların hamısı boş söz-söhbətlərdi. De görüm, Klara xanım necədir? Onu nədənsə bu gün burada görmürəm. - Rəhman kişi nəzərlərini mənə zillədi.

Mən başımı aşağı dikdim. Əvvəlcə, ona bu bəd xəbəri vermək istəmədim.

- Oğul, nə oldu? Klara xanıma bir şeymi olub?! - Kişi həyəcanla soruşdu.

- Rəhman əmi, Klara xala artıq yoxdu! Dünən onu torpağa tapşırdıq! O, sizi çox gözlədi. Sizin ölüm xəbərinizi eşidəndə bərk sarsıldı. Günlərlə özünə qapandı, nə bir tikə çörək yedi, nə də bir qurtum su içdi. Sonra yatağa düşdü, kimsəylə dinib-danışmadı. Iki gündən sonra geniş infarkt keçirdi. Görünür, rəhmətlik sizə qarşı biganə deyilmiş. Sən demə, Klara xalanın

içində bu yaşına qədər biruzə vermədiyi və kimsəyə məlum olmayan sevgi dolu bir dünya varmış - dedim.

- Necə?! Klara öldü?! - deyə həyəcanlanan Rəhman kişi göz yaşlarına hakim ola bilmədi. Sonra o, məndən Klara xalanın hansı qəbiristanlıqda dəfn olunduğunu soruşdu. Mən də söylədim.

Ev sahibəsinin ölümündən sonra kirayə pulunu onun ancaq ölümü günü peyda olan, tanımadığımız uzaq qohumuna verməli olduq. O, hər ayın əvvəlində gəlib kirayə pullarını alıb gedirdi...

Klara xalanın yeddisi günü həyətdəki kirayəçilərlə birlikdə onun qəbrini ziyarət etməyə getdik. Qəbiristanlıqda Rəhman kişini gördük. O, Klara xalanın qəbri üstünə təzə-tər qızıl gül çiçəkləri düzmüşdü. Mən ona diqqətlə nəzər yetirdim. Rəhman kişinin əvvəlkinə nisbətən sanki beli bükülmüşdü. Anladım ki, kişinin belini bükən, yaşının bu ahıl çağında onun həyatına müsafir olan və çox da gecikmiş əsl sevgi imiş...

**14.02.2014**

## Ziyarət

(hekayə)

Hacı Raziyə xanım Gəncədəki İmamzadəni ziyarət edib, bayıra çıxandan sonra, özündə bir məmnunluq, rahatlıq hiss etdi. Onun bu ziyarətgaha ilk deyil, beşinci gəlişi idi. Hacı xanım nəinki Azərbaycanda , eləcə də xarici ölkələrdə - Hindistanda, Rusiyada, İranda, Gürcüstanda, Türkiyədə, Suriyada, İraqda, İordaniyada, Səudiyyə Ərəbistanında, Mərakeşdə, Misirdə, İsraildə olan bütün müqəddəs yerlərin hamısını ziyarət edib.

Hacı Raziyə xanım ziyarətini başa vurub evə gəlmək üçün bilet alaraq, Gəncə-Bakı avtobusuna əyləşdi. O, avtobusun pəncərəsindən gördü ki, iki əsgərlə avtobusun sürücüsü aralarında nə barədəsə söhbət edirlər. Sonda sürücü başını yırğalayaraq əsgərlərdən ayrılıb avtobusa minərək, keçib sükan arxasında oturdu. Avtobusun arxa tərəfində hələ üç boş yer qalmışdı. Hacı Raziyə xanım istər-istəməz avtobusun yanında çox pərişan halda dayanmış iki əsgərə nəzər yetirdi. Onlar da məlul-müşkül dayanıb, yola düşməkdə olan avtobusun sürücüsünə baxırdılar. Bu vaxt sərnişinlərdən kimsə ucadan:

- Çox gözləyəcəyik? Sür gedək də - dedi.
- İndi tərpənirik, - deyə sürücü cavab verdi. Sonra o, yerdə dayanmış iki əsgərə:
- Yaxşı, gəlin minin - dedi.

Əsgərlər elə bil ki, sürücünün bu sözünü gözləyirmişlər. Onlar tez gəlib avtobusa mindilər və keçib arxadakı boş yerlərdə oturdular. Yolun yarısında əsgərlərdən biri sürücüyə

yaxınlaşıb onun mobil telefonu ilə evlərinə zəng etməyi xahiş etdi. Sürücü könülsüz halda telefonunu əsgərə verərkən dedi:
- Ancaq "vızov"luq konturum var, biləsən.
- Elə mən də "vızov" atacağam, - deyə əsgər sürücünü arxayın saldı.

Əsgər bir neçə dəfə kiməsə "vızov" atdı. Amma ona cavab verən olmadı. Hacı Raziyə xanımın gözü əsgərdə idi. O, çox narahat görünürdü. Ona cavab vermədikləri üçün pərt olmuşdu. Sonra əsgər yenidən telefonu sürücüyə qaytardı və gəlib arxadakı yerində oturdu. Hacı xanım istər-istəməz əsgərlərin söhbətinə qulaq müsafiri oldu. Telefonla danışmaq istəyən əsgər yoldaşına deyirdi: " Demək, evdə kimsə yoxdur. Ona görə telefona cavab vermirlər. Bəs indi nə edəcəyik?! Bir saatdan sonra Bakıda olacağıq. Bizi avtovağzalda qarşılayan olmasa, avtobus sürücüsünə nə deyəcəyik?!"

Bu danışıqdan sonra Hacı Raziyə xanıma aydın oldu ki, əsgərlərin yol pulları yoxdur. Ona görə evlərinə zəng edirmiş. Deməli, əsgərlərin pulu olmadığından avtobus sürücüsü onları aparmaq istəmirmiş.

Bir az keçəndən sonra əsgər yenidən sürücüyə yaxınlaşdı. Bu dəfə də telefon zəngi uğursuz alındı. O, geri qayıdıb yerinə keçərkən Hacı Raziyə xanım əsgərə dedi:
- Oğul, al mənim mobilnimi, istədiyin qədər danış. Narahat olma, konturum çoxdur.
- Çox sağ olun, xanım. - Əsgər oğlan utana-utana mobil telefonu Hacı xanımdan aldı.

O, zəng edən kimi ona cavab verdilər. Səs aydın eşidilirdi:
- Ana, mən əsgər yoldaşımla gəlirəm. Bizi avtovağzalda qarşılayın. Çünki avtobusa verməyə yol pulumuz yoxdur, - deyə əsgər sonuncu cümləni avtobusdakılar eşitməsin deyə, çox astadan söylədi. Ana isə cavabında dedi:
- Oğul, indi səni qarşılamağa avtovağzala gəlmək üçün evdə kimsə yoxdur. Bir atandır, o da işdədir, axşam gələcək. Mən

isə xəstəyəm, yataqdan qalxa bilmirəm, onsuz da məndə heç pul da yoxdur.
- Yaxşı, ana sağ ol. - Əsgər pərt olmuş halda mobil telefonu söndürüb, Hacı xanıma verdi və:
- Çox sağ olun, xanım. Allah köməyiniz olsun - dedi.

Əsgərlərin keçirdikləri hissləri Hacı Raziyə xanım yaxşı başa düşürdü. İndi onlar Bakıya kimi narahat, həyəcanlı olacaqdılar, sıxıntı keçirəcəkdilər...

Allah heç kəsi çarəsiz, kimsəni kimsənin qarşısında üzükölgəli, xəcalətli etməsin. Amma Hacı Raziyə xanım istəmədi ki, əsgərlər yol boyu, Bakıya kimi narahat olsunlar. Ona görə də o, üzünü əsgərlərə tutub dedi:
- Siz heç narahat olmayın, Allah adil və rəhmlidir, mütləq bunun bir çarəsi tapılar, inşallah! Ancaq sizdən bir xahişim var. Məni qırmayın, bu yeməkləri və suyu götürün, bilirəm ki, ac olarsınız.

Əsgərlər Hacı Raziyə xanımın onlara uzatdığı yol azuqəsini geri qaytarmayaraq ona təşəkkür etdilər...

Gəncədən gələn avtobus avtovağzala çatdı. Hacı Raziyə xanım avtobusdan düşərkən qabaqcadan əlində hazır saxladığı pulu sürücüyə uzadaraq:
- Zəhmət olmazsa, bu puldan arxadan gələn iki əsgərin yolpulunu çıxın - dedi.

Sürücü gülərək dedi:
- Onsuz da əsgərlərin pulu yox idi. Onlar dedilər ki, avtovağzalda onları qarşılayacaqlar. Allah qəlbinizə görə versin, xanım. Mömin qadına bənzəyirsiniz. Əsgərə kömək etmək Allaha da xoş gedər.

Sürücü iki əsgərin yol pulunu çıxdıqdan sonra, qalan pulu ona qaytaranda, Hacı Raziyə xanım sürücünün dediyi sözlərə dözə bilməyib cavabını verdi:
- Düz deyirsiniz, əsgərə kömək etmək Allah -təalaya da xoş gedər və böyük savab işlərdən sayılır. Amma bu savab işdən gərəkdir ki, Allah hamımıza nəsib etsin. Dünya malına aludə

olanlar, bu dünyadan gedərkən özü ilə yalnız gördüyü savab işləri və xeyirxah əməlləri aparır.

Hacı xanımın sözləri sürücünün üzünə tərs şillə kimi yapışdı. O, dediyinə də peşman olmuşdu, sifəti pörtdü, danışmağa daha dili olmadı. Hacı Raziyə xanım avtobusdan düşüb azacıq aralanmışdı ki, həmin iki əsgər qaça-qaça gəlib, arxadan Hacı xanıma yetişdilər. Əsgərlərdən biri təngnəfəs halda dedi:

- Bacım, Allah sizdən razı olsun. Siz olmasaydınız avtobus sürücüsünün yanında xəcalətli qalacaqdıq. Sürücü əvvəlcə pulumuzun olmadığını bilib, bizi avtobusa mindirmək istəmirdi. Biz onu əmin etdik ki, yolda evə zəng vuracağıq və avtovağzalda bizi qarşılamağa gələcəklər. Bildiyin kimi, evə zəng etdim, evdə anamdan başqa kimsə yox idi. Atam işdəymiş, anam da yataqda xəstə yatırdı. Mən ailənin tək övladıyam. Məni qarşılamayacaqlarını eşidəndə, çox pərişan oldum. Siz olmasaydınız...

- Yaxşı, yaxşı təşəkkür etməyə ehtiyac yoxdur. Siz əsgərsiniz, sizə kömək etmək hər birimizin borcudur. İndi siz hara gedəcəksiniz? – Hacı Raziyə xanım əsgərin sözünü tamamlamağa imkan verməyərək soruşdu.

- Mən Zabrata gedəcəyəm. İlk öncə əsgər dostumu Xaçmaza yola salmalıyam. Amma...

- Bilirəm, ona görə soruşdum ki, görüm bir yerə gedirsiniz, yoxsa ayrı-ayrı istiqamətlərə. Götürün, bu pulları da dostunu Xaçmaza yola sal, özün də evə get, - deyə Hacı xanım əlindəki qalan pulları da əsgərin ovcuna basdı.

- Bacım, Allah köməyiniz olsun. Allah öz nəzərini Sizin üstünüzdən heç zaman əskik etməsin. Amin! Amma siz mənə hökmən telefon nömrənizi verin. Sabah zəngləşib bir yerdə görüşək, pulunuzu qaytarım, - deyə əsgər yalvarış dolu nəzərlərini Hacı xanıma zillədi.

- Mən bunları sizə borc olaraq etmədim, Allah rizası üçün etdim. Narahat olmayın, verdiyim pulları sizə ana südü kimi halal edirəm.
- Belə olmaz ki, bacım?! - əsgər tutuldu.
- Di, sizə yaxşı yol, Allah kimsəni yarıyolda və ümidsiz qoymasın. Mən tələsirəm, məni gözləyirlər, - Hacı xanım tələsik əsgərlərlə sağollaşdı.
- Yaxşı deyiblər, qadın var, min kişiyə dəyər, - deyə Hacı xanım ovcuna pul basdığı əsgər onun arxasınca həsrət dolu baxışlarıyla dərindən köks ötürərək dilləndi.

Hacı xanım "20 yanvar" metrosuna çatanda, onun mobil telefonuna zəng gəldi. Nömrə tanış deyildi. Amma Hacı xanım telefonu açdı.
- Salam, Hacı Raziyə xanım. Bilirəm, tanımayacaqsan. Mənəm, İra. Yaxşı ki, nömrəni dəyişməmisən. Sənin də yanında yalançı çıxdım. Səhvimi boynuma alıram. Gərəkdi ki, bu beş ildə səninlə əlaqə saxlayaydım. And olsun bir olan Allaha ki, başım o qədər qarışmışdı ki, heç adımı belə xatırlaya bilmirdim. Deyəcəksən ki, İra özünə haqq qazandırmaqdan ötrü bu sözləri deyir. Bəli, etiraf edirəm ki, sənin qarşında xəcalətliyəm. Pulu səndən bir aylığına almışdım, amma bir də beş ildən sonra sənə zəng edirəm. Mən artıq Bakıdayam, dünən gəlmişəm. Düzü, o zamandan bəri Bakıya gəlib-getmişəm, ancaq hər dəfəki gəlişim qaçaraq olub. Səninlə əlaqə saxlamağa heç vaxtım olmayıb. De görüm, indi haradasan? Səninlə təcili görüşmək istəyirəm.

İşə bir bax. Hacı Raziyə xanım həm köhnə, etibarsız rəfiqəsi İradəni, həm də ona bir aylığına borc verdiyi 1.000 ABŞ dollarını çoxdan unutmuşdu. İlahinin qüdrətinə bir bax! Bu zaman Hacı Raziyə xanımın yadına 10-15 dəqiqə bundan öncə hörmət etdiyi çarəsiz əsgərlər düşdü. Demək, Tanrı bəndəsinin etdiyi yaxşılığın əvəzini gec-tez ona qaytarır. O, İradəyə harada olduğunu söylədi və onunla tanış olduğu ilk günü xatırladı. İstər-istəməz xəyal Hacı Raziyə xanımı altı il

öncəyə apardı. O zaman Raziyə yaxın bir tanışının vasitəsilə qəzetlərin birində işə düzəlmişdi. O, iki il olardı ki, həyat yoldaşını Qarabağ döyüşlərində itirmişdi. Beş yaşlı qız uşağını böyütmək onun öhdəsinə düşmüşdü. Raziyənin atası-anası, qardaşı olmasına baxmayaraq, ona heç zaman kömək əllərini uzatmamışdılar. Səbəbi isə Raziyənin valideynlərinin razı olmadığı bir oğlanla ailə həyatı qurması idi. Raziyənin valideynləri varı-dövləti, şan-şöhrəti sevən adamlardı. Onlar istəyirdilər ki, ali təhsilli Raziyəni varlı-karlı bir oğlana ərə versinlər. Raziyə isə könül verdiyi tələbə yoldaşıyla ailə həyatı qurmağı üstün tutmuşdu. Amma valideynlərinin xeyir-duası alınmadığı bu ailə xoşbəxtliyi elə də uzun sürmədi. Qarabağ savaşı digər azərbaycanlı qadınlarımızın ailə səadətini əlindən alıb, "ocaqlarını söndürdüyü" kimı, Raziyənin də taleyinə qara xətt çəkdi. Həyatının ən gözəl çağında o, dünyanın vəfasızlığı ilə barışmaq məcburiyyətində qaldı. O, nə qədər çətin günlər yaşasa da, kömək üçün kimsəyə, hətta ən yaxınlarına belə ağız açmadı, kimsənin qarşısında əyilmədi. O, bircə balasını halallıqla böyüdüb, boya-başa çatdırmaqda israrlı oldu. Raziyə çox ağıllı, ləyaqətli, qürurlu, əzmkar, işgüzar, mehriban, dostcanlı, xoşxasiyyətli, ağırtəbiətli, ismətli, abır-həyalı bir xanımdı. Bütün bunlara rəğmən Raziyə həm də gözəgəlimli qadın idi. On-on beş qadının içərisindən kişilərin diqqətini çəkərdi. Gəldiyi gündən nəşriyyatda hamı ona gözaltı nəzər yetirirdi. Raziyə isə bu nəzərlərə qarşı çox laqeyd və biganə idi. Raziyənin İradə ilə ilk tanışlığı da işlədiyi qəzet redaksiyasında olmuşdu. O, bir həftə idi ki, tanınmış bir redaktorun qəzetində müxbir kimi işə başlamışdı. Raziyə baş redaktorun tapşırığı ilə bir idarə rəhbərindən götürdüyü müsahibəni hazırlayıb, şefinin qəbuluna girmək istəyirdi. Katibə qız Raziyəni görən kimi dedi:

- A-a-a! Yaxşı oldu ki, gəldiniz. Mən də sizə zəng vuracaqdım. Aslan müəllim elə indicə sizi soruşurdu. Yazı-filan deyirdi. Gətirmisiz?!

- Bəli, yazını hazırlamışam. Aslan müəllim yazıya baxmalıdır. - Raziyə utanırmış kimi astadan cavab verdi.
- Keçin içəri, Aslan müəllim sizi gözləyir. - Katibə qız Raziyəyə içəri keçməsini bildirdi.

Raziyə Baş redaktorun kabinetinə girmək istəyirdi ki, bu zaman qırlı-fırlı, at yerişli, ədalı, ucaboylu, əndamlı bir xanım içəri girərək, üzünü katibə qıza tutub işvə-nazla:
- Seva, Aslançik məni gözləyir - dedi.
- İra, axı...
- Narahat olma, elə indicə onunla əl telefonunda danışmışıq, - deyə İra dönüb mənə baxaraq göz vurdu. - Bu gözəl xanım məndən sonra keçər içəri. Elə deyilmi, su sonası?

Az keçməmiş içəridən İranın qəhqəhə dolu gülüş səsləri otağı başına götürdü. Bu zaman katibə qız:
- Xanım, adınızı da bilmirəm...
- Raziyə xanım.
- Raziyə xanım, gəlin əyləşin. İranınkı uzun sürəcək. Ayaqda qalmayın, - Seva oturmaq üçün ona yer göstərdi.
- Çox sağ olun, - deyə Raziyə qapının yanında qoyulmuş üç stuldan birində əyləşdi.

Bir azdan gülüş səsləri kəsildi. İçəridə tam sakitlik yarandı. Seva sol əlində güzgü, sağ əlindəki qırmızı rəngli boya ilə şişmiş dodaqlarını boyayırdı. Yarım saatdan sonra İra sifəti pörtmüş halda baş redaktorun kabinetindən çıxdı. Onun köynəyi şalvarının üstündən yarı çıxmış, saçları pırtlaşıq, boynu və dodaqları gömgöy olmuşdu. İra gedərkən gülümsəyərək, gözucu Raziyəyə baxdı və yenə də göz vurdu.

Raziyə qapını döyüb baş redaktorun otağına girdi. Aslan Raziyəni görcək özünü yığışdırdı və üzündə süni təbəssüm yaratmağa çalışdı. Onun da sir-sifəti pörtmüşdü, sanki təndirin alovu üzünə vurmuşdu.
- Salam, Aslan müəllim - Raziyə astadan nazik səslə dedi.
- Salam, xoş gəldiniz, Raziyə xanım. Gəlin əyləşin. Məncə, yazını hazırlamısınız, eləmi?

- Bəli, yazı hazırdır. Buyurun, baxın, - deyə Raziyə istehsalat sahəsində çalışan bir müdirdən hazırladığı müsahibəni baş redaktora uzatdı.

Baş redaktor yazıya gözucu baxıb soruşdu:

- Bəs müdir sizə başqa bir şey vermədi?

- Başqa nə verəsiydi ki, Aslan müəllim? - Raziyə təəccüblə gözlərini döydü.

- Necə nə verəsiydi?! Bundan əlavə, müdir sizə bir məktub da verməliydi.- Aslan müəllim sifətini bozartdı.

- Mən müsahibəni götürəndən sonra müdir mənə nəsə verməyə çalışdı, ancaq mən buna imkan vermədim.

- Siz bacarmadığınız işi, İra xanım bacardı. Eybi yoxdur, hələ yenisiniz, tezliklə siz də belə şeylərə alışacaqsınız. - Baş redaktor kresloya yayxındı. - Siz mənim tövsiyələrimə əməl etsəniz, bu sahədə siz də böyük uğurlar qazanarsınız. Çünki sizin ağlınız, fərasətiniz, gözəlliyiniz, diqqəti ilk anda cəlb etməyiniz, xoş təbəssümünüz imkan verir ki, siz İra xanımdan daha qabağa gedəsiniz.

- Mən ancaq mənə aid olan işi görməyi xoşlayıram, Aslan müəllim. Digər işlər mənlik deyil. - Raziyə də söz altında qalmadı və baş redaktora anlatdı ki, o, çörəyi qulağına yemir.

- Digər işlər deyəndə, nəyi nəzərdə tutursunuz, Raziyə xanım? - Aslan müəllim işçisini gözaltı süzdü və qımışaraq soruşdu.

- Yəni, İra xanımın gördüyü işləri nəzərdə tuturam. - Raziyə bu dəfə çəkinmədən hədəfə sərrast “atəş” açdı.

- İra çox zirək qızdır, başqalarının bacarmadığı müşkül işləri o, həll edir. Redaksiyadakı oğlanların heç birisi İranın yerişini yeriyə bilməz. Bir sözlə, İranı dəyirmanın boğazına ölü atsan, oradan diri çıxar. Onu hara göndərirəmsə, heç zaman əliboş geri qayıtmayıb. Əsl işçi belə olar. - Baş redaktor Raziyə xanıma bununla sanki yanmışlıq verdi.

- Aslan müəllim, yazıya baxmayacaqsınız? - Raziyə pörtmüş və əsəbi halda soruşdu.

- Siz gedə bilərsiniz. Yazını oxuyandan sonra özüm sizi çağıracağam. – Baş redaktor sanki bu “cansıxıcı” xanımdan tez qurtulmaq istədi.

O, Raziyənin sifətinin haldan-hala düşməyindən anladı ki, söhbəti bir az da davam etdirsə, burada nəsə xoşagəlməz anlar yaşana bilər. Raziyə bir söz demədən, sakitcə baş redaktorun otağını tərk etdi. O, dəhlizə çıxanda İranın bir oğlanla xosunlaşdığını gördü. İra da Raziyəni görən kimi, oğlandan aralanıb ona yaxınlaşdı və gülərək dedi:

- Raziyə xanım, yeni işiniz xeyirli olsun. Eşitdim ki, bizim redaksiyada işləyəcəksiniz. Bu lap yaxşı oldu. Mən inanıram ki, bizimki bir-birimizlə tutacaq.
- Çox sağ olun, İra. Hardan bilir...
- A-a-a, adımı da bilirsiniz. Gördünmü?..
- Hardan bilirsiniz ki, bizimki biri-birimizlə tutacaq? Ancaq mən elə düşünmürəm. Biz fərqli dünyanın adamlarıyıq, İra xanım. - Raziyə ilk söhbətdən İranı sancdı.
- Mən tez inciyən xanımlardan deyiləm. Beləliyimə baxma, Raziyə, mən yaxşı rəfiqə, etibarlı və sədaqətli dost, yoldaş üçün canımdan keçməyə hazır olan qadınlardanam. Təki məni qəlbən başa düşən insan olsun. – İra sifətinə ciddi görkəm verdi.

Bu zaman baş redaktorun katibəsi qapını açıb dəhlizdə bizi görcək dedi:

- İra, mən də telefonla səhərdən səni axtarıram. Tez ol, Aslan müəllim səni çağırır.
- Nə oldu, bu kişiyə belə? Elə indicə onun yanından çıxmışam ki. Deyəsən, mənimçün darıxıb a... Raziyə, bir yerə getmirsiniz ki?
- Xeyr, xeyr, buralardayam, otaqda olacağam.
- Yaxşı, mən bu dəqiqə şefin yanına girib, çıxıram. Sizinlə daha yaxından tanış olmaq istəyirəm. Otaqda ol, indi gəlirəm, - deyə İra baş redaktorun yanına tələsdi.

Çox keçmədi ki, İradə baş redaktorun yanından çıxıb, Raziyəni görmək üçün kompüter otağına girdi. Raziyə nəsə yazırdı.

- Raziyə, gəl aşağı, çayxanaya düşək. Orada rahatca söhbət edərik. Narahat olma, çaylar məndəndir, - deyə İradə ərkyana Raziyənin qolundan tutub, ayağa qaldırdı.

Raziyə də İranın sözünü yerə salmadı. Onlar birlikdə pilləkənlərlə çayxanaya düşərkən üç dəfə ayrı-ayrı oğlanlar İranı saxlayıb, bir neçə dəqiqəliyinə onunla nə barədəsə söhbət etdilər. İradənin bu hərəkəti Raziyəyə heç də xoş gəlmədi. İradə bunu Raziyənin narazı baxışlarından dərhal anladı və gülərək dedi:

- Bağışla, Raziyə. Görürsən də oğlanlar imkan vermirlər. Bunların hamısı belədir. Görüm bunların... Amma kişilərin nəsli kəsilsə, bəs biz qadınlar onlarsız nə edərik? – İra bərkdən qəhqəhə çəkib güldü. - Bilmirəm, bu nəşriyyatın havasındandır, yoxsa nədəndir, buraya ilk dəfə qədəm qoyan hər bir qadınla kişilər həmən maraqlanmağa başlayırlar. Bax, gördünmü, məni saxlayıb söhbətə tutanların hər üçü səninlə maraqlanırdı. Kimdir, nəçidir, subaydır, evlidir, boşanıbdır, daha nələr, nələr... Bax, Raziyə budur sənə deyirəm. Onların heç birinə fikir vermə. İlk günlər sənin zəhləni tökənlər çox olacaq. Onlarla mülayim davrandın yanacaqsan, səndən əl çəkməyəcəklər. Yox əgər...

- İra, mən uşaq deyiləm ki, bu cür məsləhətlərə ehtiyacım olsun. Sən bu barədə narahat olma, onların öhdəsindən necə gəlməyi bilirəm. - Raziyə İranı arxayın saldı.

Çayxanada İra ilə Raziyə lap küncdəki boş stolda əyləşdilər. İra çay sifariş verdi və sonra üzünü Raziyəyə tutub soruşdu:

- Raziyə, nahar da edəkmi?

- Xeyr, xeyr. Mən ac deyiləm. Əgər istəyirsənsə, sən nahar edə bilərsən - Raziyə dedi.

- Xeyr, mən də toxam, sənə görə deyirdim. - İradə çay sifarişiylə kifayətləndi.

Qonşu stoldakı “şorgöz jurnalistlər” bayaqdan bəri gözlərini Raziyədən çəkmirdilər.

- Yaxşı, Raziyə, gəl indi bir-birimizlə yaxından tanış olaq. Əvvəlcə mən özüm haqqında yalansız-filansız danışacağam. Evli idim. Bir qız uşağım olandan sonra ərimdən boşandıq. Daha doğrusu, mən ondan boşandım. O, ən yaxın rəfiqəmlə mənə xəyanət edirdi. Nəhayət, bir gün hər ikisini yataqda tutdum. Heç bir söz demədən, hər ikisinin üzünə bir lomba tüpürdüm və onu evdən qovdum. Evi mənə atam almışdı.O, mənim hesabıma yaşayırdı. O vaxtdan bəri kişilərdən müxtəlif yollarla intiqam alıram. Onları barmağıma dolayıb fırladıram, sonra kişilik qürurlarını, hisslərini ayaqlarım altına atıb tapdalamaqdan həzz alıram. Onları istədiyim formada alçalda bilirəm. Bütün bunların hamısını dəlil-sübut kimi mobilimin kamerasına çəkib saxlayıram. Bundan sonra onlar məndən asılı vəziyyətdə qalır. Və mənim göstərişlərimə həmişə müntəzir olurlar. Mənə qarşı gələn olursa, görüntüləri qarşısına qoyandan sonra quzuya dönür və ayaqlarıma düşüb yalvarmağa başlayır.

- Amma bu çox təhlükəli oyundur. - Raziyə tez dilləndi. - Sizi buna görə öldürə bilərlər.

- Mən orasını da düşünmüşəm. Prokurorluqda çox etibarlı bir dostum var. O məni qoruyur, ona görə də kimdənsə qorxub-çəkinmirəm. Bu yolla yaxşı pul da qazanıram. Bunu danmıram. Hə, indi sən özün barədə danış görək, hardan gəlib, hara gedirsən? - İradə gülərək soruşdu.

Raziyə də özü haqqında hər şeyi doğru-dürüst İraya anlatdı. İra bir müddət susub danışmadı. Sifəti ciddi görkəm almışdı, sanki gəmiləri dənizdə batan adamı xatırladırdı. Handan-hana İra dilləndi:

- Raziyə, qəlbimə yatan insana heç vaxt yalan söyləmərəm. Onunla həmişə açıq və səmimi olmağa çalışıram. Mən səninlə açıq danışacağam. Düzünü deyim ki, burası, yəni bu nəşriyyat, işlədiyin bu qəzet redaksiyası da sənlik deyil. Sən bu

bataqlıqda batarsan, buraya gəldiyinə peşman olarsan. Mən sənə bir bacı kimi məsləhət görürəm ki, nə qədər gec deyil, buradan uzaqlaş. Heç bilirsən Aslan məni ikinci dəfə nəyə görə çağırmışdı? Sənə görə. Sənin şəxsi həyatın barədə hər şeyi öyrənmək üçün məndən ona yardım etməyimi xahiş etdi.

- Sən də razılıq verdin, eləmi? - Raziyə tez soruşdu.

- Əlbəttə, razı oldum. Ancaq bu dəfə mən həm Aslana, həm də onun özü kimi işərəfsiz dostlarına yaxşı bir plan hazırlayacağam. Bu işdə əsas qəhrəman sən olacaqsan.

- Məni belə iyrənc işlərə qarışdırma, İra. - Raziyə etiraz etmək istədi.

- Bir az keçdikdən sonra, onsuz da özündən asılı olmayaraq, bütün iyrənc işlərin içində olacaqsan. Amma təklifimi dinləyib, birgə hərəkət etsək, həm mənəvi cəhətdən, həm də maddi cəhətdən böyük uğur qazana bilərik. Biqeyrət, şərəfsiz, binamus kişiləri ifşa edib, onları yerlərində oturtmaq lazımdır ki, bir də namuslu, şərəfli, ləyaqətli, ismətli qadınları ləkələməsinlər, çirkaba bulaşdırmasınlar, öz oyuncaqlarına çevirməsinlər, onları alçatmasınlar.

- Yaxşı, planın nədən ibarətdir? - Raziyə maraqla soruşdu.

- Məni yaxşıca dinlə. Danışacaqlarım ancaq ikimizin arasında qalmalıdır. Kimsə bundan xəbər tutsa, hər ikimiz yanarıq. Aslanın redaksiyada bir neçə “zayçik”ləri vardır. Onlar hər nə eşidirlərsə, dərhal ona çatdırırlar. Aslan sabah günortadan sonra səni şam yeməyinə dəvət edəcək. O, da şorgözün, əxlaqsızın birisidir. Gözəgəlimli qızları əvvəlcə o, dişinə vurur, ipə-sapa yatmayanları isə dost-tanışlarına “hədiyyə” edir. Əgər sən onunla şam yeməyinə getsən, onun caynağından qurtula bilməyəcəksən. Yox, əgər getməsən, onda səndən hökmən intiqam almağa çalışacaq.

- Necə? - Raziyə yenidən soruşdu.

- Sən ona yaxınlıq etmədiyinə görə, səni başqalarına yem edəcək. Onun çoxlu imkanlı müdir dostları var. Səni yazı hazırlamaq bəhanəsilə onların yanına göndərəcək. Elə qadın

olmasın ki, puldan, zinət şeylərindən xoşu gəlməsin. Qadınlar parıltıya tez aldanırlar. Əvvəlcə bahalı üzük-sırğa, daş-qaşlar sonra da...

- Sonra da nə?! - Raziyə təəccüblə soruşdu.

- Sonra da bu akulaların iti dişlərindən çətin ki, canını qurtara biləsən. Çünki onlar belə işlərdə çox mahirdirlər. Səni ələ keçirmək üçün bütün iyrənc üsullardan istifadə edəcəklər, doğulduğuna peşman edəcəklər. Onların əli uzundur, hər yerə çatır. Hər zaman da onlar haqlı çıxırlar, bütün kirli işlərini, ayıblarını haram yolla qazandıqları pullar vasitəsilə təmizləməyi artıq vərdiş ediblər.

- Bəs bunların Allahdan heç qorxu-hürküləri yoxdur, bəyəm?

- Nə qorxu-filan, ay qız?! Onların kimsədən qorxub-çəkindikləri yoxdur. Bunlar mafiyadır, zəncirvarı bir-birinə sarınıblar. Yetər ki, birinin ayağını tapdalayasan, min yerdən hücuma məruz qalacaqsan. Səncə, mafiyaya kimin gücü çatar?! Bunları ancaq öz silahları ilə vurmaq lazımdır. Raziyə, yaxşı olar ki, sən bu axşam mənim dediklərim barədə düşünəsən.

- Yaxşı, sən deyən olsun. Bu axşam dediklərin barədə düşünəcəyəm. - Raziyə dedi.

- Elə isə, qalxaq. Mən Aslan müəllimə uydurmaq üçün bir şeylər fikirləşərəm. - İradə də ayağa qalxdı.

Raziyə İradədən ayrılandan sonra, yeni “rəfiqə”sinin danışdıqlarında nə qədər səmimi və doğru-dürüst olduğunu yoxlamaq istədi.

Ertəsi gün Raziyə bilgisayar otağında oturub, qəzetin yeni sayı üçün növbəti yazısını hazırlayırdı. Bu zaman baş redaktorun katibəsi daxili telefonla Raziyəyə Aslan müəllimin onu çağırdığını bildirdi. Raziyə əlindəki yazını buraxıb, baş redaktorun otağına getdi.

Bu dəfə Aslan müəllim təzə işçisini gülərüzlə qarşıladı və lütfkarlıq göstərərək, onunçün hələ bir çay da sifariş etdi. Düzü, Raziyə utandı. Baş redaktor bunu görüncə dedi:

- Raziyə xanım, açığını deyim ki, siz başqalarına qətiyyən bənzəmirsiniz. Siz tamamilə fərqli bir xanımsınız. Buradakılara o qədər fikir verməyin, onların əllərindən boşboğazlıqdan başqa bir iş gəlmir. Hər birini mötəbər adamların tapşırığı ilə işə götürmək məcburiyyətində qalmışam. İndiki zamanda bilirsən ki, qəzet saxlamaq çətindir. Qəzetin maliyyə məsrəfləri çoxdur. İnanın ki, dost-tanışların yardımı olmasa, mən bu qəzeti çıxarda bilmərəm. Allah onların canını salamat eləsin. Mən sizin hazırladığınız yazını oxudum. Hiss olunur ki, sizdə nəsə var, yəni üzərinizdə çalışsanız, gələcəkdə sizdən yaxşı jurnalist ola bilər. Mən bu işdə sizə əlimdən gələn köməyi edəcəyəm.

- Çox sağ olun, Aslan müəllim. Çalışacağam ki, etimadınızı doğruldum. Buna əmin ola bilərsiniz. Mən bu sənəti çox sevirəm. Jurnalist olmaq çoxdankı arzum idi. - Raziyə qızara-qızara cavab verdi.

- Raziyə xanım, bu axşama nəsə bir planız yoxdur ki?

- Xeyr, elə də vacib planım yoxdur. Sadəcə, məni çoxdan bəri narahat edən bir mövzu haqqında yazı yazacağam.

- Bilmək olarmı, yazı nə barədədir? Çünki qəzetdə gedəcək yazılar ilk növbədə məni daha çox maraqlandırır və bu barədə qərarı da mən verirəm.

- Yazacağım məqalə “Qadın ləyaqəti, qadın isməti” mövzusunda olacaq, Aslan müəllim.

- Bilirsiniz, Raziyə xanım, bizim qəzet hüquq qəzeti olduğu üçün bu cür yazıları çox nadir hallarda veririk, - deyə baş redaktorun sifəti birdən-birə dəyişdi, rəngi avazıdı, çöhrəsini sanki qara buludlar aldı.

Bu Raziyə xanımın gözündən qaçmadı. Raziyə bunu qəsdən demişdi.

- Aslan müəllim, mənə nəsə deyəcəkdiniz. - Raziyənin elə bil ki, qırışığı açıldı.

- Deyirəm ki, başqa bir işiniz yoxdursa, yeni işinizi qeyd etmək üçün sizi şam yeməyinə dəvət edirəm, - deyə Aslan müəllim bu dəfə nədənsə çəkinə-çəkinə dilləndi.
- Etiraz etmirəm.- Raziyə də özünü o yerə qoymadı.
- Dostumun yaxşı bir restoranı var, işdən sonra ora gedərik. Ancaq bunu işçilərdən kimsə bilməməlidir, Raziyə xanım. - Aslan müəllimin çöhrəsində elə bil ki günəş doğdu.
- Bu barədə heç narahat olmayın, Aslan müəllim. Mən işimi ehtiyatla tutmağı bacarıram. - Raziyə əminliklə bildirdi.

Baş redaktor ürəyində: "adə, bu ki, çoxdan hazırmış ki..." dedi.

Raziyə düşündü ki, hələlik İranın ona söylədikləri düz çıxır.

Axşam baş redaktorla Raziyə artıq restorandakı ayrıca otaqların birində onlar üçün qabaqcadan hazırlanmış stolun arxasında oturmuşdular. Stolun üstündə hər şey vardı. Yeməyə başlamazdan öncə, Aslan əl atıb partıltıyla şampan butulkasının ağzını açdı. O, Raziyənin qədəhinə şərab süzərkən qız qəti etiraz etdi:
- Aslan müəllim, siz nə edirsiniz? Mən içki içmirəm. Özünüzə süzün, spirtli içki mənlik deyil. Mən meyvə şirəsi içəcəyəm.
- Necə?! İçmirsiniz? - Baş redaktor təəccüblə dilləndi.
- Xeyr, içmirəm. - Raziyə yenə təkrar etdi.
- Mən şampanı sizə görə...
- Aslan müəllim, mənə spirtli içki olmaz. Mən namaz əhliyəm. Sizinlə bu stolda oturduğum üçün mən də böyük günah qazanıram. Amma etika xatirinə, sizi qırmamaq üçün təklifinizi qəbul etdim.
- Yaxşı, siz deyən olsun, daha təkid etməyəcəyəm. Mən isə içəcəyəm. - Aslan müəllim əlindəki şampanı yenidən stolun üstünə qoydu və bu dəfə araq butulkasının ağzını açaraq, öz qədəhinə süzdü.

O, heç nə yemədən araqla dolu qədəhi birnəfəsə başına çəkdi, üz-gözünü turşudub, duzlu xiyardan birini götürüb dişlədi. Az keçmədi ki, Aslanın başı dumanlanmağa başladı.

Artıq o, nə danışdığının fərqində deyildi, ağzına gələni üyüdüb tökürdü. Raziyə baş redaktorunu bu vəziyyətdə görüncə, ondan iyrəndi. Düşündü ki, içki adamı gör bir nə hallara salır. Bir az bundan öncə, ilk andan adama xoş təəssürat bağışlayan bir insan, indi tanınmaz hala düşüb, başqa bir adam olmuşdu. Deyirlər ki, insanın daxili aləmi bir sərxoş olduğu halda, bir də qumar oynadığı zaman üzə çıxır. İndi əvvəlki Aslandan əsər-əlamət qalmamışdı. Baş redaktor ayağa qalxıb Raziyəyə yaxınlaşdı. Heç nədən çəkinmədən, əl atıb onun qolundan tutaraq, oturduğu yerdən qaldırmaq istədi:

- Raziyə xanım, mən sizinlə rəqs etmək istəyirəm. Qalx ayağa, rəqs edək. Məni "atkaz" eləməyin. Mən sizinçün nə desən, eləyəcəyəm. Təki siz bu gün mənim istəklərimin əleyhinə getməyin! Sizin o, qara gözlərinizə bu canım fəda olsun!

- Aslan müəllim, siz nə edirsiniz?! Özünüzü ələ alın! Mən bunu sizdən gözləməzdim. Bu nə hərəkətdir edirsiniz? Ayıbdır! Özünüzə gəlin! İçməyi bacarmırdınızsa, gərək içməyəydiniz. - Raziyə oturduğu yerdən qalxıb kənara çəkildi.

Aslan ondan əl çəkmək istəmirdi. O, Raziyənin dediklərini eşitmirmiş kimi, yenidən əl atıb onun qolundan yapışaraq özünə tərəf çəkdi. Raziyə çırpınıb onun əlindən xilas olmağa çalışırdı. Aslan isə qızmış pələng kimi qızı qamarlayıb, onu öpmək istəyirdi. Amma Raziyə buna imkan vermədi. O, baş redaktorun sinəsindən var gücü ilə geri itələdi. Aslan müvazinətini itirib yerə yıxıldı.

- Alçaq! Sizin niyyətiniz indi aydın oldu mənə. Düzdür, sizdə heç bir günah yoxdur, əsl günah məndədir ki, sizin kimi şərəfsizin təklifini qəbul etdim. Ayıb olsun sizə! Kişi də işçisi ilə bu cür rəftar edərmi heç?! - Raziyə pörtmüş, əsəbi halda qapını arxasınca çırparaq, restoranı təkbaşına tərk etdi.

Həmin gecə səhərəcən Raziyəni yuxu aparmadı. "Deməli, İra haqlı imiş", deyə düşündü.

Ertəsi gün Raziyə işə getmək istəmədi. Ancaq o, bu barədə İradə ilə hökmən danışmalıydı.

O, əvvəlcə qızını bağçaya apardı, sonra tələsmədən iş yerinə yollandı. Qərara gəlmişdi ki, gedən kimi, ərizəsini yazıb işdən çıxacaq. Raziyə redaksiyaya daxil olarkən İra onu çoxdan gözləyirmiş kimi:

- A-a-a-z, harada qalmısan bu vaxta kimi? Sən ki işə hamıdan tez gələrdin. Bu gün nə oldu belə gecikdin? Aslan müəllim səhərdən bəri düz üç dəfə səni soruşub. Dedi ki, “Raziyə xanım gələn kimi, yanıma göndərin!” - uca səslə dedi .

- İra, səninlə ikilikdə danışmaq istəyirəm, - deyə Raziyə İradəni onunla söhbət etmək üçün çayxanaya apardı.

Raziyə axşamkı əhvalatı yerli-yataqlı İradəyə söylədi.

- Gördünmü?! İndi mənə inandınmı? Bu kişilər hamısı bir bezin qırağıdır. Onlara qətiyyən etibar etmək olmaz! İndi fikrin nədir? Nə etmək istəyirsən? - İradə cavab gözləyirmiş kimi gözlərini Raziyəyə zillədi.

- Nə edəcəyəm. Ərizəmi yazıb işdən çıxacağam. Amma çıxarkən ona dişimin dibindən çıxanı deyəcəyəm, sonra da üzünə tüpürəcəyəm. - Raziyə dedi.

- Dayan bir görüm. Onun üzünə tüpürməyə hər zaman vaxtın olar. Amma de görüm, mənim planım barədə düşündünmü heç? - İradə Raziyənin fikrini bilmək istədi.

- Yaxşı, bundan sonra necə desən, elə hərəkət edəcəyəm. Yetər ki, bu binamusu ifşa edək. Bəlkə, başqalarına da dərs olar. - Raziyə bundan sonra İradəyə inandığını və ona bel bağladığını təsdiq etdi.

- Bura bax, mən bu Aslanın ciyərini bilirəm. İndi o səni otağına dəvət edəcək və səninlə aranızda heç bir şey olmamış kimi davranacaq, səndən üzr istəyəcək. Onun üzə gülümsəməsinə baxma, o, çox kinli adamdır. O səni ya bu gün, ya da sabah yazı hazırlamaq üçün hökmən yaxın dostlarından birinin yanına göndərəcək. Oraya tək getməzsən, gedərkən mənə də xəbər verərsən. Mən o zaman əsas planım barədə sənə ətraflı

danışacağam. Planım baş tutarsa, kasıbçılığın daşını birdəfəlik atacaqsan, - deyə İradə Raziyəni baş redaktora qarşı təlimatlandırdı.

Bu vaxt çayxanaya onların iş yoldaşı Elçin daxil oldu. O, hər tərəfə nəzər saldı. Raziyə ilə İradəni birlikdə görcək, gülə-gülə onlara yaxınlaşdı:

- Mən də sizi axtarırdım, Raziyə xanım. Aslan müəllim sizi çağırır - dedi.
- İndi gəlirəm. - Raziyə dilləndi.

Elçin daha gözləməyib, tez geri qayıtdı. Raziyə ayağa qalxarkən, İradə astadan dedi:

- Dediklərimi unutma! Al, mənim mobil telefonumu, oturduğun kresloya qoyarsan. Sən bayıra çıxandan sonra, Aslan hökmən hansı bir dostu ilə danışacaq. Qoy onların danışığını mobilim yazsın. Bu bizə lazım olacaq.
- Bəs mən telefonu sonra oradan necə götürəcəyəm?
- Çox sadə. Beş-on dəqiqə keçəndən sonra, yenidən geri qayıdıb, telefonunu unutduğunu söyləyəcəksən, vəssalam.
- Yaxşı, sən heç narahat olma, İra. Mən dediyini edəcəyəm, - Raziyə rəfiqəsini əmin etdi.

Raziyə baş redaktorun otağına girən kimi, Aslan tez ayağa qalxıb gülə-gülə:

- Raziyə xanım, xoş gəlmisiniz. Buyurun, əyləşin. Dünən axşam olanlar üçün sizdən üzr istəyirəm. Özümdə olmamışam, nə danışdığımı bilməmişəm. İçki məni tez tutub. Siz allah məni bağışlayın - dedi.
- Aslan müəllim, mənim yerimdə olsaydınız, sizə qarşı bu cür hərəkət edəni bağışlardınızmı? - Raziyə sınayıcı nəzərlərlə baş redaktora baxdı.
- Haqlısan, Raziyə xanım. Mən düzgün hərəkət etməmişəm. Amma xətamı istədiyin zaman nə ilə desən düzəltməyə hazıram. Günahımı yumaqdan ötrü xahiş deyil, nə əmr etsəniz, yerinə yetirməsən heç kişi deyiləm! Yetər ki, məni əfv edəsiniz. - Aslan açıqcasına Raziyəyə yalvarırdı.

- Yaxşı, qoy bu birinci və sonuncu olsun. - Raziyə özünü guya onu bağışlayırmış kimi göstərdi.
- Raziyə xanım, bir nəfər biznesmen tanışımdan yazı hazırlamaq lazımdır. Düşündüm ki, bu yazını ancaq siz hazırlaya bilərsiniz. Onun yanına sizdən başqa kimi göndərsəm, bilirəm ki, yarıtmayacaq. Çünki onların gətirdikləri materialı sonda özüm hazırlamalı oluram. Amma siz mənə hazır yazı gətirirsiniz. Hə, nə deyirsiniz? O, sizə necə lazımdırsa, "hörmət" də edəcək.
- Kimsənin "hörməti"nə ehtiyacım yoxdur, Aslan müəllim. Amma yazını hazırlayacağam. Onun yanına nə vaxt getməliyəm? - Raziyə soruşdu.
- Mən indi onunla əlaqə saxlayandan sonra sizə bildirəcəyəm. Siz bir yerə getməyin, hələlik otağınızda olun. Mən sizi yenidən çağıracağam. - Baş redaktor Raziyəyə getməsinə işarə etdi.

Raziyə baş redaktorun otağını tərk edərkən, İranın ona verdiyi mobil telefonu diktafona qurulmuş halda oturduğu kresloya qoyaraq, otağı tərk etdi və birbaş İradənin yanına tələsdi. Və baş redaktorla aralarında olan söhbəti ona danışdı.
- Gördünmü, Raziyə? Sənə dediklərim bir-bir düz çıxır. İndi bundan sonra mən deyənlə hərəkət etməlisən,- deyə İradə biznesmenə qarşı nəzərində tutduğu planla Raziyəni də tanış etdi.
- İra, səndən qorxmaq lazımdır. Təcrübəli müstəntiq kimi iş görürsən. Bütün bunları necə öyrənmisən? - Raziyə təəccüblə İraya baxdı.
- Bütün bunları mənə yaşadığım həyat öyrədib. Gündə bir neçə rola girməsən, həyatda istədiyinə nail ola bilməzsən. Rola girərkən ilk növbədə insanları özünə inandırmağı bacarmalısan. Bu əsas şərtdir. İkinci bir tərəfdən də, mən bu yolları artıq çoxdan gedib qayıtmışam. - İradə gülərək kişiyanə tərzdə sağ əlini rəfiqəsinin çiyninə qoydu.

Gözləməyə o qədər də vaxt lazım olmadı. Beş-altı dəqiqədən sonra baş redaktor Raziyəni yenidən otağına çağırdı. Raziyə getdi və tez də geri döndü. Onlar nəşriyyatdan birlikdə çıxdılar. Yolda gedərkən İradə rəfiqəsinə:

- Raziyə, əvvəlcə mobil telefondakı danışığı sakit bir yerdə dinləyək görək, bu şərəfsizlər sənə necə tor qurublar. Tədbirimizi ona görə alaq. Gəl, parka gedək, ora sakitlikdir - dedi.

Hər iki rəfiqə parkda sakit bir guşədə mobil telefonuna qulaq asdılar. Həqiqətən danışıq olmuşdu. Aslan dostuna deyirdi:

- Qardaş, salam. Çoxdandır ki, zəng etmirsiniz. Əvvəllər tez-tez zəng edərdiniz. Deyəsən, bizləri daha unutmusunuz? Nə qədər ki, yeni gözəl xanımlar var idi, o zaman hər gün axtarırdınız. Əlbəttə, bunlar bir zarafatdır. Hə, belə de. Demək xaricdəydiniz. Vaqif müəllim, sizdən yaxşı bir yazı hazırlamaq istəyirəm. Nə deyirsiniz? Bəli, yeni bir gözəl xanım işə götürmüşəm, yazını da o, hazırlayacaq. Özün görəcəksən də... Xeyr, gerisi daha sizlikdir. Siz ki bu işlərdə mahirsiniz. Mənim bu barədə məsləhətim yersiz olar. İlk baxışdan ciddi xanıma bənzəyir. Xeyr, xeyr, mənlik deyil. Düşündüm ki, onun dilini siz məndən daha yaxşı bilərsiniz. İndi yerindəsiniz də? O zaman yeni ceyranı göndərirəm...

- Ay, namussuz! Nakişi! Biqeyrət! Tülkü! - Raziyə baş redaktorun arxasınca əsib-coşdu.

- A-a-a-z, sakit ol, görüm. Düz deyirsən, o, aslan deyil, əsl tülküdür ki, var. Bura bax, Raziyə, qabaqcadan bildirim ki, oraya gedərkən danışıqları mən aparacağam. Yazıyla bağlı sualları sən verərsən, qalan söhbətlər isə mənlik olacaq. Eşitdinmi?!

- Yaxşı, sən deyən kimi olsun. - Raziyə razılaşdı.

Bir azdan qızlar iş adamı Vaqif Məmmədovun qəbulunda idilər. Katibə qız xanımların gəldiyini içəri xəbər verdi. Sonra qız əlindəki telefon dəstəyini yerinə qoyub, qonaqların içəri keçməsinə başı ilə işarə etdi.

Jurnalist xanımlar içəri girər-girməz Vaqif çoxdan gözləyirmiş kimi, ayağa qalxaraq, onlarla əl tutub görüşdü:

- Xoş gəlmisiniz, xanımlar. Aslan müəllim telefonda mənə bir xanımın gələcəyini demişdi. Amma siz...

- Mən artıqsam, gedə bilərəm, Vaqif müəllim, - İradə işvə-nazla dilləndi.

- Xeyr, xeyr! Siz nə danışırsınız. Sözümdən inciməyin. Mən müsafir sevən insanam. Qonaq nə qədər çox olarsa, məclis bir o qədər də şən keçər. Mən xanımların şənlik məclislərini çox sevirəm. Bunu hər yerdə söyləyirəm; qadınlarsız həyat nəyə gərəkdir ki. Qadınlar həyatın bəzəyidir, yaraşığıdır. Həyatı gözəlləşdirən də məhz sizlərsiniz. Biz kişilərin həyatını rövnəqləndirən də sizin kimi gözəl xanımlardır.

- O-o-o!!! Vaqif müəllim, iş adamından bu cür sözlər eşitdiyimizə görə, düzü təəccübləndik. Bunları biz kompliment kimi deyil, ədəbi sahədə təcrübəsi olan bir yazarın sözləri tək qəbul edirik. Görünür, ədəbiyyatı çox sevirsiniz, - deyə İradə Vaqifin qoltuğuna qarpız verdi.

- Hə, arada özümçün cızma-qara edirəm, şeir yazıram - Vaqif gülərək dedi. - Xanımlar, əsas məsələyə keçək. Mən jurnalist xanımları həmişə bağ evimdə qəbul edib, müsahibələr vermişəm. Yəni, jurnalistlərlə söhbətimiz həmişə süfrə başında olub. Məncə, siz də bu təklifimi rədd etməzsiniz. Nə deyirsiniz?!

- Siz deyən olsun, Vaqif müəllim. - İradə Raziyəyə ağzını açmağa imkan vermədi.

- Elə isə, getdik...

Vaqif müəllim mobil telefonu ilə kiminləsə danışdı və dərhal qapı açıldı. Cavan bir oğlan otağa daxil oldu. Vaqif müəllim ona:

- Vüqar, sən jurnalist xanımları bağ evimə apar, mən də arxanızca gəlirəm - dedi. - Qalan işləri də özün bilirsən. Qonaqlarım məndən narazı getməməlidir.

- Baş üstə, Vaqif müəllim! - Oğlan əmrə müntəzir əsgər kimi cavab verdi.

Onlar Vüqarın maşınında bağ evinin darvazasından içəri keçərkən Raziyə gözlərinə inana bilmədi. O, maşından düşər-düşməz heyrətini gizlədə bilməyib, İradənin böyrünü dümsükləyib:

- İra, camaat yaşayır da... Həyətə bir bax! Nə gözəl güllərdir, mən beləsini indiyəcən heç yerdə görməmişdim. İki ayrı-ayrı hovuz: birisi çimmək üçün, o birisi də balıqlar üçün - dedi.

Bu vaxt Vaqif müəllim də gəlib çıxdı. O, qonaqları əvvəlcə həyət-baca ilə tanış etdi. Sonra onlar villanın ikinci mərtəbəsinə qalxdılar. Böyük balkonda geniş stol açılmışdı.

- Xanımlar, heç nədən çəkinib eləməyin. Özünüzü evinizdə hiss edin. Məni bağışlayın, üstümü dəyişib, gəlirəm. - Vaqif qonaqlar sıxılmasın deyə, onlara bir az sərbəstlik verdi və özü üçüncü mərtəbəyə qalxdı.

Bir azdan Vaqif aşağı endi və stolun üstünə əvvəlcə müxtəlif cür kabablar gətirildi. Bunlar hələ başlanğıc idi. Daha sonra iki nəfər cavan oğlan həyətdəki mətbəxdən nələr daşıyıb gətirmədilər ki...

- Vaqif müəllim, bəlkə əvvəllcə yazını hazırlayaq, sonra...

- Raziyə Vaqifə gəlişlərinin əsas məqsədini xatırlatmaq istədi.

- Raziyə xanım, yazı qaçmır ki. Onu hər zaman yaza bilərsiniz. Bir də ki, ac qarına yazı hazırlamaq olmaz. Əvvəllcə mədəmizi bu gözəl yeməklərlə sevindirək, sonra da yazıya baxarıq, - deyə Vaqif xanımları ilk oncə yeməyə dəvət etdi.

Raziyə bu cür çeşidli yeməkləri həyatında ilk dəfə görürdü. Amma özünü o yerə qoymadı, özünü gözütox apardı. Vaqif xanımlara içki içməyə nə qədər cəhd göstərsə də, alınmadı. O, isə badəsini növbə ilə xanımların sağlığına qaldırıb boşaldırdı. Vaqif sonuncu qədəhini içdikdən sonra üzünü yemək gətirən oğlana tutub dedi:

- Daha siz buralarda görünməyin. Stolda hər şey var. Nəsə lazım olsa, çağıraram., - deyə Vaqif jurnalist xanımlarla baş-

başa qalmaq istədi. - Yaxşı, xanımlar, əgər siz spirtli içki içmirsinizsə, o zaman mən sizə öz əllərimlə təbii meyvə şirələri çəkib gətirərəm.

Vaqif ayağa qalxıb, mətbəxə getdi. İradə də onu izləmək üçün arxasınca getdi. O, mətbəxdə şirəçəkən maşınla iki stəkan portağal şirəsi çəkdi və hər stəkanın içinə bir tabletka hansısa dərman atdı. Təbii ki yuxu dərmanı olacaqdı bu. İradə bunu görcək cəld geri qayıdıb, gördüklərini astadan Raziyənin qulağına pıçıldadı. İradə buraya hazırlıqlı gəlmişdi. Onun da əl çantasında yuxu dərmanı vardı. Hər iki tərəf "əməliyyat"a qabaqcadan hazırlaşmışdılar. İra Vaqif gələnə kimi, yuxu dərmanın bir tabletkasını onun yarımçıq içilmiş araq qədəhinin içinə atdı. Sözsüz ki, Vaqif gələn kimi həmin qədəhi başına çəkəcəkdi. Az keçməmiş Vaqif əlində iki stəkan portağal şirəsilə geri qayıtdı.

- Gör bir sizinçün nə hazırlayıb gətirdim? Təbii portağal şirəsi! Elə indicə "Vaqif kompani" tərəfindən istehsal olunub. - Vaqif bərkdən gülərək əlindəki portağal şirəsi olan stəkanları xanımların qarşısına qoydu. - Buyurun, için. Bunun bir başqa dadı, ləzzəti var. İçəndən sonra hiss edəcəksiniz.

İradə ilə Raziyə bir-birlərinə baxdılar və:

- Vaqif müəllim, nə zəhmətdir çəkmisiniz. Onsuz da stolda hər cür meyvə şirələri var, daha buna nə ehtiyac? - İra təbəssümlə bildirdi.

- Siz bunun fərqini içəndən sonra görəcəksiniz, - deyə Vaqif də bic-bic gülümsəyərək, əl atıb yarımçıq qalmış qədəhini başına çəkdi.

Qızlar isə təbii portağal şirələrini içməyə hələ tələsmədilər. Vaqif bunu görüb:

- Xanımlar, şirəni niyə içmirsiniz? Əgər içməsəniz, inciyərəm sizdən. Mən sizə görə zəhmət çəkmişəm. Zəhmətimi hədər etməyin, siz allah! - Vaqif portağal şirəsinin içilməsini qızlara təkid etdi.

- Vaqif müəllim, siz narahat olmayın, içəcəyik bu şirələri, çünki dediyiniz kimi, bu şirələri hazırlamaq üçün böyük zəhmət çəkmisiniz. - İra Vaqifi arxayın etdi.

İra isə vaxtın uzanmasını istəyirdi ki, yuxu dərmanı Vaqifə təsirini göstərsin. Bir azdan Vaqifin başı sağa-sola əyilməyə başladı, onun danışığı get-gedə eşidilməz olurdu. Sonra gözləri qapanmağa başladı.

- Mənə nə-ə-lə-ər o-o-o-lu-u-r-r-r?! - deyə Vaqifin son sözləri eşidild və o, stol arxasındaca yuxuya getdi.

- Hə, vaxtdır, Raziyə. Qalx, mənə kömək elə, onu qonşu otağa aparaq - İra rəfiqəsini tələsdirdi.

- İra, birdən gələn olar?!

- Qorxma. Gələn olmaz. Vaqifin qorxusundan hələlik kimsə buraya girməyə cürət etməz. Di, tez ol! - İra dönüb çəpəyi Raziyəyə baxdı.

Onlar Vaqifi sürüyə-sürüyə gətirib, qonşu otaqdakı yataq çarpayısına uzatdılar.

- Raziyə, dediyim kimi edərsən. Bax, mənim üzüm kameraya düşməməlidir. Vaqifinki isə bütünlüklə düşməlidir, - deyə İra Vaqifi soyundurarkən rəfiqəsinə son göstərişlərini verdi.

Bir azdan İra da tələsik soyundu və yataqda lüt-üryan uzanmış Vaqifin yanına girdi. Raziyə isə utana-utana bu mənzərəni İranın ssenarisi əsasında mobil telefonun kamerasına köçürürdü. Görüntülərdən məlum olurdu ki, Vaqif İranı zorlayır. Çünki İra Vaqifin altında qəsdən əl-qol ataraq, ona müqavimət göstərdiyini aşkar göstərirdi. Çəkiliş sona yetdikdən sonra İra əvvəlcə özü geyindi, daha sonra Vaqifi geyindirib, yenidən onu gətirib yerində oturtdular və ayılmasını gözlədilər. Yaxşı ki, bu müddət ərzində kimsə içəri gəlmədi. İra soyuq mineral suyla salfetkanı isladıb onun üz-gözünə çəkdi. Bir azdan Vaqif ayılmağa başladı.

- M-ə-nə nə oldu, belə? Gözlərim qapanır, yuxum gəlir, - Vaqif mızıldandı

- Vaqif müəllim, içkinin təsirindəndir. Çox içdiniz, ondandır - İra gülərək Raziyəyə göz vurdu.

Xanımlar Vaqifin çəkdiyi şirələri çoxdan dağıtmışdılar. Boş stəkanlar onların qarşısında dururdu. Vaqif ayılar-ayılmaz ilk öncə qızların qarşısındakı boş stəkanlara baxdı.

- İçdiyim arağı mənə xüsusi gətirmişdilər. Ancaq necə oldu ki, məni belə tez tutdu. Xanımlar, heç yaxşı olmadı, bağışlayın məni. İlk dəfədir ki, içki məni bu cür tutur. Çox qəribədir. - Vaqif təəccüb dolu nəzərlərlə xanımlara baxdı.

- Vaqif müəllim, görürəm ki, bu gün sizin haqqınızda yazı yazmağımız alınmayacaq. Yaxşısı budur ki, bu yazını münasib bir vaxtda hazırlarıq. - Raziyə getmək istədiklərinə işarə vurdu.

- Bu heç yaxşı olmadı. - Vaqif məyus halda dilləndi.

- Vaqif müəllim, qonaqlığa görə çox sağ olun, hər şey superdi.

- Xanımlar Vaqifə minnətdarlığını bildirdilər.

Vaqif mobil telefonu ilə kiməsə zəng etdi. Vüqar gəldi. Vaqif oğlana tapşırıq verdi:

- Xanımları şəhərə, gəldikləri yerə aparарsan!

- Baş üstə, Vaqif müəllim! - Cavan oğlan farağat vəziyyətini aldı.

O, oturduğu yerdən zorla ayağa qalxdı, qonşu otağa keçdi və əlində bir məktubla geri qayıtdı.

- İradə xanım, bunu sumkanıza qoyun, aranızda bölüşərsiniz,

- deyə Vaqif məktubu İranın əl çantasına qoydu.

- Yaxşı, Vaqif müəllim, tezliklə görüşərik, - deyə xanımlar pilləkənlərlə aşağı düşdülər.

Onlar şəhərdə maşından düşəndə, İradə tez çantasındakı məktubu götürüb ağzını açdı. Məktubun içində min dollar pul vardı. İra pulun yarısını özünə, yarısını da Raziyəyə uzatdı. Raziyə pulu götürməkdən imtina etdi.

- Ay qız, sən nə danışırsan? Necə yəni götürmürəm?! Hələ bir bunu götür. Bu sabah Vaqif müəllimdən alacağımız pulun yanında semiçka pulu olacaq, - deyə İradə 500 dolları güclə

Raziyənin çantasına basdı. - İndi gəl görək, çəkdiyimiz film necə alınıb?!

Onlar bir ağacın altına çəkilib mobil telefondakı çəkilmiş videoya baxdılar.

- Super!!! Yandın, sən, Vaqif müəllim! Bundan qurtuluşun yoxdur. İndi əlimdən heç yana qaça bilməyəcəksən! Bu video sənin sonun olacaq, cənab Vaqif Məmmədov! Bu videoya görə ayaqlarıma düşüb, yalvaracaqsan. Xalqın qadınlarına başqa gözlə baxmağın bədəlini sənə ödətdirəcəyəm, binamus, şərəfsiz! - İra qəzəbindən barmaqlarını ovcunun içində yumdu. Bu zaman uzun dırnaqlar onun ətinə keçdi, ovcu qanla doldu.

- İra, bu ki şantajdır - Raziyə dilləndi.

- Bəs yüzlərlə qızları pul gücünə, qorxuzaraq altına salmağa nə ad verirsən? - İra əsəbiləşdi. - Raziyə, bu işə sən qarışma. Şərtləşdiyimiz kimi, bu iş mənlikdir.

- Yaxşı, İra, sən deyən olsun. Amma bu işdə çox ehtiyatlı olmaq lazımdır. Şantajçı kimi səni ilişdirə bilərlər, elə hər ikimizi. Özün də deyirsən ki, bunlar böyük bir mafiyadır. Hər yerə əlləri çatır. - Raziyə rəfiqəsini bir daha xəbərdar etdi.

- Sən heç narahat olma. Bizim də özümüzə görə əlbəttə ki, bildiklərimiz vardır. - İra özünəarxayınlıqla bildirdi.

Həmin axşam İra mobildəki videonu ayrı-ayrı bir neçə diskə köçürdü. Ertəsi gün səhər işə gələn kimi, Baş redaktor hər ikisini otağına çağırdı və əsəbi halda üzünü Raziyəyə tutub soruşdu:

- Raziyə xanım, de görüm, sizə tapşırdığım yazını hazırladınızmı?

- Xeyr, Aslan müəllim.

- Nə üçün?

- Vaqif müəllim yazını başqa bir münasib vaxta təxirə saldı. Dedi ki, özü sizinlə bu barədə danışacaq. - Raziyə sakitcə bildirdi.

- İradə xanım, bəs sizin orada nə işiniz vardı? Mən ki sizi Vaqif müəllimin yanına göndərməmişdim. Məndən icazəsiz niyə oraya getmisiniz?
- Aslan müəllim, düşündüm ki, Raziyə xanım bu işlərdə hələ təzədir. Ona dəstək olmaq üçün mən də getdim. Məncə, burada bir qəbahət yoxdur, həm də özünüz mənə tapşırmışdınız ki, Raziyə xanım püxtələşənə qədər ona köməklik göstərim. - İra qımışaraq cavab verdi.
- Yaxşı, yaxşı bəsdirin, görək! Daha özbaşına olmusunuz! Deyin görüm, yazı da yazmamısınız, bəs orada nə iş gördünüz? - Aslan bu dəfə sınayıcı nəzərlərlə qızları süzdü.
- Vaqif müəllim bizi zorla yeməyə dəvət etdi. Biz də onun xahişini yerə salmadıq, necə də olsa, Vaqif müəllim sizin dostunuz sayılır. - İra Raziyəyə danışmağa imkan verməyərək, Baş redaktorun bu eyhamlı baxışlarına ibarəli tərzdə cavab verdi.
- Bəs Vaqif müəllim bizə nəsə bir şey göndərmədi heç? - Baş redaktor narahat halda yenidən soruşdu.

Bu dəfə Raziyə nəsə demək istəyirdi ki, İra yenə də ona macal vermədi:
- Aslan müəllim, Vaqif müəllim dedi ki, o, sizinlə əlaqə saxlayacaq.
- Yaxşı, çıxın bayıra, işinizlə məşğul olun! - Aslan əsəbi halda dedi.

Onlar baş redaktorun otağından çıxandan sonra İra Raziyəyə bildirdi ki, Vaqifin video məsələsini bir neçə günlüyə təxirə salacaq. “Sənə də növbə çatacaq, Aslan müəllim. Səndən də hesab sormanın zamanı gələcək,” deyə İra düşündü. İra həmin axşamı xatırladıqca, Aslana qarşı nifrəti, kini daha da artırdı. Aslan ilk işə başladığı günlərdə İradan da istifadə etmişdi. Onu bir axşam bilərəkdən dostlarından birinin qucağına atmışdı. Dostunun yanına yazı yazmaq adı ilə getmiş, ancaq həmin axşam başına nələrin gəldiyini bir də ayılandan sonra anlamışdı. O zaman İra düşünmüşdü ki, artıq

geriyə yol yoxdur. Həmin vaxtdan o da oyuna girmiş və onlarla öz oyun qaydaları ilə oynamağa başlamışdı. Ancaq bu dəfə o, Raziyəni bu iyrənc oyunların iştirakçısına çevirmək istəmirdi. Çünki İra rəfiqəsinin Allah adamı olduğunu bilirdi. Hətta, bir dəfə Raziyə ona Həcc ziyarətinə getmək arzusunda olduğunu da söyləmişdi. O, bundan sonra çalışırdı ki, rəfiqəsi bu əxlaqsızların girdabına düşməmiş, nəyin bahasına olursa-olsun onu bu radaksiyadan uzaqlaşdırsın. İra bunu hələlik Raziyəyə bildirmirdi...

Bir həftədən sonra İra diski də götürüb, Vaqif Məmmədovun yanına getməyi qərara aldı. İlk öncə, o, telefon açdı və onunla çox önəmli bir məsələ barədə görüşmək istədiyini bildirdi. Vaqif İra ilə görüşə razı oldu. Onlar axşam yenidən bağ evində görüşdülər. İra diski çantasından çıxararaq, ona verdi və baxmasını rica etdi. Vaqif təəccüblə İraya baxdı:

- Bu nədir, İra? - deyə sordu.

- Əvvəlcə baxın, Vaqif müəllim, özünüz hər şeyi görəcəksiniz. - İra gülümsədi. - Bu disk sizinçün çox vacibdir. Bu həyati bir məsələdir.

Vaqif həyəcan içərisində əlindəki diski noutbukuna daxil etdi. O özünü gördükdə, acıqla İradəyə dedi:

- Deməli, məni şantaj etmək üçün buraya gəlmisən?! Bu nömrələr mənə keçməz, qızım. Sən ünvanı səhv salmısan. - Vaqif gülərək özünü o yerə qoymaq istəmədi.

- Məncə, heç də ünvanı səhv salmamışam. Diskdəki adam sizsiniz. Məgər özünüzü tanımadınızmı, Vaqif müəllim?

- Bu disk sənin əlində haradandır?! - Vaqif ucadan bağırdı. - Bunu kim çəkib? Məqsədin nədir?

- Vaqif müəllim, bir sakit olun. Mən sizə kömək etmək üçün buradayam. Bu disk başqalarının da əlinə keçə bilərdi. Amma dostluğumuzun xatirinə, bu işdə mən sizə yardımçı olmaq istədim.

- İra, məni hövsələdən çıxarma! Bunun kimin işi olduğunu həmən mənə söyləyəcəksən! Yoxsa, səni də bitirərəm! - Vaqif İradəni hədələdi.

Həmin gün söhbət ancaq mübahisə ilə bitdi. Vaqif əvvəlcə İradəni təhdid etdi, amma qız onun qarşısından qaçmadı, onu tutarlı faktlarıyla özünə tabe etməyə məcbur etdi. Artıq biznesmen İranın arxasında kiminsə dayandığını anladı və bundan sonra onunla danışığında səsinin tonunu alçatdı. İra söhbəti həmin gün qəsdən yarımçıq saxladı və gedərkən Vaqifə sabaha kimi vaxtının olduğunu xatırlatdı.

Ertəsi gün səhər tezdən Aslan hövlnak İradəni yanına çağırdı və ondan Vaqif Məmmədovla aralarında nə baş verdiyini öyrənmək istədi. İra heç nə olmamış kimi, özünü çox təmkinli apararaq, bu işin yalnız ona aid olduğunu bildirdi. Baş redaktor da əvvəlcə İradəni hədələmək istədi, ancaq o, qızın əlində Aslan barədə də tutarlı dəlil-sübutun olduğunu biləndən sonra yumşalıb, quzuya döndü və xanım jurnalistlə daha mehriban, daha ehtiyatla davranmağı qərara aldı. İradə baş redaktorun nəzərinə çatdırdı ki, əgər o, Vaqifin işinə hər hansı vasitə ilə müdaxilə etməyə cəhd göstərməyə çalışarsa, o zaman İra onunla Vaqif arasındakı danışığı da lazım olan yerlərə çatdıracaq. Bunu eşitcək, Aslanın bənizi qaçdı, nitqi tutuldu, gözlərindən yalvarış dolu baxışlar sezildi, yazıq görkəm aldı...

Axşamtərəfi Vaqif zəng vurub, İra ilə görüşmək istədiyini bildirdi. Bu görüşdə o, videodiskə görə İradə ilə bazarlıq etməyə məcbur oldu və xanım jurnalistdən diskin qiymətini soruşdu. İra ona əlli min dollar oxudu. Vaqif isə məbləğin çox olduğunu bildirdi. Sonra İra bəyan etdi ki, əgər bu disk lazım olan yerə çatarsa, o zaman o, heç yüz min dollarla da canını qurtara bilməz. Ən sonda Vaqif videodiskə 20 min dollar verməyə razı oldu və tərəflər anlaşdı.

Ertəsi gün İra surəti çıxarılmış üç videodiski də gətirib, Vaqifə təqdim etdi və müqabilində ondan iyirmi min dollar aldı.

İradə pulu alan kimi, Raziyəyə zəng vuraraq onu evlərinə dəvət etdi. Raziyə İragilə gəldi. İra gülərək “əməliyyat”ın uğurla nəticələndiyini sevinclə rəfiqəsinə söylədi.

- Raziyə, al bu da sənin payın, - deyə İra Raziyənin qarşısına on min dollar qoydu.
- İra, bilirsən ki, mən bu pulları götürə bilmərəm. Bunlar haram pul hesab olunur. - Raziyə pulu götürməkdən imtina etdi.
- Sən nə danışırsan, Raziyə? Nə halal, nə haram? Bu pulu qazanmaqda zəhmətimiz olub; buna görə planlar qurmuşuq, gecələr yatmayıb fikirləşmişik, qorxu, həyəcan keçirmişik, özümüzü hətta, alçatmışıq da. Bəs bütün bunlar səncə iş, zəhmət hesab olunmur?!
- İra, mənə haram pul lazım deyil. Mən övladıma heç zaman haram tikə yedirtmərəm. Haram şeylərin fəsadları çox ağır olur. Oxuduqlarımdan bilirəm ki, haram mal qazanan şəxsin həcci və ümrəsi Allah dərgahında qəbul deyil. Məhəmməd Peyğəmbər (s) buyurur ki, “haram yeyərək ibadət etmək, qumun və ya başqa sözlə desək, suyun üzərində bina tikməyə bənzəyir.” Allahın Peyğəmbəri (s) daha sonra buyurur: “Bir tikə haramdan imtina etmək, Allaha iki min rikət müstəhəbb namaz qılmaqdan daha xoş gəlir.” Belə bir rəvayət də olunur ki, Musa peyğəmbər ağlayaraq, Allaha dua edib yalvaran bir şəxsi gördü. Allah tərəfindən Musaya xəbər gəldi ki, o nə qədər dua etsə də, onun duası qəbul olmayacaq. Çünki onun qarnında, belində və evində haram vardır.” Daha sonra Allahın Rəsulu (s) buyurur: “Duasının qəbul olmasını istəyən şəxs yeməyini və qazancını haramdan təmizləməlidir.”

İra, yəni bunları sənə deməkdə məqsədim haram yeməyin nə qədər böyük günah olduğunu bildirməkdir. Mən bu pulu hec vaxt götürə bilmərəm, - deyə Raziyə qəti etirazını bildirdi.

- A-a-a-z, nə deyirsən? İndiki zamanda bir insan məxluqi mənə göstər ki, halal yolla pul qazanmış olsun? Vallah, billah sənin başın xarab olub. Sənin zənn etdiyin o Allah adamları da, Hacılar da halal pul qazana bilmirlər. İndi halalla haram bir-birinə elə qarışıb ki, kimsə onu ayıra bilməz. Sən mənə inan, bacım.

- Xeyr, İra. Son dəfə deyirəm, mən bu pulu götürməyəcəyəm, daha üz vurma! - Raziyə rəfiqəsilə aralarındakı mübahisəyə nöqtə qoydu.

- Yaxşı, onda özün bil. Allah sənin qəlbinə görə versin! Tanrı yolunu daim açıq eləsin! Allah səni heç zaman kimsəyə möhtac etməsin! Elə isə sənin barəndə başqa bir şey düşünmüşəm. Raziyə, əvvəlcə günü bu gün hər ikimiz ərizə yazıb işdən çıxaq. Sonra səni bir Allah adamı ilə tanış edəcəyəm. O, insan əsl sən düşündüyün adamlardandır. O da sənin kimi, namaz qılıb, oruc tutur, həm də zəngin adamdır; istər mənəvi cəhətdən, istərsə də maddi cəhətdən. Onunla tanış olandan sonra mənə haqq qazandıracaqsan və hələ bir mənə çox sağ ol da deyəcəksən ki, səni belə bir adamla tanış etdim. O, səni yaxından tanıyandan sonra, istənilən köməkliyi sənə edəcək. - İra gülümsəyərək Raziyəni qucaqladı.

Ertəsi gün onların hər ikisi işdən çıxmaları barədə ərizələrini yazıb, baş redaktora təqdim etdilər. Baş redaktor onlardan xahiş etdi ki, işdən çıxmasınlar. Amma...

İradənin tanış etdiyi adamın ayağı Raziyəyə düşərli oldu. Bu tanışlıq Raziyənin gələcək həyatını büs-bütün dəyişdi. Raziyə həmin xeyirxah insanın köməyi ilə orta məktəbdə dil-ədəbiyyat müəllimi kimi işə girdi. Bundan sonra Raziyə maddi cəhətdən çəkinlik çəkmədi. Onun köməyi vasitəsilə Raziyənin Həcc ziyarəti də gerçəkləşdi. İndi ona, “Hacı Raziyə xanım” deyə müraciət edirlər. O bu müraciətdən çox məmnun qalır. Uzun illərdən bəri qəlbindəki gizli saxladığı arzusuna qovuşmuşdu Hacı Raziyə xanım.

İra isə Vaqifdən aldığı pulla özünə kiçik biznes qurdu. Amma altı ay keçməmiş bu biznes iflasa uğradı. İradə bir qəpiyə möhtac vəziyyətinə düşdü. O, Hacı Raziyə xanımla tez-tez əlaqə saxlayırdı. İra düşündü ki, vaxtında Hacı Raziyə xanımın məsləhətini dinləsəydi, indi bu vəziyyətə düşməzdi. Hacı Raziyə xanım dəfələrlə rəfiqəsini çirkli işlərdən çəkindirmək istəmişdi, ona namaz qılıb, oruc tutmağı tövsiyə etmişdi. Amma hər dəfə İradə bir bəhanə ilə bu söhbətlərdən yayınmağa çalışmışdı. İndi o, yenidən rəfiqəsinə möhtac olmuşdu. İra başqa bir rəfiqəsilə alver etmək üçün Türkiyəyə getməli idi. Təcili ona min dollar pul lazım idi. Buna görə o, Hacı Raziyə xanımın yanına gələrək, ondan bir aylığına min dollar borc pul istəmişdi. Hacı Raziyə xanım da heç nə düşünmədən 1000 dolları rəfiqəsinə verərək; "Allah xeyrini versin! Yolun açıq olsun! Qazancın birə min artsın!" demişdi...

Bu düşüncələrdəykən kimsə arxadan Hacı Raziyə xanımı qucaqladı.

- Hacı Raziyə xanım, xoş gördük səni! A-a-a-z, vallah gözlə demirəm, günü-gündən həm cavanlaşırsan, həm də gözəlləşirsən. Heç dəyişməmisən ki. İlk gündə necə görmüşdümsə, eləcə də qalmısan. Tfu, tfu! Maşallah! Nəzər dəyməsin! Bacım, düzü, sənin qarşında çox xəcalətliyəm. Verdiyim sözü tuta bilmədim. Bu həm də məndən asılı olmayan səbəblər üzündən oldu. Vaxtımın çox hissəsini Türkiyədə oluram. Əsas işimi orada qurmuşam. Burada alınmadı da, özün bildin. Amma şükür olsun Allaha, işlərim indi yağ kimi gedir. Bütün bunların səbəbkarı sənsən, Hacı. Sənin mənə verdiyin o min dollar və xeyir-duaların olmasaydı, bu gün mən bu mərtəbədə olmazdım. Sənə həmişə dualar edirdim, bircə balan Sevinci də heç vaxt unutmamışam. Buyur, bu da mənim sənə olan borcum. Bu gün mən sənin qulluğundayam. Haraya desən, gedə bilərik. Şükür Allaha ki, maşınım da var. - İra yenidən Hacı Raziyə xanımı qucaqladı.

- İra, səni bu halda görəndə, çox sevindim. Sənin də mənə yaxşılığın az olmayıb. - Hacı Raziyə rəfiqəsini yenidən görməyinə şad olduğunu bildirdi.
- Hardan belə? Xeyir ola? Bildiyim qədər sən bu tərəflərdə yaşamırdın. Yoxsa, kiminləsə görüşə...
- İra, sən nə danışırsan?! Mən Gəncədən gəlirəm, yenə də İmamzadəni ziyarət etməyə getmişdim.
- Bağışla, bacım. Dilim dinc durmadı. Allah ziyarətini qəbul eləsin! Allah nə arzu-muradın varsa, versin! Sevinc balanın xeyir işini görəsən! Bax, budur sənə indidən söyləyirəm. Sevinc balanın xeyir işində məni yaddan çıxarma ha! Dünyanın o başında da olsam, özümü yetirəcəyəm! Hacı xanım, bildiyimə və eşitdiyimə görə dünyanın bütün yerlərində olan müqəddəs ziyarətgahların hamısına gedib ziyarət etmisən. Halal olsun sənə, vallah!
- Müqəddəs yerləri və müqəddəsləri ziyarət etmək hər bir müsəlmanın haqqıdır, İra. Allah sənə də bu yerləri ziyarət etməyi nəsib etsin, inşallah! Amin!
- Amin! Yaxşı, de görüm, hansı tərəfə gedəcəksən? Mən səni maşınla aparacağam. - İra rəfiqəsinin ağzını açmağa imkan verməyərək, qolundan tutub, maşına tərəf çəkdi.
- İra, sən zəhmət çəkmə. Mən metro ilə gedəcəyəm, Razində oluram.
- Bax, bacım, xətrimə dəyirsən. Səni düz evinə kimi aparacağam, - deyə İra Hacı Raziyə xanımdan əl çəkmədi.

İradə Hacı Raziyəni düz evinə gətirdi. Hacı xanım nə qədər təkid etsə də, İra evə girmədi. O, vizit kartını çıxarıb Hacı xanıma verdi və yenidən görüşmək arzusu ilə ondan ayrıldı.

Hacı Raziyə xanım məktubu açıb pulu sayanda, gördü ki, iki min dollardır. O, İranın vizit kartındakı nömrəni tez yığıb, onunla sabah təcili görüşmək istədiyini bildirdi.

Ertəsi gün köhnə rəfiqələr yenidən görüşdülər. Hacı Raziyə xanım pulun min dollarını İradəyə geri qaytardı. İradə qəti etiraz etdi:

- Bacı, götürmərəm bunu. Qəlbinə başqa şey gəlməsin. Bu pullar halal pullardır. Öz zəhmətimin qazancıdır. Ona görə də, bu min dolları da sənə halal edirəm.

Amma Hacı Raziyə xanım inadından dönmədi və güc-bəla ilə artıq verilmiş min dolları İranın əl çantasına qoydu...

Allahın köməkliyi ilə Hacı Raziyə xanımın işləri qaydasında gedirdi. O, qızı Sevinci artıq böyüdüb ərsəyə çatdırmışdı. Sevinc həm öz, həm də anasının arzusunu həyata keçirərək, ali məktəbə qəbul olmuşdu. İndi onun yeganə ciyərparəsi xaricdə təhsil alırdı. Sevinc çox bacarıqlı, çalışqan qız idi. Yoldaşları vaxtlarını əyləncəyə, şənliklərə, gəzintilərə sərf etdiyi zaman Sevinc həmin vaxtlarını kitablara sərf edir, yorulmadan, gecə-gündüz çalışırdı. O, qarşısına qoyduğu məqsədə çatmaq üçün bütün potensial imkanından yararlanmağa çalışırdı. Sevinc eyni zamanda mələk simalı anasına verdiyi sözü tutmaq istəyirdi. Bu vaxta qədər Hacı Raziyə xanıma ən mötəbər yerlərdən belə evlənmək təklifləri olmuşdu. Hətta, onun ata-anası da qızına yenidən ailə həyatı qurmağı dəfələrlə ona məsləhət görmüşdü. Amma Hacı Raziyə xanım bütün bunları rədd edərək, yeganə qızını böyüdüb, ali təhsilli, xoşbəxt görmək arzusu ilə yaşayırdı. O, həyatda Sevincə həm ata, həm ana, həm həyat müəlliməsi, həm ən yaxın rəfiqə, həm də ən yaxın məsləhətçi olmuşdu. Hacı Raziyə xanım gənc, təravətli həyatını qızının xoş gələcəyinə qurban vermişdi. Və buna görə o, heç də peşman deyildi. Həyatda bu cür fədakar analar çox nadir hallarda olur. Qəlbi daim onu Yaradanın eşqi və məhəbbətilə çırpınan, Onun kəramət və mərhəmətinə sığınan, Onun bəndəsinə göstərdiyi doğru yoldan sapmamağa, Allahın dininə, Peyğəmbərinə (s), imamlarına və Onun yaratdıqları bütün məxluqlarına qarşı təvazökar olan, cahillərə qarşı alicənablıq göstərən, onlarla xoş rəftar və mehriban münasibətdə olan, qəlbi geniş, xeyirxah insanlara Allah-təala həmişə kömək edər və onları hər cür

pisliklərdən, xəta və bəlalardan hifz edər. Hacı Raziyə xanım da belə mömin bəndələrdəndir.

**24.04.2013**

# Qızıl külqabı

(hekayə)

Ali məktəbin birinci kursunda oxuyurdum. Tarix fənninin ilk seminarında yaxşı cavab verdiyim üçün müəllim, tarix elmləri doktoru, professor Tariyel Məmmədov məni sorğu-suala tutdu:

- Oğlum, de ğörüm hardansan?
- Müəllim, Yardımlı rayonundanam.
- Hə, belə de... Yardımlılar mərd və cəsur olurlar. Oğlum, orta məktəbdə tarix müəllimin kim olub?
- Vidadi müəllim.
- Oğlum, siz Yardımlının hansı kəndindənsiniz? Familiyan mənə tanış gəlir.
- Alar kəndindən.
- Alardan?!
- Bəli.
- Alar kəndindən Fərrux Əsgərovu tanıyırsanmı?
- Tariyel müəllim, mən elə Fərruxun oğluyam.
- Necə?! De görüm atan necədir?
- Müəllim, atam altı ildir rəhmətə gedib.
- Allah rəhmət eləsin! Fərruxun ölümündən xəbərim olmayıb. Təsadüfə bir bax, ha! Oğul, sənin atan mənim cəbhə yoldaşım idi. Biz onunla dörd il bir rotada vuruşmuşduq. Fərrux çox cəsur əsgər idi. Oğul, bundan sonra nə çətinliyin olsa, çəkinmədən mənə müraciət edə bilərsən.
- Çox sağ ol, müəllim.
- Adil, dərsin qurtarandan sonra yanıma, kafedraya gələrsən.
- Yaxşı, gələrəm Tariyel müəllim.

Dərsdən sonra tarix kafedrasına getdim. Tariyel müəllim məni gözləyirdi. O, məni görcək ayağa qalxdı, qara portfelini götürüb başı ilə mənə arxasınca gəlməyimə işarə etdi.

İnstitutdan çıxanda Tariyel müəllim dedi:

- Adil, bizə gedirik. Burada, yaxında oluram. Baş-başa səninlə bir az söhbət edərik. Atan rəhmətlik yaxşı kişi idi. Döyüşlərin birində qılçamdan ağır yaralanmışdım, - deyə Tariyel müəllim söhbətə körpü saldı. - Fərrux arxasında məni düz bir kilometrə qədər yolu, "sançasta" kimi gətirdi. Ona nə qədər təkid etdim ki, məni buraxıb getsin. Amma o məni dinləmədi. Onsuz da arxadan arabayla tibb bacıları gəlib bizi götürəcəkdilər. Çox inadkar idi Fərrux.

Mən isə səssizcə Tariyel müəllimin yanıyca addımlayırdım.

- Hə, çatdıq, - deyə Professor mənə tərəf döndü. – Götür, bu pulu, get, oradan iki qarpız al, gətir.

Müəllimin mənə uzatdlğl pulu götürmədim. İki qarpız almaq üçün isə cibimdə o qədər də pul yox idi. Ona görə də bir qarpız alıb, Tariyel müəllimgilə qalxdım. Qarpızı mətbəxdəki stolun üstünə qoydum. Professor mətbəxə gəldi, yumruğu ilə qarpızı paraladı və əli ilə qarpızın içini çıxarıb ağzına qoydu. Düzü, müəllimin bu hərəkətinə təəccüb etdim. Düşündüm ki, professor adamdı, bunun qarpız yeməyinə bir bax. Tariyel müəllim ürəyimdən keçənləri anlayırmış kimi, gülərək dedi:

- Bilirəm, düşünürsən ki, Professor adamın qarpız yediyinə bir baxın! Mən bunun tarixçəsini sənə danışacağam.- Tariyel müəllim əlini salfetka ilə sildikdən sonra çiynimə qoydu.

Stolun üstündə qızılı bir külqabı da vardı. Onu əlimə götürdüm, o tərəf-bu tərəfinə çevirib baxdım. Ağır idi. Qızıl suyuna çəkilmişə oxşamırdı. Bu zaman müəllim dilləndi:

- Oğlum, xalis qızıldır. Bu külqabının da maraqlı tarixçəsi var.
- Müəllim, tək yaşayırsınız?
- Demək olar. Həyat yoldaşım beş il bundan öncə rəhmətə gedib. İki oğlum var. Hər ikisini də evləndirmişəm. Özlərinin ayrıca ev-eşikləri var. Həftədə bir dəfə mənə baş çəkməyə

gəlirlər. Paltarlarımı gəlinlərim yuyur, evi silib-süpürürlər, səliqə-sahmana salırlar. Bir neçə günlük yemək də bişirirlər mənimçün. - Professor danışa-danışa çaydanı su ilə doldurub qazın üstünə qoydu. - Oğul, atan qorxmaz, igid adam idi. Yaxşı yadımdadır, bir dəfə polk komandiri İvanov əsgərləri cərgəyə düzüb dedi: “Bir neçə gündür ki, düşmən tərəfdə sakitlikdir. Bu heç də yaxşı əlamət deyil. Yəqin ki, almanlar bizə qarşı nəsə hazırlayırlar. Amma biz bunların bu planının nədən ibarət olduğunu hökmən öyrənməliyik. Dünənki kəşfiyyat qrupu da əliboş geri qayıdıb. Bizə bir “dil” lazımdır. Sizdən könüllü kim getmək istəyir?” Bu zaman Fərrux cərgədən üç addım qabağa çıxdı və dedi: “Yoldaş komandir, mən gedərəm.” Komandir dedi ki,”elə isə Fərrux tək getməsin, o özü ilə bir neçə əsgər də götürsün.” Fərrux dedi ki, ona ancaq yol-yoldaşı olmaq üçün tək bir əsgər lazımdır. Həmin gecə atan həqiqətən də bir alman əsiri tutub gətirdi. Onu danışdırdılar və lazım olan mühüm məlumatları əsirdən aldılar. Almanlar doğrudan da geniş miqyaslı hücum əməliyyatı planlaşdırırmışlar. Amma biz almanları qabaqladıq və onlara qarşı gözlənilməz əks-hücuma keçdik. Döyüşdən sonra komandir bütün əsgərlərin qarşısında Fərruxa təşəkkür elan etdi. Atanla bağlı çoxlu maraqlı cəbhə xatirələrim var. Nəsə, indi keçək qarpız məsələsinə.

Repressiya dövründə ermənilərin əli ilə çoxlu dəyərli, vətənpərvər ziyalımızı itirdik. O zaman ermənilər Bakıda at oynadırdılar. Onlar Azərbaycanın “qaymaqları”na müxtəlif bəhanə ilə şər-böhtan, iftira ataraq onlara “Vətən xaini”, “xalq düşməni” damğası vurdururdular. Həmin dövr çox pis idi. O zamanlar haqsız yerə çoxlu soydaşımızı itirdik. Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşovun, Gerasimovun, Qriqoryanın, Markaryanın, Qalstyanın,

Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əlilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi – bir sözlə bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xarici dili bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir "xalq düşməni"nə "məhkəmə" zamanı ancaq 15-20 dəqiqə vaxt ayrılırdı. Bir gündə elə olurdu ki, 90-100 nəfər həmvətənlimiz "məhkəmə"nin hökmü ilə güllələnirdi. Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç, öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı.

- Müəllim, bəs niyə görə onlar ucdantutma bütün ziyalılarımızı, düşünən beyinləri aradan götürmək istəyirdilər?

- Oğlum, bunun bir neçə səbəbi var idi. Mən indi onları sənə anladacağam. 1937-ci il avqustun 5-də SSRİ NKVD-si bir qərarı çıxarır. Həmin qərara 3 nəfər - SSRİ daxili işlər naziri Yejov, Mikoyan və Stalin qol çəkib. Qərarda yazılıb ki, müsavatçılar, ittihadçılar, sosial-demokratlar, hümmətçilər, eyni zamanda menşeviklər və daşnaklar güllələnməlidir. Çünki 1936-cı il 5 dekabrda SSRİ Konstitusiyası təsdiqlənir, sosializm qələbə çalır. Molotov da 1937-ci il represiyalarına haqq qazandırıb. Deyib ki, 1937-ci il olmasaydı, SSRİ İkinci Dünya Müharibəsində qalib gələ bilməzdi, fəhlə-kəndli hökuməti yaradılırdı, ziyalılar buna mane ola bilərdilər. Ona görə də 1937-ci ildə qərar çıxır ki, onlar bir sinif kimi güllələnsin. İki kateqoriyaya ayırırlar. Radikallar güllələnir, digərləri sürgün olunur. Ailələri də Qazaxıstana sürgün olunur. Qərarda bu prosesin həyata keçirilməsi üçün 2 il vaxt ayrılır. Mircəfər Bağırov bu işə qarışa bilməyib.

Bəli, həmin vaxt növbəti qurbanlardan biri də mən idim. O zaman mən "ÇK"da şöbə müdiri vəzifəsində işləyirdim. Həmin vaxt Mircəfər Bağırov Bakıda yox idi, deyəsən Tiflisə getmişdi. Ermənilər hər dəfə Bağırovun Bakıda olmamasından istifadə

edib günahsız adamlar haqqında qondarma ittihamnamələr hazırlatdıraraq onları güllələtdirirdilər. Bizi Djerzinski klubuna gətirmişdilər. Növbəti on günahsız qurban! Məndən qabaqkılara ölüm hökmü oxuyandan sonra, onları dərhal klubun zirzəmisinə apararaq hökmü orada icra edirdilər. Sən ölmünə dəqiqələr qalmış insanın necə hallar keçirdiyini heç təsəvvür edirsənmi? O, həyəcanı, qorxunu, təlaşı, daxili çırpıntını yalnız ölmünü gözləyən adamın özü hiss edə bilər. Başqa kimsə insanın daxilindəki ölümün yaratdığı bu dəhşəti nə görə, nə də ki hiss edə bilər.

Müəllimin qaz üstünə qoyduğu çaydan qaynadı. Professor söhbətinə ara verib çay dəmlədi. Sonra o, iki armudu stəkanda çay süzüb, birini mənim qarşıma, digərini isə öz qabağına qoydu. Tariyel müəllim söhbətinə yenidən davam etdi:

- Növbə mənə çatanda, qapı açıldı. M.Bağırovun katibəsi təntimiş halda içəri girdi və dedi: “Yoldaş Bağırov telefonda tapşırdı ki, o gələnə kimi bu işlər dayandırılsın!” Bu sözdən sonra mən ölümdən qurtuldum. Məni ordan dərhal evə buraxdılar. Küçəyə çıxdım. Əvvəlcə dərindən ağızdolusu havanı ciyərlərimə çəkdim. Yüngülləşdim. Sanki dünyaya yenidən gəlmişdim. Gördüm ki, küçədə qarpız satırlar. Susuzluqdan, ölüm qorxusundan dilim-ağzım qurumuşdu. İçim od tutub yanırdı. Bu atəşi söndürmək üçün mənə sərin bir şey lazım idi. Qarpızsatana yaxınlaşdım. Bir qarpız aldım və onu səkiyə qoyub yumruğumla parçaladım. Əlimlə qarpızın içini çıxardıb yedim. Bu qarpız içimdəki atəşi söndürdü. Bax, o vaxtdan qarpızı yumruqla parçalamaq məndə adət halını aldı. O ki qaldı bu qızıl külqabıya, onun da dediyim kimi maraqlı tarixçəsi var. Yaşadığım bu evin əvvəlki sahibi erməni olub. O, inqilab dövründə Bakını tərk edərək İrana keçib və daha geri qayıda bilməyib. Mən MK-da işlədiyim zaman həmin erməni hökumətin adına bir məktub göndərir. Həmin məktubda o, göstərir ki, vaxtilə yaşadığı evinin divarında 7 kiloqram qızıl gizlədib. O, həmin qızılların oradan götürüb yetimxanalara və

uşaq evlərinə verilməsini xahiş edib. Hökumət nümayəndələri də mənə xəbər vermədən gizlicə yaşadığım evə gəlirlər və həmin qızılı divardan götürürlər. Bunun müqabilində də həmin “xəzinə”dən mənə yalnız bu qızıl külqabını verdilər. Hə, çayını soyutma. Adil, oğlum, hansı fənnlərdən nə çətinliyin olarsa, mənə hökmən deyərsən.

- Tariyel müəllim, çox sağ olun. İnşallah bir çətinliyim olmaz. Amma atam nədənsə siz danışdığınız cəbhə xatirələrindən bizə heç danışmamışdı. Daha doğrusu, o, bu barədə danışmağı nədənsə sevməzdi. Bircə onu həmişə deyirdi ki, ”mənim Bakıda yaxşı dostlarım var.” Hətta, sizdən də bir söz söyləməmişdi bizə.

- Adil, atan eyni zamanda çox təvazökar bir insandı. Tərifi xoşlamazdı. Sözübütöv, qorxmaz adamdı.Yaxşı deyiblər: “Oğullar ataların davamçılarıdır.” Hiss edirəm ki, bəzi xarakterik xüsusiyyətlərinə görə atana oxşayırsan. Gözütoxluqda və məğrurluqda atana bənzəyirsən. Qaldı ki, digər xüsusiyyətlərinə, onu isə zaman göstərəcək...

**04.01.2013**

# İftira

*(hekayə)*

Mən hər gün işə metro ilə gedib-gəlirəm. Metroda yaşlı bir ağsaqqalla, qalstuklu, alicənab bir nəfərlə yol yoldaşı olurdum. Hər ikimiz eyni stansiyadan, eyni vaqona minirdik. Düşəndə isə o məndən bir stansiya əvvəl, “Sahil”də düşürdü. Bir gün söhbət əsnasında məlum oldu ki, bu alicənab şəxs APU-nun müəllimidir, özü də professordur. Çox səmimi insandı. Hər dəfə metrodakı gəncləri mənə göstərib deyirdi: “Görürsən də, indiki gənclərdə zərrəcə olsa, abır-həya, böyüyə-kiçiyə hörmət qalmayıb. Bax, görürsən, qarşı oturacaqda üç cavan qız uşağı oturub, qulaqlarına telefonun qulaqcığını keçirib öz aləmindədirlər. Guya ki, onlar qarşılarında ayaq üstə duran yaşlı qadını heç görmürlər. Bununla biz hara gedirik, heç cür ağlıma sığışdıra bilmirəm. Bizim zamanda belə şey yoxdu, böyük-kiçiyə hörmət vardı. Bu qədər də dönüklük olmaz ki?!”

Sonra Professorun sözünə mən də qüvvət verdim:

- Haqlısan, professor. İndiki gənclər özləri üçün başqa bir dünya yaşayırlar. Onların böyüklərə qarşı bu cür davranışı məni də çox narahat edir. Bir dəfə dözə bilməyib gənc bir oğlana dedim ki, a bala, niyə anan yaşında olan qadına yer vermirsən? Bilirsən heç o, gənc cavabında mənə nə dedi? Dedi ki, “əmi, mənə göstəriş vermək lazım deyil, mən uşaq deyiləm. Yer mənimdir, kimə vermək istədiyimi özüm bilərəm.” Elə bu vaxt qatar növbəti stansiyaya çatdı, qapılar açıldı və içəri cavan, yaraşıqlı bir qız daxil oldu. Həmin oğlan qızı görcək cəld ayağa qalxdı və yerini ona verdi. Onun qarşısında ayaq üstə duran qadın da bunu görüb sadəcə başını

yırğalamaqla kifayətləndi. Həmin gündən sonra bir daha gənclərə nəsihətamiz söz deməkdən vaz keçdim.

- Daha nə deyəsən ki. Təkid etsəydin, hökmən sizə başqa ağır sözlər də deyə bilərdi. Onsuz da indiki gənclər ağızlarına sahib çıxa bilmirlər. Adam abırından qorxur, yoxsa... - Professor sözünün gerisini gətirmədi.

Növbəti stansiyada professorun sol tərəfi boşaldı və bir qız heç kəsə aman vermədən tez onun yanında oturdu. Mən Professorun sağ tərəfində oturmuşdum. Birdən professorun həyəcanlı səsini eşitdim:

- Qızım, sizə nə oldu?!

Mən tez dönüb professora baxdım. Gördüm ki, qız başını professorun çiyninə qoyub, gözləri də qapanıb. Mən də təlaş içində soruşdum:

- Professor, qıza nə oldu belə?

- Vallah, mən də bilmədim, nə oldu. Deyəsən, ürəyidir. - Professor qızı silkələməyə başladı. – Qızım, qızım, aç gözlərini! Nə oldu sizə birdən-birə? Dillənsəniz! Əgər ürəyinizdirsə, cibimdə “validol” var.

Qız isə bayılmış halda professorun çiyninə söykənmişdi. Qızdan cavab gəlmədiyini görən digər sərnişinlər də əl-ayağa düşdülər. Onlar da professora kömək etmək istədilər. Professorun dayanacağı çatdı. O, qızı da ayağa qaldırıb, digər adamların köməyi ilə vaqondan düşürtdü. İnsanlıq və yoldaşlıq naminə mən də professora yardım etmək üçün vaqondan düşmək istəyəndə, haqqı deyəsən o, etiraz etdi:

- Siz zəhmət çəkməyin, onsuz da mən bu stansiyada düşürəm. Siz yolunuzdan qalmayın. Metro polisləri bizə kömək edəcəklər.

Həmin gündən sonra düz bir həftə professorla qarşılaşmadıq. İkinci həftənin bazar ertəsi yenidən professorla görüşdük. Onunla kef-əhvaldan sonra bir həftə görünməməyinin səbəbini soruşdum. Hətta, xəstə olub-olmadığını da xəbər aldım.

Qocaman professor başını yırğalayıb:

- Danışma, qardaş. Başıma elə bir iş gəldi ki, utandığımdan söyləməyə dilim də gəlmir - dedi.

- Nə oldu ki?! - Təəccüblə soruşdum.

- O qız mənim başıma bir oyun açdı ki, gəl görəsən. Qardaş, qızı vaqondan düşürəndən sonra, ona bir "validol" verdim ki, dilinin altına qoysun. Sonra metro polisini çağırdım. İki polis gəldi, birlikdə polis otağına getdik. Onlar məndən qıza nə olduğunu soruşdular. Mən də hadisəni olduğu kimi onlara danışdım. Bu zaman qız at kimi üzümə durdu ki, bu kişi mənə sataşdı. Polisə dedi ki, guya mən onun döşlərini əlləşdirmişəm. Bunu eşidəndə, nitqim tutuldu, danışa bilmədim. Deyəcəyim sözlər boğazımda ilişib qaldı. Qəhərdən rəngim avazıdı. Polislərə də elə bu lazım imiş. Tez qızın izahatını aldılar. Və qızı heç nə olmamış kimi buraxdılar. Sonra mənə izahat yazdırdılar. Mən nə qədər and-aman etsəm də, polislər məni dinləmək belə istəmədilər. Onlara professor olduğumu söylədim, yüzlərlə bu qız kimi tələbələrə dərs verdiyimi, onların təlim-tərbiyəsilə məşğul olduğumu dilə gətirdim: "Bir də ki, metroda bu qədər adam olduğu halda, mən qıza necə sataşa bilərdim. Məndən başqa digər sərnişinlər də qıza kömək etmək istəyirdilər." Polislər isə gülərək dedilər:

- Professor, sizi başa düşürük, amma qanun sizin əleyhinizədir. Qız izahatında israrla göstərir ki, siz ona sataşmısınız, yəni onun bayılmasından istifadə edib, naməhrəm yerlərinə əl gəzdirmisiniz. Əlbəttə, sizin kimi bir professorun dərs dediyiniz institutda biabır olmasını heç istəməzdiniz.

Mən onların eyhamını başa düşdüm. Ona görə də birbaşa mətləbə keçdim:

- Nə qədər verməliyəm ki, məndən əl çəkəsiniz? - soruşdum.

- Bax, bu başqa məsələ. Görürsünüz, biz sizinlə daha tez anlaşdıq, - deyə polis serjantı qımışdı.

- Professor olduğun üçün iki min manat gətirməlisən! - Polis başını qaldırıb mənə baxmadan, əlindəki ruçkanı stola vura-vura qiymətini oxudu.

- Məndə o qədər pul hardandır?! – təəccüblə dedim.

- Özün bil. Elə isə ...

- Mənim ancaq min manata gücüm çatar. Onu da yoldaşlarımdan borc götürərəm - dedim.

- Ağsaqqal, mən sizinlə açıq danışacağam. O, pulun min manatını rəisə verməliyik. Bu taksidir. Qalan min manatını isə biz üç nəfər arasında bölüşəcəyik, - deyə polis serjantı qəti fikrini bildirdi.

- Elə isə mənə telefon etməyə icazə verin, - deyə polisə pul üçün bir nəfər dostuma zəng edəcəyimi bildirdim.

Polis razı oldu. Mən tez orqanda işləyən keçmiş bir tələbəmə zəng etdim. Onunla təsadüfən toyda qarşılaşmışdıq. Mənə vizit kartını verib demişdi: “Professor, nə vaxt işiniz dara düşəndə, mənə zəng edərsiniz.” Keçmiş tələbəmə harada olduğumu bildirdim. Nəzərinə çatdırdım ki, mənə iftira atıblar. O, tez telefonu yanımdakı polisə verməyi xahiş etdi. Mən də mobil telefonu mənə qiymət oxuyan polis serjantına uzatdım. Keçmiş tələbəm telefonda polisə nəsə dediyini bilmədim. Ancaq onu gördüm ki, polisin rəgi-ruhi qaçdı, sifəti kağız parçası kimi ağardı. Və sonda: “Baş üstə, rəis!” dedi.

- Ağsaqqal, bəs deyirsən pul üçün yoldaşıma zəng edirəm. Yaxşıca fırça yedik. Yaxşı, onda get, rəisin xətrinə min manatı saat 5-ə kimi bizə çatdır. Amma səninkinin bundan xəbəri olmasın, yoxsa bu iş daha mənlik olmayacaq.

Mən məcbur qalıb min manat borc tapıb polisin dediyi vaxtda pulu gətirib onlara verdim. Sonradan öyrəndim ki, həmin qız polislərə işləyirmiş, onlara “işverənlik” edirmiş. Bax, qardaş bu bir həftədə anadan əmdiyim süd burnumdan gəldi. Heç evdə də başıma gələnlər barədə kiməsə bildirmədim. Evdəkilərə özümü pis hiss etdiyimi bəhanə edib, bir həftəlik “bülleten” götürdüm. Bu mənə yaxşıca dərs oldu. Bundan

sonra kiməsə kömək etməyi ağlımdan belə keçirməyəcəyəm. Allah kimsəni qadın şərinə, qadın iftirasına düçar etməsin! Amin! - deyə Professor təəssüfləndiyini bildirdi.

- Düz deyirsiniz, professor. Mənim sizə böhtan atan o qadına yazığım gəlir. Çünki o, sizə iftira atmaqla axirət dünyasını necə cəhhənnəmə döndərdiyinin fərqində deyil. Onu axirətdə hansı əzabların gözlədiyindən bixəbərdir. Dinimizdə böhtan böyük günahlardan sayılır.

Qurani-Kərimdə insana böhtan atmağın böyük günah olması açıq şəkildə qeyd edilir: "*Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!*"; "*(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək-bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır.*"

- Ay Allah sizin atanızı rəhmət eləsin. Çox gözəl söyləyirsiniz. Görəsən, adamların hamısı bunları bilirlərmi?! Bəziləri bilmədiklərindən, bəziləri də bilə-bilə Allah dərgahında belə böyük günahlar işlədərək, axirət dünyalarını yandırıb-yaxırlar. Sonra da işləri dara düşəndə, üzlərini Tanrı dərgahına tutub Ondan kömək diləyirlər. Yalnız yaman gündə Allah-təala onların yadına düşür, onu xatırlayırlar. Ancaq həmin adamlar onu da unudurlar ki, etdikləri hər cür pisliklər, şər əməllər Allaha bəllidir. Çünki Rəbbimiz hər şeyi görən və hər şeyi biləndir. Həzrəti Əli (ə) də böhtan atmanı həyasızlıq və abırsızlıq kimi dəyərləndirmişdi. Bir hədisdə də böhtan atanı Məhəmməd Peyğəmbər (s) Qiyamət günü cəzalanacağını buyurur: "*Kim mömin kişiyə və ya qadına böhtan atsa, yaxud onun barəsində onda olmayan şeyi desə, Allah Qiyamət günü onu həmin şəxs barəsindəki sözünü geri götürənə kimi bir od təpənin üstündə saxlayar.*" – deyə Professor da dərindən köks ötürdü.

- Siz də haqlısınız, professor, - deyə bundan sonra yol yoldaşıma əlimdən ancaq təsəlli vermək gəldi. Əgər o da işə yarıyırdısa.

Bəli, başqalarına qarşı mərhəmət, xeyirxahlıq göstərmək heç də həmişə insana başucalığı gətirmirmiş, xüsusən də indiki dövrdə. Necə ki...

**11.01.2013**

# Пахыллыг

(щекайя)

Gülüsüm хала ярини итиряндя, оьланлары - Рауфун 12, Анарын ися 10 йашы варды. Бундан сонра о, эянълийини вя бцтцн юмрцнц яринин она гойуб эетдийи йадиэарларына щяср етмишди. Necə deyərlər, gənc ana saçlarını övladlarının yolunda süpürgə etmişdi. Эеъясини эцндцзцня гатан Gülüsüm хала истямирди ки, ювладлары нядянся корлуг чяксин, атасыз олдугларыны щисс етсинляр. Илляr isə ганадлы гуш кими ютцб кечирди...

Артыг гардашларын əlləri çörəyə çatmış, щяр икиси евляниб, ев-ешик сащиби олмушду. Бюйцк гардаш Рауфун ики оьлу варды. Кичик гардаш Анарын ися həkimlərə "ətək-ətək" pul tökməsinə baxmayaraq, hələ ki ювлады олмурду. Буна эюря дя Анарэилдя щяр эцн yerli-yersiz söz-söhbətlər, дава-далаш olurdu. Анарын həyat йолдашы Aynurun дили zəhər tuluğuydu, щамыны аъылайыр, sancırdı. Buna rəğmən о, щям дя qaynı arvadı Rənanın paxıllığını çəkirdi. Рауфун йолдашы, Ряна ися чох мещрибан, гайьыкеш, сямими, мярифятли, яхлаглы, истиганлы, хошхасиййят эялин иди. O, eyni zamanda ailəsinə qəlbən bağlı, uşaqlarının qayğısına qalan, onlar üçün canından belə keçməyə hazır olan əsl cəfakeş bir ana idi.

Щяр ики гардаш бир щяйятдя, ата йурдунда йашайырдылар. Gülüsüm хала эялинляриня гайынаналыг дейил, ясл аналыг нявазиши эюстярирди. Индийя кими о, эялинляринин хятриня дяйяъяк бирья кялмя беля пис сюз ишлятмямишди. Onun gəlinlərinə xitab etdiyi сюзляр ancaq бунлар иди: «ана гурбан, гызым, евимин диряйи, ай

оьлумун baş таъы, эюзцмцн ишыьы, евимин йарашыьы вя с.»

Gülüsüm хала кичик эялинини дя баша дцшцрдц. Düşünürdü ки, ювлады олмадыьына эюря беля ясябидир. Онунла эяряк idi ki, мещрибан доланасан, хятриня дяймяйясян. Анъаг буна бахмайараг, кичик эялин danışanda аьзындан од-алов пцскцрцрдц. Евдякилярин щамысыны аъылайырды, кимсяуə хош üz göstərмирди. Яри дяфялярля ону бу щярякятляриня эюря данламыш, мязяммят етмишди. Амма дейясян, Айнур дцзяляня heç охшамырды. Артыг Анар да Айнурун yersiz mübahisələrindən, dedi-qodusundan, haqsız sözlərindən тянэя эялмишди. Анар сящярдян ахшама кими ишляйирди, йахшы да пул газанырды, dоланышыглары да пис дейилди. Айнур пал-палтар, qır-qızıl щявяскары иди. Евдар гадын олмасына бахмайараг, ялляри, бойун-боьазы щамысы гызыл иди. Эцн ярзиндя ики дяфя палтарыны дяйиширди. Бунунла о, qaynı arvadı Rənaya sanki йанмышлыг верирди. Amma bуна бахмайараг, Айнур еля щей яринин аз мааш алmasындан, ona yaxşı baxmamasından эилейлянир, Allahına naşükürlük edirdi. Анар ися щялялик Айнурун "чалдыьы щава иля ойнаmaq" məcburiyyətində qalmışdı.

Рауф ися алдыьы ямяк щаггыны ушагларына, евя вя анасына хяръляйирди. Чцнки евин бцтцн аьырлыьы онун цстцндя иди. О, истямирди ки, евдя nədənsə inciklik, söz-söhbət yaransın. Еля Ряна да, Gülüsüm хала да belə şeyləri heç sevməзди. Амма Айнур щяр эцн бир бящаня тапыб, щяйятдя сясинин тонуну галдырыr, гоншулара ешитдирмяк истяйирди ки, эуйа ону bu həyətdə yola vermirlər, инъидирляр. Щаггы дейясян, Gülüsüm хала бир нечя дяфя бунун цстцндя Айнуру яркйана, гызы кими мязяммят дя етмишди. Айнур isə Gülüsüm халанын нясищятамиз сюзлярини бир гулаьындан алыб, о бири гулаьындан

бурахмышды. Яркюйцн эялин щеч ъцр ипя-сапа йатмаг истямирди. Онун Анардан истядикляри шейляри щеч милйончунун гызлары беля истямирди. Belə olan halda Анарын йеэаня чаряси qalmışdı: Айнуру бошамаг. Анъаг анасы бу фикри оьлундан ешидяндя, юзцня ял гатды:"Оьул, щеч ня данышдыьыны билирсянми?! Бизи ел ичиндя рцсвайmı етмяк истяйирсян? Беля щярякят бизим нясля йарашмаз. Сябрин олсун, гадынды да данышыб-данышыб, йорулаъаг. Аталар дейиб ки, щирсли башда аьыл олмаз. Исти оъаьына öz ялинля су тюкüb söndürmə, бала. Gəl, sən bир аз сябр et. Çox keçməz ki, Айнурун аьлы башына эяляр. Ъаван эялиндир, bərkə-boşa, исти-сойуьа дцшмяйиб щяля. Gялинимля бир дя данышарам."

Анар бу дяфя дя анасынын сюзцндян чыхмады, arvadının "kaprizlərinə" dözmək zorunda qaldı.

Bütün öyüd-nəsihətlərə baxmayaraq, Айнур yenə də яри евя эяляндя, гайны арвадынын архасынъа o ki var гейбят edирди. Анар da бундан ясябіляшirdi. Чцнки o, Rənanın хятрини чох истяйирди. Anar bu günə qədər Рянанın биръя дяфя дя олсun ня йерсиз данышыьыны, nə də йерсиз щярякятини эюрмəmişди. Rəna ailədə hamının hörmətini saxlayır, hamıyla səmimi və mehriban rəftar edirdi. O, ərinin bir sözünü heç zaman iki etməzdi. Она эюря дя Анар ону özünə доьмаъа баъысы санырды. Еля Айнуру да йандыран Анарын Рянайа бу ъцр сямими вя исти мцнасибят бяслямяси və onun tərəfini saxlaması иди. Бу гысганълыг дейил, ясл пахыллыг иди. Чцнки hər iki evdə Рянанын xətir-щюрмяти böyük иди. Bu səbəbdən də Айнур фцрсят дцшян кими, Рянаны ийняли сюзляриля санъмаqdan zövq alırdı.

Айнур дяфялярля Рянанын эейиминя ришхянд етмишди. Ряна ися бцтцн бунлары ешитмямязлийя вурмушду. Rəna ağıllı və yol-yolağı bilən gəlin olduğundan bircə dəfə də olsun, Raufa "mənə filan şey al" deməmişdi. Rəna fikirləşirdi ki, onunçün pal-paltar o qədər də önəmli deyil.

Onun üçün önəmli olan ailə daxilində səmimiyyət və mehribançılıqdı. Gülüsüm xala da gəlininin bu xasiyyətinə görə Rənaya daha çox güvənir, ona hörmət edir, ana nəvazişi göstərirdi. O, Aynurun içindəki paxıllıq hisslərinin, xudpəsəndliyin, şöhrətpərəstliyin olmasını, onlara qarşı doğru-dürüst olmadığını, ara qarışdırmağını, söz gəzdirməyini çox gözəl bilirdi. Amma Gülüsüm xala bunu bircə dəfə də olsun Aynurun üzünə vurmamışdı, oğluna görə susmuşdu. Aynur isə çalışırdı ki, hər gün heç nədən evdə dava-dalaş salsın. Gülüsüm xala isə hələ ki Aynura qarşı səbr və dözüm nümayiş etdirirdi.

Son zamanlar Raufun işi getmirdi, dolanışıq günü-gündən çətinləşirdi.

Bir gün Rauf evə çox fikirli və qəmgin halda gəldi. Anası bunu dərhal sezdi və süfrə başında Raufdan bunun səbəbini soruşdu:

- Oğlum, bu gün gözümə nədənsə yaxşı görünmürsən? İşdə bir şeymi olub?
- Ana, daha nəyini gizlədim, iş yerimdə ixtisara düşdüm. İndi gərək özümə başqa bir iş axtarıb, tapım.

Raufdan bu sözü eşidən hər kəs məyus oldu. “İndi biz necə dolanacağıq, İlahi?” deyə ən çox da Rəna narahat olmağa başladı. Amma həmin anda Gülüsüm xala onlara fikir çəkməməyi, sıxılmamağa, Allahın qüdrətinə, mərhəmətinə sığınmağı məsləhət gördü...

Ailədəki söz-söhbətlər Rənanın ücüncü oğlan övladı dünyaya gələndən sonra daha da artdı. Aynur açıq-aydın övladı olmadığına görə, Allah-təalaya qarşı küfr söyləməyə başladı:

- Allah-təala övad qədri bilməyənlərə övladı övlad dalınca verir, ancaq heç olmazsa bircə dənə övlad həsrətində olanlara isə qəm, kədər qismət edir. Allahım, niyə taleyimi puç, bəxtimi qara yazmısan? Mən sənə nə etmişəm ki, mənə övlad

vermirsən? İlahi, Sənin ədalətli və mərhəmətli olduğuna inanmıram!!!

- Qızım, sən nə danışırsan? Niyə küfr edirsən? Niyə səni Yaradana qarşı bu cür asi olursan?! Bəs, bilmirsən ki, Tanrı küfr danışan bəndələrini sevməz, onları bağışlamaz?! Aynur, qızım, küfr etmək Allahın əmrindən çıxmaq, ona qarşı olmaq deməkdir. Allah-təala belə insanlara xeyir və yaxşılıq nəsib etməz. Qızım, sən Rəbbinin lütf və mərhəmətinə sığın, onun sənə bəxş etdiyi nemətlərinə şükr et, əllərini açıb Ona dualar et! Ona nankorluq etmə! O, bəndələrini həmişə sınağa çəkər. O, kimsəyə möhtac deyil. Bizlər isə hər zaman Onun kəraminə, nicatına, şəfahətinə, lütfünə və mərhəmətinə möhtacıq. Sən Allahın işinə əl atma! Allah -təala özü bilən məsləhətdir! Dediyin sözlərə görə dərhal tövbə et, qızım! Allah adil, rəhmdil və mərhəmətlidir. O, tövbə edənləri bağışlar, - deyə Gülüsüm xala təlaş içində Aynura xəbərdarlıq etdi.

- Gülüsüm xala, yalan danışıram məgər? Allah-təala bəs mənə niyə heç olmasa, bircə övlad vermir? Mən Ona nə etmişəm ki?!

- Qızım, bizi Yaradana həmişə şükür etmək lazımdır. Allaha şükür olsun ki, pis dolanmırsan, sənin ki, heç bir şeydən də ehtiyacın yoxdur, nədənsə korluq çəkmirsən. Nə istəyirsən, Anar dərhal onu səninçün alıb gətirir. Amma bütün bunlara rəğmən mən indiyə kimi, sənin dilindən bircə dəfə də olsun bu nemətləri, ruzi-bərəkəti bizlərə bəxş edən Rəbbinə şükür və dualar etməyini nə eşitdim, nə də ki gördüm. Gün gələr, Allah sənə də övlad qismət edər, inşallah! Ancaq bunun üçün sən qəlbindəki şübhələri, pis niyyətləri, şeytani hissləri oradan çıxarıb atmalısan, onların yerinə iç dünyanı iman, inam, xeyirxahlıq, mərhəmət hisslərilə doldurmalısan.

- Siz gündə dəfələrlə namaz qılır, Allaha şükür və dualar edirsiniz. Nəticəsi nə olur? Məgər işləriniz yağ kimi gedir? Heç bir şeydən korluq çəkmirsiniz? Sizin ki, dolanışığınız o qədər də yaxşı deyil, bilirəm ki, ailə büdcənizdə də “qara gün”ə heç

bir qara qəpik də pul yoxdur. Bəs, Allah-təala sizə niyə görə istədiklərinizi vermir? Siz ki, Ondan yerdən göyədək razılıq edirsiniz. Belə olan halda, sizin daha heç bir şeydən ehtiyacınız olmamalıdır ki. Deməli, Allah-təala da insanları düzgün qiymətləndirmir, onlar arasında fərq qoyur, - deyə Aynur yenidən Tanrıya asi kəsildi.

- Səsini kəs, ay qız! Əstəğfurullah!!! Azğınlaşdın ha! Bu qızın deyəsən, vələdi dönüb. Ay qız, sən Şeytana uymusan! Sən nə danışdığını bilirsənmi heç?! Bu danışıqlarınla nəinki özünü, elə bizim hamımızı böyük bir bəlaya salacaqsan. İlahi, o, cahillik etdi, Sən onun dediklərini bağışla! Onu əfv et, ya Rəbbim! İlahi, onun bu cahilliyini Fatimeyi - Zəhraya bağışla!

Gülüsüm xala nə qədər yalvardı ki, gəlini dedikləri sözlərə görə tövbə etsin, amma gəlin inadından dönmədi. Həmin gündən sonra Gülüsüm xalanın içindəki Aynura qarşı qalmış azca sevgi və istək də tamam yox olub getdi. İndi Gülüsüm xala Aynura tam başqa bir gözlə baxırdı və qəlbində düşünürdü ki, "bu gəlindən nə desən gözləmək olar." Bundan sonra Gülüsüm xala onunla çox ehtiyatlı davranmağı və müəyyən işlərdə ona güvənməməyi, etibar etməməyi qərara aldı.

Raufgilin maddi sıxıntı keçirməsini Anar da bilirdi. O, bir neçə dəfə qardaşına və anasına maddi kömək etmək istəmişdi, amma arvadı Aynur buna imkan verməmişdi:

- Onlar özlərini yalandan belə göstərirlər. Raufun pulu qurtaran deyil. Nə qədər istəsən qardaşının pulu var, amma bizə göstərmək istəyirlər ki, guya maddi cəhətdən korluq çəkirlər. Bunlar hamısı sənin o, çoxbilmiş, gülməşəkər gəlinbacının hiylələridir. Ailənin maddi sıxıntı söz-söhbətlərini Rəna yaradır, bütün bunların hamısı onun başının altından çıxır, - deyə Aynur Anarı qardaşına qarşı doldurmağa çalışırdı.

- Sən necə bir insansan, Aynur? Görmürsənmi Rauf aldığı maaşı qəpiyinə qədər gətirib anama verir? Biz iki nəfərik, onlar isə altı nəfərdilər. Qardaşımın artıq pulu haradan olacaq? Sən

ömründə heç olmasa bircə dəfə də olsun, doğru-dürüst söz söyləyəcəksən, ya yox?! Suyunu, çörəyini götürüb, düşmüsən yazıq Rənanın üstünə. De görüm, Rənadan nə istəyirsən? Niyə onu rahat buraxmırsan? Bəsdir daha! Sənin də onun kimi bir şirin dilin olsun da! Bezdim daha sənin bu iynəli, atmacalı sözlərindən! Bu həyətdə hamını bezdirmisən! - Anar əsəblərini cilovlaya bilmədi.

- Xeyir ola?! Hər dəfə Rənadan söz düşəndə, niyə onu bu qədər canfəşanlıqla müdafiə edirsən? Bəli, mənim sözlərim sənin xətrinə dəyər də! Çünki mən onun kimi sənə küçüklər doğmuram. Bunu hər dəfə mənim başıma çırpırsan, - deyə Aynur qabaqdangəlmişlik etdi.

- Heç hənanın yeridir. Mən nə danışıram, sən nə danışırsan. Gör bir söhbəti haraya aparıb çıxartdın. Aynur, sən çox paxıl qadınsan. İndi mənə gün kimi aydın oldu ki, qardaşım uşaqlarını gözün götürmür. İnsana övlad qismət etmək Allah-təalanın məsləhətidir. O, istədiyinə verər, istəmədiyinə verməz. Biz, bəndələr Tanrının işinə əl uzatmamalıyıq. Hər şey bizi Yaradanın əlindədir. Yetər ki, qəlbin Onunla olsun, Onun mərhəmətinə sığınasan. Çünki Allah-təala lütf və kəramət sahibidir. - Anar dedi.

Evdəki sıxıntılara görə, bir axşam Rəna Raufa dedi ki, qoy o da işləsin. Amma Rauf buna razı olmadı:

- Sənin körpə uşağın olduğu halda, işləmək hardan çıxdı? Sən evdə uşaqlarla məşğul olmalısan. İşləmək sənin işin deyil.

- Rauf, evimizin yaxınlığındakı şirniyyat sexində işləmək istəyirəm. Qonşumuz Tənzilə də orada işləyir. Uşaqlara isə evdə Gülüsüm xala baxar. Sən gəl, inad etmə. Azca da olsa, evə yenə bir köməyim dəyər, - deyə Rəna ərindən icazə almaq üçün üzünü Gülüsüm xalaya çevirdi.

- Oğul, Rəna düz deyir, qoy işləsin. İş yeri uzaq deyil ki, məhəlllərimizin başındadır. Uşaqlara mən baxaram, - deyə Gülüsüm xala Raufu razı salmağa çalışdı.

Rauf anasının sözündən heç vaxt çıxmazdı, onun sözünün qabağına söz deməzdi. Odur ki, Rauf Rənanın işləməsinə daha bir söz demədi...

Бир эцн Gülüsüm xala bazardan gəlincəyə qədər, bir saatlığına yaş yarımlıq körpəni Aynura tapşırmaq məcburiyyətində qaldı. Aynur həyətdə bankalara pomidor-xiyar qoyurdu. Qayınana bazara getməsindən bir müddət keçəndən sonra paxıl gəlinin içindəki İblis oyandı.

Bu zaman Aynurun daxilindəki həsəd, qısqanclıq, nifrət və paxıllıq hissləri onu yaranmış fürsətdən istifadə etməyə sövq etdi. O, мясум, эцнащсыз кюрпяйя qarşı uzun müddət qəlbində gizlətdiyi insana yaraşmayan, alçaq və çirkin niyyətinin həyata keçirməyin zamanı gəldiyini düşündü. Aynur ona əmanət olunan Rənanın kiçik oğluna сиркя ичирdib юлдцрмяк qərarına gəldi. O, сиркя şüşəsinin тыхаъыны чыхардараг щеч nядян горxub-чякинмядян, bir çay qaşığı sirkəni кюрпя ушаьын боьазына тюкdü. Кюрпя аьзынын вя боьазынын йандыьыны hiss edən kimi, bərkdən qışqırmağa başladı. Elə by заман Gülüsüm xala əlində bazarlıq zənbili ilə щяйятя дахил олdu вя эялиндян ушаьын нийя qışqırdığını сорушdu. Юзцнц итирян пахыл эялин dedi ки, башы йемяк биширмяйя гарышдыьындан uşaq əl atıb, сиркя şüşəsini ня вахт эютцрцб ичдийини эюрмяйиб. Gülüsüm xala ъялд кюрпянин аьзыны сойуг су иля йudu вя эеъикдирмядян щякимя qaçdı. Хюшбяхтликдян кюрпя сиркяни удмамышdı. Она эюря дя сиркя кюрпянин анъаг аьзыны vя боьазыны йандырмышды. Gülüsüm xala isə həkimə körpənin isti çay içdiyini söylədi. Кюрпянин боьазы чох йандыьындан она йемяйи bir ay бору васитясиля вердиляр.

Gülüsüm xala Aynurun bu işi qəsdən etdiyini başa düşmüşdü, amma bunu evdəkilərə bilindirmədi. Bu işin üstü açılsaydı, kim bilir evdə nələr olardı?! Gülüsüm xala Aynuru müdafiə etmək üçün dedi ki, uşaq isti çay içib, ona görə boğazını yandırıb...

Bir axşam Rauf anasına və Rənaya iş dalınca Rusiyaya gedəcəyini bildirdi. O, dedi ki, Rusiyaya tək getməyəcək, buradakı iş yoldaşları ilə birlikdə gedəcək. Bakıda iş tapmaq artıq problemə çevrilmişdi.

Gülüsüm xala Raufun əksinə getmədi. O, oğluna: "Yolun həmişə açıq olsun, oğul. Arzuna, muradına çatasan. Getdiyin yerdə xətadan-bəladan uzaq olasan həmişə! Allah-təala bu yolda sənin daim köməyin olsun!"- deyə uğurlar dilədi. Amma Gülüsüm xala qəlbində bilirdi ki, Raufsuz burada onlar üçün çox çətin olacaq. Buna baxmayaraq o, oğlunun yanında özünü o yerə qoymadı. Rauf Rənaya dönə-dönə anasını tapşırdı...

Raufun Rusiyaya getməsindən iki ay ötürdü. Rəna qonşuları Tənzilə ilə hər gün şirniyyat sexinə gedib-gəlirdi. Onlar on iki saat işləyirdilər. Uşaqları isə evdə Gülüsüm xala saxlayırdı. Məlum hadisədən sonra Gülüsüm xala uşaqları bir də Aynura etibar etmədi. Əksinə, o, həmişə uşaqları paxıl qayınarvadından uzaq tutmağa çalışırdı.

Qış ayları idi. Hava qarlı olduğundan həmin gecə işçiləri müdir öz maşınında bir-bir evlərinə gətirmişdi. Rəna evin qarşısında maşından düşəndə, təsadüfən Aynur bunu görmüşdü. "Aha, mənimçün bundan gözəl fürsət ola bilməz!" - deyə Aynur Rənaya qarşı yenə də çirkin niyyətini işə salmağı qərara aldı. Elə həmin axşam şam yeməyi zamanı eyhamla ərinə dedi:

- Anar, xəbərin varmı? Sənin o, isмətli, qeyrətli qardaşın arvadı gecələr naməlum adamların xarici maşınlarında gəzir.

- Kəs səsini! Bəsdir həyasızlıq etdin! Rəna haqqında bu cür danışma! Yoxsa...

- Yoxsa, nə? Məni o, fahişəyə görə döyəcəksənmi? Gözlərimlə gördüm. Nəyə deyirsən and içə bilərəm. Allah haqqı, bu gecə küçədə xarici maşından düşəndə gördüm, - deyə Aynur necə olursa-olsun Anarı inandırmağa çalışdı.- Əlbəttə, gəzəcək. Nə ər var yanında, nə də hardan gəlib,

haraya getdiyini soran birisi! Necə deyərlər: “Dərə xəlvət, tülkü bəy!”

- Ağzını yum! Sən insan cildinə girmiş əsl şeytansan, Aynur! - Anar əsəbindən yumruğunu stola vurdu. Stolun üstündəki stəkandakı çay aşıb dağıldı.- Sənin paxıllığın axırda hamımızı məhv edəcək. Sən xarakterindəki naqisliyi görmək istəmirsən, başqalarının həyatda qazandığı uğurlar səni narahat edir, içini yandırır. Sən öz uğursuzluqlarının səbəbini başqalarında axtarırsan. Bu səbəbdən də, başqalarını sancmaqdan, incitməkdən, onlara böhtan, iftira atmaqdan belə çəkinmirsən. Əksinə, bunlardan zövq alırsan. Sən mənəvi cəhətdən şikəst bir insansan. Sənin görən gözlərin də kor olub. Çalış ki, içindəki o, iblisi özündən uzaqlaşdırasan, yoxsa, cəhənnəm atəşində yananlardan olarsan. Kiməsə nahaqdan böhtan, şər atmağın cəzası Allah tərəfindən daha ağır olacaq. Bax, budur sənə deyirəm, əgər bir də Rənanın adına nəsə desən, səni bu evdən iti qovan kimi qovaram. Eşitdinmi?!

- Bah, balam, Rəna nə vaxtdan bu evin əziz-xələfi oldu? Elə hamı onu müdafiə edir. Yaxşı deyiblər: “Adamın gərək bəxti olsun.”

Aynur ərini yalanlarına inandırmadığını görüb, üz tutdu Gülüsüm xalagilə. Qayınanası Aynurun Rəna haqqındakı dediklərinə o qədər də əhəmiyyət vermədi, ona inanmadı. Çünki Gülüsüm xala Rənaya özünə güvəndiyi kimi güvənirdi, onun əxlaqına, tərbiyəsinə yaxşı bələd idi. O, indiyə qədər gəlininin heç bir eyibini, qüsurunu, ədəbsizliyini görməmişdi.

Aynur Rənaya qarşı bu planının da baş tutmadığını görüb xeyli pərişan oldu.

Rauf evdəkilər korluq çəkməsin deyə, hər ay evə pul göndərirdi. O, telefonla Rəna ilə danışanda bildirmişdi ki, daha çalışmasın, evdə uşaqlara və anasına baxsın. Rəna da ərinin sözünə əməl edərək, ərizə yazıb işdən çıxdı. Düzü, müdir onu buraxmaq istəmirdi. Çünki o, çətin ki, bir də Rəna kimi işgüzar, işində dəqiq, məsuliyyətli, iş yoldaşlarına qarşı mehriban,

səmimi, doğru-dürüst olan, ədəb-ərkanlı, danışığını və yerini bilən bir işçi tapa bilsin.

Rəna iş yoldaşlarından ayrılarkən hamı onu mehribanlıqla yola saldı.

Artıq bir neçə gün idi ki, Rəna uşaqlarla və ev işləri ilə məşğul olurdu. Bu Aynurun nəzərindən qaçmadı. O, Rənanın daha işə getmədiyini görüb soruşdu:

- Rəna, xeyir ola, bir neçə gündür ki, işə getmirsən?
- Daha işə getməyəcəyəm, öz xahişimlə işdən çıxdım. Rauf belə məsləhət gördü. Telefonda uşaqlarla, ev işləriylə məşğul olmağımı tapşırdı. Mən də ərizə yazıb işdən çıxdım. Şükür olsun Allaha ki, Rauf da özünə daha yaxşı iş tapıb. Qazancı da pis deyil. - Rəna qaynı arvadına "hesabat" verdi.
- A...a... Deyirəm axı. Daha sizi tutmaq olmaz ki!. Bəxtəvər başına, bundan sonra daha günortaya qədər yatarsan. İş yox, güc yox. İstədiyin kimi, sağa-sola gəzərsən özünçün, - deyə Aynur yenə də Rənanı sancmaqdan çəkinmədi.
- Aynur, sən nə danışdığını bilirsən heç? Mən nə vaxt gəzməyə getmişəm? Özün də bilirsən ki, bun günə qədər mən icazəsiz heç mağazaya belə getməmişəm. Bundan sonra nə danışdığına fikir ver! O ki qaldı günortaya qədər yatmağıma. Sən məni nə vaxt yuxudan gec oyanan görmüsən?! Əksinə, sən yuxudan qalxanda, mən artıq həyət-bacanı süpürüb təmizləyirəm. Birdə ki, niyə günortaya qədər yatmalıyam, Aynur? Bəs, evin işləri, uşaqlar? İndi Gülüsüm xala istirahət etməlidir. Bunun ona haqqı daha çoxdur. Çünki mən işləyəndə, evin bütün işləri, uşaqlara baxmaq hamısı onun üstündə idi. Allah onun ölənlərini qəni-qəni rəhmət eləsin. O, olmasaydı, mən işləyə bilməzdim. Haqqı deyəsən, Gülüsüm xalanın üzərimdə əməyi çoxdur, nə qədər çalışsam da onu ödəyə bilmərəm.
- Hə, düz deyirsən. Elə bir-birinizi tərifləyib durursunuz. Nə yaman qayın-qədim olmusunuz, balam. Allah mənə də bir

övlad verseydi, indi mənim də qayınanamın yanında sənin kimi xətir-hörmətim olardı.
- Aynur, sən allah, başlama görək. İnşallah sənin də övladın olar. Ancaq bunun üçün gərəkdir ki, hər zaman Allaha dua edib, onun rəhminə, kəramətinə, bizlərə bəxş etdiyi naz-nemətlərə görə şükür edəsən. - Rəna Aynuru yenə də haqqın yoluna dəvət etmək istədi.
- Hansı günümə şükür edəcəyəm, ağəz?! Sən də tutmusan, şükür elə. Nəyə və nə üçün şükür etməliyəm ki? - Aynur Rənanın sözlərindən cin atına mindi.
- Aynur, sən düz danışmırsan. Necə yəni, nəyə və nə üçün şükür etməlisən? Sən ona şükür etməlisən ki, evin-eşiyin var. Şükür etməlisən ki, Anar kimi ailəcanlı, işgüzar, mehriban, alicənab ərin var. Şükür etməlisən ki, Anarın işi var və ailəsini halal zəhməti ilə dolandırır. Kimsəyə əl açmır, kimsənin qarşısında əyilmir. Sən ona şükür etməlisən ki, istədiyin paltarı alıb geyinirsən, könlün istədiyi yeməkləri yeyirsən, istədiyin yerə getmək istəyəndə, Anar sənə heç zaman etiraz etmir, həmişə çalışır ki, sənin istəklərini yerinə yetirsin, sənin qəlbini qırmasın. Allaha şükür et ki, həm ərinin, həm də sənin canın sağlamdır. Daha bundan artıq insana nə lazımdır? Sən ilk növbədə sağlamlığına görə, ərinin işi olduğuna görə, ev-eşik sahibi olduğuna görə Allah-təalaya şükür etməlisən. Əgər sən Yaradana sidqi ürəkdən dua etsən, namaz qılıb, oruc tutsan, qəlbini ona bağlasan, onun qüdrətinə və mərhəmətinə sığınsan, o zaman Allah istədiyini sənə hökmən verər. Çünki O, hər şeyə qadirdir. Yetər ki, qəlbindəki şeytani hisslərdən uzaq olasan! Bizlər həm də ona şükür etməliyik ki, bizi Yaradan bizə bu gözəl dünyanı və gözəllikləri seyr etmək üçün bir cüt sağlam göz, Allah kəlamlarını, ürəklərə sərinlik verən, onu rövnəqləndirən xoş və xeyirli sözlər eşitmək üçün iki qulaq, Allahın varlığını təsdiq edən, Məhəmməd Peyğəmbəri (s) tanıyan, Qurani-Kərimi oxuya bilən, doğru-dürüst danışa bilən, insan könüllərini fəth edə bilən sözlər söyləyən, həmişə

haqqı söyləyən, insanları bir-birinə dost, yoldaş, həmsirdaş edən, qırılmış, incik düşmüş qəlbləri barışdıran şirin dil, dünyanı dərk etmək, dünya elmlərinə sahib olmaq, doğru yol seçmək, gələcək həyatını müəyyən etmək, onu necə qurmağı düşünən, çətinliklərdən çıxış yolları aramaq üçün, yaxşını pisdən ayırd etmək üçün bizə düşünən sağlam təfəkkür, haqq yoluna, xeyir işlərə getmək, yüyürmək üçün bir cüt sağlam ayaq, xeyir işlər görmək, hər cür bəladan səni hifz edən iki əl, haqqı-nahaqdan ayıran, axirət üçün daim xeyir əməllər görməyə səsləyən, şeytanı yaxına buraxmayan, daimi onu özündən uzaqlaşdırmağa çalışan, mərhəmətli, saf, təmiz və imanlı bir qəlb vermişdir. Məgər bütün bu dediklərim şükür etmək üçün səncə, yetərli deyilmi?! Ancaq indi elə insanlar var ki, nə evi-eşiyi var, nə gündəlik işi var, nə də ki, yeməyə bir tikə çörəyi. Yaman günləri xatırlayıb, xoş günlərə şükür etmək lazımdır, Aynur.

- Ağəz, bəsdir görək, sən allah. Sözlə qarın doymur, ay Rəna xanım. Sən özünü ağıllı hesab edirsən? Ancaq mənim fikrimcə, sən həyatda heç bir şey bilmirsən, dünyagörüşün də məhduddur. Sən ətrafında baş verənləri doğru-dürüst görə bilmirsən. Bəs harda qaldı sənin o bir cüt baxar gözlərin? İnsanlar fərqlidir, hamı eyni cür düşünə bilməz. Məsələn, səninlə mən ayrı-ayrı adamlarıq, biz bir-birimizlə fərqli dünyanın insanlarıyıq. Mən heç bir zaman istəməzdim ki, sənin kimi düşünüm. - Aynur əda ilə dilləndi.

- Əlbəttə, mən bunu inkar etmirəm. Biz səninlə ayrı-ayrı düşüncə tərzinə malik insanlarıq - Rəna dedi.

- Yaxşı, gedim, şam yeməyi hazırlayım. “K stati”, Rəna keçən həftə, axşam səni maşınla qapımızın ağzında düşürən adam kim idi?

- Müdirimiz Rizvan idi. Həmin axşam soyuq olduğundan bütün işçilər kimi, məni də maşını ilə evə kimi gətirdi. Necə bəyəm?

- Heç, elə belə soruşdum. Dedim görəsən, Rəna xanım yad bir kişinin maşınında gecə vaxtı nə gəzir.

- Aynur, nə danışdığına fikir ver! Elə bir bu qalmışdı adıma çıxarasan. Ayıb deyilmi, o cür düşünürsən? Sən çox qəlbiqara adamsan, Aynur! Daha sənə deyiləsi heç bir sözüm yoxdur. Axı, dürüst insanlar haqqında bu cür yanlış düşüncələrə varmaq böyük günah hesab edilir. Nəyə görə özünü günaha batırırsan?!
- Yaxşı, yaxşı bir sözdür də soruşdum. Sizdən son zamanlar söz də soruşmaq olmur daha! - Aynur fors edib evinə getdi.

Bir gün Anar işdən çıxıb evə gələndə, yolda onu maşın vurur. Onu xəstəxanaya aparırlar. Bu bəd xəbəri eşidən Gülüsüm xala xəstəxanaya yüyürdü. Onun dalınca Aynur, sonra da Rəna uşaqları qonşuya tapşırıb, Anarın hayına tələsdilər.

Həkimlərin dediyinə görə, Anarın hər iki ayağı möhkəm əzilmiş, ayaq sümükləri çilə-çilə olmuş, damarları qırılmışdı. Yeganə çarə Anarın ayaqlarını dizdən kəsmək idi. Gülüsüm xala bunu eşidəndə özündən getdi. Həkimlər tez onu ayıltdılar. Gülüsüm xala özünə gələr-gəlməz, üzünü Aynura tutub dedi:
- Oğlumun evini sən yıxdın! Onu sən məhv etdin! Sənin dığ-dığın, naşükürlüyün oğlumun başına düşdü. İndi bundan sonra sənin gününü görəcəyəm. Həyatda acı çəkməyin nə demək olduğunu bundan sonra görəcəksən. Bundan belə Anar sənə möhtacdır. İndiyə qədər o səni saxlayırdı, bu gündən sonra canın çıxacaq, sən oğlumu saxlayacaqsan. O zaman həyatda əzab-əziyyətin nə demək olduğunu anlayacaqsan. Sənin pis niyyətin axır ki, başımıza düşdü. Allah-təala bizi bundan sonrakı bəlalardan saxlasın, inşallah!

Aynur ilk dəfəydi ki, Gülüsüm xalanı bu sifətdə görürdü. Gəlin ona bircə kəlmə də söz demədi. Nə deyəcəkdi ki. Qayınanası haqlı idi. Aynur doğrudan da, bundan sonrakı günləri barədə düşünməli oldu. İndi o, yataq xəstəsi olacaq ərinə necə baxacağı barədə fikirləşirdi.

Müalicənin heç bir nəticə vermədiyini görən həkimlər ilkin fikirlərində qalmalı oldular və Anarın hər iki ayağını dizdən

aşağı kəsməli oldular. Xəstəxana məsrəflərini Anarı maşınla vuran adam ödədi. Gülüsüm xala üçün oğlunu bu vəziyyətdə görmək çox ağır idi. Buna baxmayaraq o, oğlunu vuran sürücüdən şikayətçi olmadı və bunu Allahın qəzası adlandırdı.

Rauf qardaşının başına gələn qəza hadisəsini eşidən kimi, Bakıya uçdu. Qardaşını yataqda pərişan halda görəndə, Rauf dözə bilməyib Anarı qucaqladı və hönkür vurub ağladı:

- Can qardaş, kaş gözüm kor olaydı, səni bu halda görməyəydim!

- Rauf, sən nə danışırsan? Qardaşın sənin gözlərinə qurban olsun! Niyə özünə qarğış edirsən?! Bu Allahın qəzasıdır. Nə etmək olar, bu da mənim qismətim, alın yazım imiş. Allahdan gələn qəzanın qarşısını kimsə ala bilməz. Allah bilən məsləhətdir. Buna da şükür etmək lazımdır. Çünki həyatdayam, salamat qurtardım. Amma o qəzada ölə də bilərdim. Buna görə də mən Allahıma şükür edirəm.

- Düz deyirsən, qardaş. Ancaq bu sənin başına gəlməməli idi. - Rauf göz yaşlarını əllərinin arxası ilə sildi.

- Başımıza gələnlərə bir baxın da. İndi bundan sonra biz necə dolanacağıq? - deyə Aynurun dili yenə də dinc durmadı.

- Bəsdir, iyli-iyli danışdın! Nə demək istəyirsən? Sənin dərdin, azarın nədir? Daha Anarın da başını yedin. İndi nə istəyirsən? Qardaşımın bu günə düşməsinin əsas səbəbkarı sənsən, Aynur! Sənin naşükürlüyün, tamahkarlığın, paxıllığın, yersiz dedi-qoduların, qeybətlərin, haqsız danışıqlarının axır nəticəsi bax, budur! Nə ər sözünə qulaq asdın, nə də ağbirçək məsləhəti dinlədin. Haqqın yoluna qayıtmaq əvəzinə, yenə də bəd əməllərindən çəkinmədin. Allah-təala da qardaşımı cəzalandırmaqla sənə haqq yoluna qayıtmağa işarə edir. Sən isə hələ də qanmazlıq edirsən. Bunu bil ki, Tanrı gec-tez səni də cəzalandıracaq! - Rauf özünü heç cür saxlaya bilməyib Aynurun üstünə səsini qaldırdı.

- Rauf, sən allah ona fikir vermə. O, daha düzələn deyil. Neçə illərdir düzəlməyən insan, bundan sonra necə düzələ bilər?

Atalar yaxşı deyib: “Qozbeli qəbir düzəldər.” Dili onun başına bəla olacaq. - Anar qardaşını sakitləşdirməyə çalışdı.

Rauf bir neçə gün qardaşına görə qalmalı oldu, onun lazım olan ehtiyaclarını ödədi. Dördüncü gün Anar Raufu yanına çağırtdırıb dedi:

- Qardaş, daha buralarda qaldığın bəsdir, işindən qalma. Bizdən ötrü narahat olma. Biz başımızın çarəsinə baxarıq. Amma sən günü sabah hökmən iş yerinə qayıtmalısan!

- Qardaş, getsəm də, sizdən nigaran qalacağam.

- Niyə nigaran qalırsan ki? Şükür olsun Rəbbimizə ki, dolanışığımız pis deyil, yaşamaq üçün də hələlik pulumuz var. Bizə daha nə lazımdır ki? Sən işini əlindən buraxma. Sabaha hazırlaş, qayıt Moskvaya. - Anar qardaşına təkid etdi.

- Yaxşı, sən deyən olsun, qardaş. Amma buradakılar əvvəlcə Allaha, sonra da sənə əmanət, - deyə Rauf getmək qərarını vermiş oldu.

Qardaşlar arsındakı danışığı Aynur da eşidirdi. O, kimsənin eşitmədiyi bir tonda ironiya və rişxəndlə dedi: “Gör bir ailəsini, evini-eşiyini kimə tapşırır? Şikəst birisinə. Anar heç özünə baxa bilmir, səninkilərə necə baxacaq, onlara necə həyan duracaq?! Hələ Anarın dediyi sözə bir bax: “Dolanışıq üçün pulumuz var.” Ay, sən öləsən. Görərsən o, pulları! O, pulları sizə yedirtməyəcəyəm! Daha burada qalıb, şikəstin, bundan sonra heç nəyə yaramayan bir adama baxıcılıq edən deyiləm. Tezliklə başımın çarəsinə baxmalıyam.”

Rauf Moskvaya gedəndən iki gün sonra, Aynur ərinə dedi ki, atasıgilə getmək istəyir, xeyli müddətdir onları görmür. Anar da Aynura bir günlük icazə verdi. O, haradan biləydi ki, bu gediş Aynurun son gedişi olacaq.

Aynur gedərkən Anarın “qara gün” üçün yığdığı ehtiyat pulları da gizlicə götürüb özüylə apardı. İki gün keçdi. Aynur geri qayıtmadı. Üç gün keçdi, Aynurdan xəbər çıxmadı. Arvadının geri qayıtmadığını görən Anar narahat olmağa başladı. Aynur gedəndən sonra Anara Rəna baxırdı. Hətta,

Anarı o, öz evlərinə gətirmişdi. Gəlininin geri dönməməsinə görə, Gülüsüm xala da nigaran oldu və Aynurun valideynlərinin yanına getməyi qərara aldı.

Aynur isə atasıgilə gedəndən sonra, özünü xəstəliyə vurdu və valideynlərini də inandırmağa çalışdı ki, o, çoxdan idi ki, xəstə imiş. Amma əri evində onun xəstə olduğuna kimsə inanmırmış. Sanki o, ər evində atılmış, artıq adam imiş. Bu sözlərə inanan valideynlər: "Biz qızımızı küçədən tapmamışıq, o, sahibsiz deyil. Elə isə bir də səni o, evə buraxan deyilik!" deyə həm Anarın, həm də Gülüsüm xalanın dalısıyca o ki var danışdılar.

Gülüsüm xala qudalarıgilə gələndə, onu çox soyuq qarşıladılar. Amma Gülüsüm xala özünü bilməməzliyə vurub, onlara qarşı xoş münasibət sərgilədi. Və gəlini Aynuru yataqda görəndə, xeyli təəccübləndi:

- Qızım, sənə nə oldu belə?

- Hə, qızım?! İndi Aynur qızınız oldu? Bəs, ana da qızına bu cür baxar?! Necə nə olub? Xəstələnib! Balam sizin evinizdən gələndən bəri xəstə yatır. Elə xəstə olduğuna görə bura gəlibdir də! Bir soruşmamısınız ki, bu qızın dərdi nədir, harası ağrıyır, - deyə Aynurun anası Kifayət arvad nəfəs almadan dil-dil ötməyə başladı.

- Necə, yəni Aynur xəstədir! Aynur sap-sağlam idi. İndi bu xəstəlik hardan çıxdı belə?! - Gülüsüm xala Kifayətin dediklərinə inanmadı. - Aynur ərindən sizə baş çəkmək üçün birgünlük icazə almışdı. Gəlmədiyini görüb, hamımız ondan ötrü nigaran qaldıq. Ona görə də düşündüm ki, sizə bir baş çəkim. Amma gördüyümə peşman oldum.

- Gülüsüm xanım, qayınana olanda nə olar, gəlindən heç soruşmazlar ki, a balam, haran ağrıyır, dərdin nədir. Hə də, səni ancaq o gülməşəkər, qayın-qədim, sevimli gəlinin Rəna xanım maraqlandırır da. O, olan yerdə daha Aynur hardan yadınıza düşəcək?

- Kifayət, bəsdir sən allah iynəli-iynəli danışdın. Dedim ki, Aynurun heç bir şeyi yox idi, sap-sağlam idi. Nə olubsa, bura gələndən sonra olub. Bir də ki, adam xəstələnər də, bunun səbəbini kimsədə axtarmağa nə gərək var? - Gülüsüm xala bu dəfə səsinin tonunu qaldırdı.
- Gülüsüm xanım, insana mehribanlıq, qayğı, diqqət, nəvaziş, sevgi gərəkdir. Qızım bunların heç birisini sizin evdə görməyib.
- Bunlar hamısı ağ yalandır! Bir olan Allah şahiddir ki, mən gəlinlərimi heç zaman bir-birindən fərqləndirməmişəm. Mən onlara qayınana deyil, ana olmuşam. Əgər qızınız bunu inkar edirsə, bunun ancaq bir adı var: Nankorluq! Mən bir ana olaraq qızınızın ailə daxilində yerli-yersiz yaratdığı söz-söhbətlərin, dedi-qoduların, Rənaya qarşı etdiyi haqsız hərəkətlərin, paxıllığın, onun barəsində yaydığı iftiraların, ərinə qarşı səmimi olmadığının, ona dəfələrlə yalan söylədiyinin şahidi olmuşam. Amma mən bütün bunları görməməzliyə vururdum. Aynura dəfələrlə bir ana kimi, öyüd-nəsihətlər vermişəm. Mən ailədə həmişə sülh yaratmağa çalışmışam. Məncə, qızınızda azca da olsa, insaf, mürüvvət, ya da ki, vicdan varsa, söylədiklərimi inkar edə bilməz. Hətta, iş o yerə çatdı ki, qızınız nəvəmi, Rənanın kiçik oğlunu zəhərləyib öldürmək istədi. Mən bunu bildim, amma ailədə kimsəyə zərər gəlməsin, qonum-qonşu bunları eşidib, duymasın deyə susdum. Mən bu sirri hər kəsdən gizlətdim, hətta doğma oğlumdan belə. Məni buna deməyə indi siz məcbur etdiniz.
- Söylədikləriniz ağ yalandır! Siz qızıma bohtan atırsınız! Mənim qızım elə iş tutmaz! - Kifayət arvad yenidən səsini Gülüsüm xalanın üstünə qaldırdı.
- Ana, görürsən bunları, indi məni qatil olmaqda suçlayırlar. Mən sənə deyirdim. Bunlar mənim başıma açmadığı oyunlar qalmadı. O evdə yaşadığım hər gün mənə cəhənnəm əzabı olub. Övladım olmur deyə, mənə gün verib, işıq vermirdilər. Bax, budur hamınızın yanında deyirəm, mən bir də o evə qayıtmayacağam! Bundan sonrakı ömrümü orada çürüdə

bilmərəm. Mən şikəstə baxıcılıq, qulluqçuluq etməyəcəyəm! Sizinlə birdəfəlik qurtardım. Məhkəməyə ərizə verib, Anardan boşanacağam!Sizinki ilə bizimki qurtardı! - Aynur çəkinmədən, utanıb-qızarmadan Gülüsüm xalanın üzünə söylədi.

- Qızım, sən nə danışırsan? Nə boşanmaq?! Ağlını başına topla! Belə sözü bir də dilinə gətirmə! - Gülüsüm xalanı təəccüb bürüdü.

- Mənim qərarım qətidir. Boşanacağam, vəssalam! Gedin, oğlunuza elə beləcə də söyləyin! Sizin oğlunuzla bir də məhkəmədə qarşılaşacağıq! - Aynur son sözünü dedi.

- Bundan sonra mənim sənə daha söyləyəcək sözüm qalmadı. Sənin necə qırmızısifət, həyasızın birisi olduğunu indi daha aydın gördüm. Allah bizi sənin bundan sonrakı şər-xətalarından qorusun! - Gülüsüm xala daha heç bir söz demədən, oradan birbaş evə gəldi.

Və Aynurun dediklərini oğluna söylədi. Anasının bu xəbərindən Anar çox pərişan oldu. Xeyli fikrə getdi. Susdu. İçində indiyə qədər tanımadığı, on ildən artıq bir yastığa baş qoyduğu Aynura qarşı güclü bir nifrət vulkanı qaynamağa başladı. Amma bu vulkanın nə vaxt bayıra püskürəcəyi kimsəyə bəlli deyildi. İki gün Anar çörək yemədi. Rəna uşaqlarını da öyrətdi ki, gedib əmilərindən çörək yeməsini xahiş etsinlər. Yenə də olmadı. Anar kimsəni dinləmək belə istəmirdi. Anası da dəfələrlə təkid etdi. Amma bütün səylər nəticəsiz qaldı.

Üçüncü gün Rəna daha dözə bilməyib qaynına dedi:

- Anar, əgər sən çörək yeməsən, mən də bu evdə heç kimə yemək verməyəcəyəm. Uşaqları da ac saxlayacağam. İndi özün bil. Bəs qardaşın gedəndə, bizi sənə əmanət etmişdi. Əmanətə beləmi sahib çıxırlar? Anar, son dəfə sənə yalvarıram. Sən mənim canım, yeməyini ye! Haqsız yerə özünü üzüb həlak etmə! Sənin kimi adamın qədrini bilməyənin, sən niyə bilməlisən ki?!

- Gəlinbacı, niyə canına and verdin mənə. Bilirsən ki, indi sənin canının sağlığı bu evdə hamımız üçün çox dəyərlidir. Mən o cana xətər gəlməsini əsla istəmərəm. Sənin xətrini nə qədər istədiyimi bir olan Allah bilir. İnan ki, bu anddan keçə bilmərəm. İndi nəyin varsa, gətir yeyim, - deyə Anar gülərək qardaşının kiçik oğlunu çağırıb qucağında oturtdu...

Bir aydan sonra məhkəmədən Anara boşanma haqqında bildiriş gəldi. O, əvvəlcə məhkəməyə getməməyi qərara almışdı, ancaq heç olmasa son dəfə Aynura deyəcək sözləri xatırlayıb, əvvəlki fikrindən daşındı.

Məhkəmə boyunca Anar dinib, danışmadı. Amma sonda hakim üzünü Anara tutub soruşdu:

- Anar Fərəc oğlu Həsənov, son olaraq siz də nəsə demək istəyirsinizmi?

- Bəli, möhtərəm hakim. Son olaraq mənim də Aynura deyəcək son sözlərim var. Aynur, çox təəssüf edirəm ki, bu on ildə mən sənin kimi bir əfi ilanı tanımamışam. Sən bundan sonra həyatda heç zaman xoşbəxt olmayacaqsan! Çünki sən məni ən ağır günümdə yalqız buraxıb gedirsən. Məni belə bir gündə buraxdığın üçün Allah sənə lənət eləsin! Sən onu da bilməzsən ki, lənət dünyada ən ağır sözdür. Amma sən həqiqətən də bu sözə layiqsən. Sən xoş günlərin adamı imişsən. Səni o bizi Yaradana tapşırıram! Get, Allah cəzanı versin! İnşallah! Yaxınımda olsaydın, üzünə də tüpürərdim,- deyə əsəbindən Anarın əlləri titrədi.

Boşanma məhkəməsindən iki ay ötmüşdü. Bir axşam Anargil xəbərlərə baxırdılar. Xəbərçi Nabran yolunda iki minik maşınının toquşması nəticəsində ağır yol qəza hadisəsi baş verdiyini söylədi. Qəza nəticəsində iki nəfərin öldüyünü, iki nəfərin də ağır yaralandığını bildirdi. O, ölənlərin haradan olduqlarını və adlarını dedikdə, evdəkilərin bir andaca nitqi tutuldu. Ölənlərdən biri Aynur Rəşid qızı Muradova idi. O birinin də adı və familiyası Anara tanış gəlirdi. Hə, bu o idi,

Aynurun həkimi. Aynurun uşağı olması üçün onu müalicə edən həkim.

Aynur Anardan boşandıqdan sonra, onu müalicə edən həkim ilə isti münasibət yaradaraq, onunla mütəmadi görüşürlərmiş. Bu dəfə onlar bir həftəliyə Nabrana istirahətə gedirmişlər.

- Ey, hər şeyə qadir olan, Rəbbim! Sən həqiqətən də böyüksən, qüdrət və kəramət sahibisən. Sən kimsənin haqqını kimsədə qoymursan. Min şükürlər olsun Sənin rəhminə! Ey məzlumların himayədarı, Rəbbim. Biçarə bəndənin səsini eşitdiyin üçün Sənə şükürlər olsun!  Sən həqiqətən də zalımların, yolunu azmışların, pis niyyətli insanların, fitnə-fəsad törədənlərin, küfr və böyük günah sahibi olanların elə bu dünyada da layiqli cəzalarını verirsən. Amma bu bəzi bədxah insanlara yenə də ibrət dərsi olmur. Mən bu hadisəyə sevinmirəm. Əksinə, yanlış yolda olan bir insanın bütün öyüd-nəsihətlərə baxmayaraq, doğru yola qayıtmadığına görə üzülürəm. Sən bütün yolunu azmışları doğru-düzgün yola, haqqın yoluna hidayət et, ya Rəbbim! - deyə Anar əllərini qaldırıb Tanrıya şükür etdi.

Bundan sonra Anarın qəlbini yandıran atəşin yerində, bir sərinlik, yüngüllük və  məmnunluq hissi yarandı.

**21.06.2013**

## Quru çörək

(hekayə)

Azad müəllim sinif otağına daxil olub, uşaqlarla salamlaşdıqdan sonra şagirdlərin dərsə davamiyyətini yoxladı. Zöhrə İsmayılova bu gün də dərsə gəlməmişdi. Bu artıq üçüncü dəfə idi ki, Zöhrə Azad müəllimin dərsində iştirak etmirdi. O, üzünü sinif nümayəndəsinə tutub soruşdu:

- Asəf, Zöhrə bu gün də dərsə gəlməyib, səbəbi nədir?
- Müəllim, bilmirik.
- Necə yəni bilmirik! Zöhrə sizin sinif yoldaşınız deyilmi? Niyə onunla maraqlanmırsınız? Keçən dəfə də dərsə gəlməmişdi. Uzaq olsun, bəlkə başına nəsə gəlib?! Bəs sinif rəhbəriniz buna nə deyir?

- Müəllim, Zöhrə son zamanlar sinif yoldaşlarından uzaq gəzməyə çalışırdı. O, bizə əvvəlkitək yaxınlıq etmir, uşaqlara nədənsə qaynayıb-qarışmırdı. Səbəbini də soruşduq, ancaq bizə heç nə demədi. - Asəf günahkarcasına dilləndi.
- Yaxşı, mən sinif rəhbərinizlə bu barədə söhbət edərəm. Zöhrə kimi çalışqan, tərbiyəli, ağıllı, zəkalı və nəzakətli bir şagirdin dərsə bir neçə gün gəlməməsi hamını narahat etməliydi. Belə bir şagirdin dərsdən yayınmasına əsla yol vermək olmaz. - Azad müəllim şagirdindən ötrü narahat oldu.

Həm dərslərini yaxşı oxuduğuna görə, həm də intizamlı şagird olduğu üçün Azad müəllim Zöhrənin xətrini çox istəyirdi. Dərsdən sonra o, Zöhrənin sinif rəhbəri ilə görüşdü və onunla intizamlı şagirdi barədə söhbət etdi. Sinif rəhbəri Fərhad müəllim dedi:
- Azad müəllim, düzü Zöhrənin son zamanlarda sinif yoldaşlarına qarşı davranışı məni də narahat etməyə başlamışdı. Əvvəllər yoldaşlarından bircə dəqiqə belə ayrı qala bilməyən Zöhrə, nədənsə son vaxtlar yoldaşlarından ayrı gəzərək, özünə qapanmışdı. Onunla bir neçə dəfə fərdi söhbət apardım. Amma mənə də heç bir şey söyləmədi, səbəbini mənə də anlatmadı. Sadəcə, başını aşağı dikib susdu.
- Fərhad müəllim, Zöhrəgilin evində olmusunuzmu heç?
- Azad müəllim, düzünü deyim olmamışam.
- Deməli, Zöhrənin müşkül bir problemi var ki, yoldaşlarından kənar gəzməyə çalışır. Fərhad müəllim, Zöhrənin ev ünvanını mənə verə bilərsinizmi? Mən onunla özüm maraqlanacağam. Bəlkə, ona bir köməyim dəydi. Oxuyan şagirdi diqqətdən kənarda saxlamaq, onu özbaşına, problemlərlə baş-başa buraxmaq düzgün olmaz.
- Haqlısan, Azad müəllim. Mən gərək bunun səbəbini nəyin bahasına olursa-olsun ondan öyrənəydim. Zöhrənin ev ünvanını sizə verərəm, sadəcə şəxsi işinə baxmaq lazım olacaq. Bir neçə dəqiqədən sonra onun ev ünvanını sizə

verəcəyəm, - deyə Fərhad müəllim Zöhrənin şəxsi işinə baxmaq üçün direktorun otağına getdi.

Azad müəllimin Zöhrəyə qarşı rəğbət hissinin artmasının kiçicik bir tarixçəsi vardı. Azad müəllim məktəbə təzə gəlmişdi. Məktəb direktoru ona “açıq dərs” salmışdı. O, hələ şagirdləri yaxından tanımırdı. Adətən bəzi məktəb direktorları təzə gələn müəllimlərin bilik səviyyəsini yoxlamaq məqsədilə bu cür “açıq dərslər” təşkil edirdilər. Həmin açıq dərslərdə məktəb direktoru, tədris işləri üzrə direktor müavini, ixtisas müəllimi və digər fənn müəllimləri iştirak edirdilər. Həmin vaxt Zöhrənin dərs zamanı mövzunun geniş izahı, ağıllı mühakiməsi, verilən suallara dolğun və ətraflı cavablar verməsi dərsdə iştirak edən müəllimlərin hamısını xeyli təəccübləndirmişdi. Bundan sonra Azad müəllimin dərsi yüksək qiymətləndirilmişdi. O, şagirdini gələcəkdə savadlı bir həkim görmək istəyirdi. Zöhrənin biologiya və kimyadan hazırlıqlığı sinifdəki digər yoldaşlarından çox-çox fərqlənirdi. O, orta məktəb proqramda nəzərdə tutulan materialları tam mənimsəməklə yanaşı, əlavə kitablar oxumağı daha üstün tuturdu. Ona görə də Azad müəllim institutda keçdiyi materiallardan və əlavə kitablardan Zöhrəyə verərək, onun bu fənnələrə olan həvəsini daha da artıraraq, bilik dairəsinin genişlənməsinə kömək edirdi. Amma birdən-birə Zöhrənin ardıcıl dərs buraxması onu narahat etməyə bilməzdi.

- Azad müəllim, Zöhrənin ev ünvanını gətirdim, - deyə sinif rəhbəri Azad müəllimi xəyaldan ayıltdı.
- Sağ olun, Fərhad müəllim. Mən Zöhrəyə baş çəkib, dərsə niyə gəlmədiyinin səbəbini hökmən öyrənəcəyəm, - deyə Azad müəllim sinif rəhbərinin ona uzatdığı, çalışqan şagirdinin ev ünvanı olan kağız parçasını aldı.

Axşam tərəfi Azad müəllim məktəbdən çıxıb, şagirdinə baş çəkmək üçün sinif rəhbərinin ona verdiyi ünvana yollandı. Zöhrəgilin mənzili doqquzmərtəbəli binanın ikinci mərtəbəsində yerləşirdi. Azad müəllim üstündə 78 rəqəmi

yazılmış mənzilin qapısını döydü. Qapını Zöhrə özü açdı və müəllimini görcək təəccüblə, titrək səslə dilləndi:
- Azad müəllim?!
- Qızım, dərsə gəlmədiyinə görə narahat oldum. Ona görə sənə baş çəkməyi qərara aldım. De görüm, dərsə niyə gəlmirsən? Bir probleminmi var? Əgər varsa, məndən çəkinmə. Sən çalışqan şagirdsən, sənin dərs buraxmağına heç cür biganə qala bilməzdim.

Zöhrə susaraq başını aşağı dikdi. Bunu görən Azad müəllim gülərək əlavə etdi:
- Müəllimini içəri dəvət etməyəcəksənmi?
- Bağışlayın, müəllim. Təəccüb və həyəcandan özümü itirdim. Buyurun, keçin içəri. Xoş gəlmisiniz. - Zöhrə əvvəlcə tutuldu, nə edəcəyini bilmədi.

Azad müəllim otağa daxil oldu. İlk nəzərinə çarpan çarpayıda uzanmış hərəkətsiz qadın oldu. Zöhrə müəliminin anasına baxdığını görüb dedi:
- Anamdır. Bir ildir yatağa möhtacdır, qılçaları tutulub. Əvvəllər də tutulmuşdu, müalicə olunandan sonra yaxşılaşdı, durub gəzirdi. Həkim demişdi ki, anam hər il müalicə olunmalıdır. Amma bu dəfə...

Zöhrə sözünün gerisini gətirə bilmədi.
- Yaxşı, siz bu bir otaqlı mənzildə elə ikiniz yaşayırsınız? Bəs atan hardadır?
- Azad müəllim, zəhmət olmasa əyləşin, - deyə Zöhrə köhnə stulu müəlliminə tərəf çəkdi. - Atam beş il bundan öncə Rusiyətə getdi. Ondan sonra o, bizimlə ancaq bir il əlaqə saxladı. Sonra atamdan daha səs-soraq çıxmadı.
- Ananın vəziyyəti məlumdur. Bəs siz bütün bu illəri necə dolanırdınız? - Azad müəllim təəccüblə soruşdu.
- Dörd il idi ki, bizə Mahizər xalam baxırdı. Bizim bütün maddi məsrəflərimizi o, ödəyirdi. Anamın müalicəsini etdirdi və anam onun sayəsində ayağa qalxdı. Yeməyimizi, içməyimizi, pal-paltarımızın hamısını xalam alıb gətirirdi. Keçən il xalam

xərçəng xəstəliyindən dünyasını dəyişdi. Xalam rəhmətə gedəndən sonra, daha bizə kimsə kömək əlini uzatmadı.

- Qızım, bəs bütün bu qədər vaxtı niyə bizə bu barədə bir söz deməmisiniz. Heç olmasa, ya sinif rəhbərinizə, ya da mənə söyləyəydiniz. Bunun üçün bir çarə tapardıq.

- Müəllim, kimsəyə demək istəmədim. Onsuz da indi hər kəsin öz problemi var. Kimisə problemlərimizlə narahat etmək, kimsəyə yük olmaq istəmədik.

- Qızım, bilirsən ki, sinifdə ən çox sənin xətrini istəyirəm. Ona görə ki, sən ağıllısan, çalışqansan, bacarıqlısan, istedadlısan. Sənin qeyri-adi təfəkkürün var. Bundan əlavə, sən əxlaqlı və tərbiyəli şagirdlərimdənsən. Sənin kimi şagirdlərə hökmən kömək edilməlidir. Sənin kimi şagirdin dərsdən yayınmasına əsla yol vermək olmaz. Çünki sənin işıqlı gələcəyin var. Mən sənə özüm qədər güvənirəm. - Azad müəllimin gözü stolun üstündəki bir stəkan suya, bir parça quru çörəyə və qəndqabının içərisindəki qənd qırıqlarına sataşdı. - Zöhrə, qızım bəs bu qədər zamanı siz nə yeyib-içirdiniz? Əlbəttə, bu məsələdə ən böyük günah sinif rəhbərinin üzərinə düşür. Çünki aydın görünür ki, Fərhad müəllim bu günə kimi sizinlə heç maraqlanmayıb. Bu hamımızın qəbahətidir ki, sizə qarşı laqeyd olmuşuq.

Zöhrə susdu. “Demək, evdə dişə vurulası heç bir şey yoxdur” deyə Azad müəllim düşündü. Bu zaman bayaqdan bəri dinib-danışmayan Zöhrənin anası Fatimə dilləndi:

- Müəllim, arada qonşular bizə yemək verirlər. Onları da qınamaq olmur. İndi hər kəs öz hayındadır, hər kəs öz ailəsini necə dolandırmaq barəsində düşünür. Qızımın məktəbə getməməsinə bir ana kimi ən çox mən də üzülürəm, narahat oluram. Ayaqlarım tutsaydı, onu məktəbdən bircə gün də qalmağa qoymazdım. Hər hansı bir iş olsaydı, çalışıb qızımı korluq çəkməyə imkan verməzdim. Kimsənin minnətini götürməyi sevməyən, nəyə görəsə kimsənin qarşısında əyilməyi xoşlamayan insanlarıq biz. Amma görürəm ki, aclıq

və səfalət istər-istəməz insanın qürurunu, mənliyini alçaldır. Allah kimsəni yatağa möhtac eləməsin. İndi mən qızımın əlinə baxıram. Allah heç düşmənimi də bizim vəziyyətimizə salmasın. Zöhrə evdə həmişə sizdən bəhs edir. Sizin qayğıkeşliyinizdən, xeyirxahlığınızdan, insanlığınızdan ağızdolusu danışır. O, mənə şagirdlərinizi necə sevdiyinizi də söyləyib.

Azad müəllim ayağa qalxıb stolun üstündəki çörəyi əlinə götürdü:

- Bu ki köhnə çörəkdir. Bunu yemək olmaz - dedi.
- Müəllim, bunu qızım ...
- Ana! - Zöhrə anasına sözünü tamamlamağa imkan vermədi.
- Niyə deməyim, qızım? Qoy hamı bilsin ki, bu məmləkətdə bizim kimilər az deyil. Burada utanılası nə var ki?! Qoy bizim kimilərin - aylarla ət üzünə həsrət qalanların, yavan da olsa bir parça quru çörəyə möhtac olanların əvəzinə, hər gün itinə təzə ət alıb yedizdirən harınlaşmış məmurlar, yalnız özünü düşünən insanlar görüb utansınlar, xəcalət çəksinlər! - deyə Ana səsinin tonunu azca yüksəltdi. - Müəllim, bir neçə gündür ki, qızımın ayaqqabısı cırıldığından utanır, məktəbə gələ bilmir. Neçə vaxtıydı ki, rəhmətlik xalası alan ayaqqabısını geyinib gedirdi. Əlinizə götürdüyünüz o quru çörəyi də, qızım hər gün qonşuların bloka qoyduğu köhnə çörəklərdən yığıb gətirir.

Azad müəllimin şahidi olduğu mənzərəyə inanmağı gəlmirdi, onu dəhşət bürümüşdü. O, bir müddət susdu, həqiqəti söyləyən anaya nə deyəcəyini bilmədi. Amma ani olaraq:

- Zöhrə, qızım mən bu dəqiqə gəlirəm - dedi.

O, evdən çıxarkən Zöhrənin cırılmış ayaqqabısının da ölçüsünü götürməyi unutmadı. Azad müəllim ən yaxındakı marketə özünü saldı. Yemək üçün iki-üç günlük ərzaq və bir də Zöhrəyə təzə bir ayaqqabı alaraq tez də geri döndü. O, aldığı şeyləri stolun üstünə qoyaraq üzünü şagirdinə tutub dedi:

- Zöhrə, al bunları geyin görüm, ayağına olacaqmı?
- Müəllim, bu nə zəhmətdir çəkmisiniz, - deyə o, utana-utana müəlliminin ona tərəf uzatdığı ayaqqabını alıb, ayağına geyindi. Ayaqqabı tam Zöhrənin ölçüsündə idi.

Qız təzə ayaqqabısına baxandan sonra üzündə bir təbəssüm yarandı və müəllimınə təşəkkür etdi.

- Sabahdan məktəbə gəlirsən, eşitdinmi? - Azad müəllim Zöhrəyə ciddi tapşırdı.
- Yaxşı, müəllim, gələcəyəm. Onsuz da həm sizin üçün, həm də uşaqlar üçün çox darıxmışam - Zöhrə gülərək müəllimini arxayın etdi.
- Allah sizin köməyiniz olsun, Azad müəllim. Siz olmasaydınız... - qəhər Fatiməni böğdu, sözlər boğazında ilişib qaldı, göz yaşları yanağına süzüldü.
- Siz narahat olmayın. Sizin müalicə məsələnizi də həll edəcəyəm. Mənim yaxşı imkanlı dostlarım və tələbə yoldaşlarım var. Onlarla birlikdə sizi müalicə etdirəcəyik. Mən indi gedirəm, Zöhrə, sabah məktəbə hökmən gəl, gözləyəcəyəm!
- Gələcəyəm, müəllim. Sizə necə təşəkkür edəcəyimi bilmirəm. Hər şey üçün çox sağ olun. Siz bu gün anamla mənə dünyaları bəxş etdiniz, - deyə Zöhrə kövrəldi.
- Yaxşı, yaxşı bəsdir. Bax, bu olmadı. Salamat qalın. Sabah görüşənədək! - Azad müəllim Zöhrəgili tərk etdi.

Azad müəllim vaxtilə şagirdi olmuş, indi isə tanınmış bir iş adamı olan Raufla əlaqə saxladı. Onlar görüş təyin etdilər. Ertəsi gün görüşdülər. Rauf orta məktəb müəllimini səmimiyyətlə qarşıladı. Azad müəllim orta məktəb xatirələrindən söhbət etdikdən sonra əsas mətləbə keçərək, Zöhrəgilin ailəsi barədə Raufa ətraflı məlumat verdi. O, bu ailəyə kömək edəcəyinə - həm Zöhrənin məktəb, həm də anasının müalicə xərclərini öz üzərinə götürəcəyinə söz verdi. Bundan sonra Azad müəllim rahat nəfəs aldı və keçmiş şagirdinə minnətdarlığını bildirdi.

Növbəti pedaqoji şurada məktəb direktoru yenə də əsas məsələləri bir kənara qoyub, söhbəti hərlədib-fırladıb sinif rəhbərlərinə şagirdlərdən qarşıdan gələn növbəti bayram üçün pul yığmağı tapşırdı. Bu dəfə Azad müəllim daha dözə bilməyib, məktəb direktoruna belə bir sual ünvanladı:

- Firəngiz xanım, deyin görüm, hər dəfə şagirdlərdən yığılan pullar hara gedir, hara sərf olunur?!
- Necə yəni hara gedir, Azad müəllim? Guya yığılan pulların hara getdiyini bilmirsiniz. Pulların bir qismi məktəbə gələn yoxlama nümayəndələrinə, bir qismi də "yuxarılara" çatır.
- Yaxşı, sizinlə razılaşdıq. Elə isə deyə bilərsinizmi ki, məktəbimizdə nə qədər uşağın maddi köməyə ehtiyacı var? Və həmin köməyə ehtiyacı olan uşaqlara son dəfə nə vaxt yardım edilib?
- Azad müəllim, siz mənimlə müstəntiq kimi danışırsınız. Sözlərinizə diqqət edin! Siz deyəsən, sərhədi aşırsınız.
- Sərhədi aşan mən deyiləm, sərhədi aşan bu pulları sizdən tələb edən insanlardır. Çünki onlar hansı şagirdin maddi ehtiyac içində yaşadığından xəbərsizdirlər. Mənim belə bir təklifim var. Birinci təklifim ondan ibarətdir ki, bundan sonra məktəbdə şagirdlərdən pul yığılmasına birdəfəlik son qoyulsun. Yox, əgər təklifimi nəzəzrə almayıb, yenidən pul yığılarsa, onda qoy həmin yığılan pullar məktəbimizdə təhsil alan maddi cəhhətdən imkansız şagirdlərə verilsin. Bununla biz onları daimi diqqətdə saxlamış olarıq və həmin şagirdlər həyatda köməksiz, yalqız olmadıqlarını başa düşərlər. Bu cür şagirdlərə bizim tərəfimizdən ən əsası insan sevgisi, insan qayğısı, insan nəvazişi göstərilməlidir. Bu hər şeydən öncə bizim insanlıq borcumuzdur. Bu gün məktəbə geyinib gəlməyə ayaqqabısı olmayan, evində xəstə valideynləri olan, axşama yalnız bir parça quru çörəyi və suyu olan şagirdlərimiz var. Amma bütün bunlardan heç birimizin xəbəri yoxdur. Əziz həmkarlarım, bu barədə düşünmək lazımdır! Kömək ediləsi olsa, ilk öncə belə şagirdlərə kömək edilməlidir, Firəngiz

xanım. Onsuz da yeni təyin olunmuş nazirimiz də məktəblərdə pulyığma kompaniyasının əleyhinədir və buna qarşı ciddi tədbirlər görəcəyinə söz verib. Bütün bunları bilə-bilə yenə də köhnə əməllərinizdən əl çəkmək istəmirsiniz. Məncə, bunun sonu heç də yaxşı olmayacaq! - Azad müəllim sözünü bitirib, sakitcə yerində əyləşdi.

Azad müəllimin çıxışından sonra kimsə dinib-danışmadı. Çünki onun çıxışı əksər müəllimlərin ürəyindən idi. Amma məktəbin direktoru Firəngiz xanıma çırtma vursaydın qanı çıxardı. Onun deməyə sözü qalmamışdı. Firəngiz xanım əsəbindən alnını əli ilə ovuşduraraq, tərs-tərs Azad müəllimə baxmaqdan başqa çarəsi qalmamışdı. Azad müəllim isə oturduğu yerindən sanki qurbağa gölünə daş atılmış bu sakitliyi öz-özünə qımışaraq seyr edirdi...

**23.07.2013**

## Qonşu tikəsi

(hekayə)

Biz ailədə səkkiz uşaqdıq; üç qardaş, beş bacı. Atam halal adamdı. Halallığına görə də, kənd camaatı arasında hörməti vardı. Atam bizi ancaq zəhmətilə qazandığı çörəyi yedizdirərdi. O, bizə də həmişə süfrə başında halal çörək yeməyi tövsiyə edərdi. Kənd arasında uşaqlarla dalaşanda, böyüklər araya girib, bizi sakitləşdirən zaman deyirdilər: “İslam kişinin oğlu heç zaman nalayiq iş tutmaz, çünki o, halal kişinin oğludur.” Buna görə də biz atamızla həmişə fəxr edir, onunla qürur duyurduq. Atam ev ustası idi. Kəndimizdəki əksər evləri

o, tikmişdi. Hər bir evi tikib qurtardıqdan sonra, ev sahibinə zəhmətini halal edər, əvəzində o da zəhmətinin haqqının halal edilməsini ev sahibindən rica edərdi. Onlar da gülərək səmimi qəlbdən: “Bu nə sözdür, usta? Ən böyük zəhməti sən çəkirsən bizim üçün. Bizləri ev-eşik sahibi edirsən, yuvasız insanlara yuva qurursan, onlara sevinc, fərəh bəxş edirsən. Bundan da savab iş nə ola bilər ki dünyada?! Haqqımız sənə ana südü kimi halal olsun, İslam kişi! Allah səni bu el-obadan əksik eləməsin! İnşallah!”

Atam həqiqətən də işinin əsl sənətkarı idi. Sənətkarın ən əsas xüsusiyyəti ilk öncə onun gördüyü işin səliqəli olmasıdır. Atam da bütün işlərini səliqə ilə görməyi sevərdi. O, həmişə deyərdi ki, usta işini qurtarıb gedir. Amma onun gördüyü iş daim adamların gözünün önündə olur. Ustanın gördüyü işlərə yüzlərlə, minlərlə göz baxır, onları nəzərdən keçirir. Kiçicik buraxılmış bir səhv belə adamların nəzərindən yayınmır. Ona görə də atam həmişə çalışardı ki, gördüyü işlərdə cüzi də olsa, yanlışlığa yol verməsin, ondan sonra kimsə ağzını köndələn qoyub arxasınca danışmasın. Bəzi ev sahibləri atamın gördüyü işləri bəyəndiklərinə görə, ona əlavə də pul vermək istəyirdilər. Amma atam bunları heç vaxt qəbul etməzdi. Imkanı olmayanlara da həmişə güzəştə gedərdi. Bəzən elə də olurdu ki, atam evi tikib başa gətirəndən sonra, ev sahibi hazırda pulunun olmadığını deyib, borcunu bir neçə aya verəcəyini vəd edərdi. Atam buna da razı olurdu. O, zəhmət haqqına görə kimsəni heç vaxt sıxışdırmazdı. Ona görə də, kənddə hamı atama hörmət edir, ona sayğı göstərirdilər. Atam tikdiyi evlərin həm daş hörgüsünü götürər, həm də üstünü bağlardı. Pula ehtiyacı olanlar həmişə borca atamın üstünə gələrdilər. Atam olan yerdən qapımızdan kimsəni əliboş qaytarmazdı.

Bir dəfə əri rəhmətə getmiş, himayəsində üç azyaşlı uşağı qalmış Hənifə xala borc pul üçün atamın yanına gələrək utana-utana:

- Usta, düzü, üzüm gəlmir sizə söyləməyə, çünki sizin də bir çətən külfətiniz var. Kiçik oğlum, Fərid xəstədir, ona həkimin yazdığı dərmanları almaq üçün mənə otuz manat pul lazımdır. Üzüm sizdən başqa kimsəyə gəlmədi - dedi.
- Bu nə sözdür, Hənifə bacı, biz sizə də əl tutmayandan sonra, bəs kimə kömək edəsiyik ki? Əksinə, mən sizin qarşınızda utanıram ki, çoxdandır uşaqların necə dolandıqlarından xəbərsizəm. İş-güc başımı elə qatıbdır ki, bəzən özümküləri belə unuduram. Hənifə bacı, al bu əlli manatı. Bundan sonra nə ehtiyacın olanda başqasının qapısına getməyin, birbaş bura gəlin! Qapım hər zaman üzünüzə açıqdır.
- Usta, Allah köməyiniz olsun! Allah qazancınıza bərəkət versin! Bu pulu bir həftəyə qaytaracağam, - deyə Hənifə xalanın gözlərində sevinc və ümid qığılcımları parladı.
- Hənifə bacı, siz nə deyirsiniz?! Mən bu pulu sizə borc olaraq vermədim ki! Siz heç narahat olmayın. Mən bundan sonra sizə imkan daxilində kömək edəcəyəm. - Atam təbəssümlə Hənifə xalanı yola saldı.
- Usta, sizə necə təşəkkür edəcəyimi bilmirəm. Allah sizi övladlarınızın üstündən, ailənizin başından əskik etməsin! Allah-təala nə muradınız varsa, versin! İnşallah! - Hənifə xala atama dua edə-edə həyətdən çıxdı.

Atam bizə həm də onu dönə-dönə tapşırmışdı ki, heç bir vaxt başqa yerdə, hətta qonşuda belə çörək yeməyək. Kimsənin qarşısında heç bir zaman üzükölgəli olmayaq. Dörd-beş yaşında olduğumuzdan bu sözün fərqinə o qədər də varmırdıq. Bu yaşdakı uşaqlar bir-birləri ilə oynayır, birimiz digər yoldaşımızın həyətinə, evinə gedər, gizlənpaç oynayar, acanda isə fərq etməz, ya mənim anam, ya da yoldaşımın anası yeməyə bizə çörək verərdilər. Biz də ayaqüstü yeməyimizi yeyib, yenidən oyunumuza davam edərdik.

Atam evdə bir qayda da qoymuşdu. Yemək vaxtı hamı birlikdə süfrə başında olmalı idi. Atam süfrəyə oturmamış,

kimsə çörək yeməyə cürət etməzdi,  buna həm də anam imkan verməzdi.

Bir dəfə mən qonşumuz Arazla onlarda gizlənpaç oynayırdıq. Günorta vaxtı idi. Bu vaxt Arazın anası Səriyyə xala əlində iki dürmək gətirib  hərəmizə birini verərək:

- Ac olarsınız, yeyin, sonra yenə də oynayarsınız - dedi.

Arazla mən Səriyyə xalanın bizə verdiyi dürümləri yedikdən sonra, oynumuza davam etdik. Bir də eşitdim ki, anam məni günorta yeməyinə çağırır. Mən tez evimizə qaçdım. Məndən başqa hamı süfrə başında idi. Atam da yerini tutmuşdu. Mən əllərimi yuyub, süfrə başında əyləşdim. Amma iştahım olmadığından əlimi yeməyə yavaş-yavaş, könülsüz uzadırdım. Çünki ac deyildim, Səriyyə xalanın verdiyi dürüm məni yamanca tutmuşdu. Mənim zəif yediyimi görən atam ucadan üstümə qışqırdı:

- Rəsul, bu necə yeməkdir? Səhərdən fikrim səndədir, sanki sən yeməyi deyil, yemək səni yeyir.

- Ata, iştahım yoxdur, ona görə belə yeyirəm - dedim.

- Necə bəyəm?! Günorta yeməyini yemisən?! - Atam təəccüblə soruşdu.

- Xeyr, ata. Mən nahar yeməyini yeməmişəm. Amma bir az bundan öncə, Arazgildə oynayarkən Səriyyə xala hər birimizə dürmək verdi.

- Sən də həmin dürməyi yedin, eləmi?! - Atam əsəbi halda qışqırdı.

- Bəli, yedim, ata, - deyə günahkar adam kimi başımı aşağı dikdim.

- Bəs mən sizə söyləməmişdim ki, heç bir vaxt kənar yerdə çörək yeməyin! Demək, atanızın dediyi sözü qulaqardına vurursunuz, eləmi? İndi zəhmət çəkib, ayağa qalxırsan, həyətə düşüb qonşuda yediyin yeməyi geri qaytarırsan! Cəld ol! - Atam yenə də ucadan üstümə qışqırdı.

Mən dinməz-söyləməz yerimdən qalxıb həyətə düşdüm. Sonra əlimi boğazıma salıb, Arazgildə yediyim dürməyi geri qaytardım...

Həyatım boyu atamın mənə vermiş olduğu bu dərsi heç unutmadım.

**21.11.2013**

# Xeyirxah düşmən

( hekayə)

Nurəddin əsgərilikdən sonra Ukraynanın Krivoy-Roq şəhərində qalıb milis sistemində işə düzəldi. Həmin işdə o, kapitan rütbəsinə qədər yüksəldi. Qarabağ savaşı başlayanda, başqaları kimi, onu da Vətən sevgisi, torpaq namusu qəlbən narahat etməyə bilməzdi. Ona görə də o, xalqının belə bir ağır günündə düşmənlə savaşmaq, torpaqlarımızı erməni dığalarının tapdağından qorumaq üçün Vətənə qayıtdı. O vaxt polis işçilərini növbə ilə ayrı-ayrı

döyüş bölgələrinə göndərirdilər. İndi kapitan Nurəddin də bir qrup polis yoldaşları ilə xəyanətkar düşmənlə üz-üzə dayanmışdılar...

Vaxtilə çörəyimizi yeyən, suyumuzu içən, xəyanətləri ucbatından bir çox ölkələrdən qovulmalarına baxmayaraq, xeyirxahlıq göstərib, qucaq açdığımız, yaşamaq üçün torpağımızdan pay verdiyimiz sayca kiçik, ancaq iddiası çox böyük olan bu millət indi başımıza bəla olub. Onlar bizimlə qonşu olandan bəri xalqımızın rahatlığı pozulub. Bu dığalar “ağaları”nın himayədarlığı sayəsində bizə heç bir millətin edə bilməyəcəyi xəyanəti etdilər. Xəyanəti isə heç kəs bağışlamır, hətta tarixin özü belə...

***

Nurəddin hələ Krivoy-Roqda işləyən zaman Qafqazdan olan neçə-neçə insanlara kömək əlini uzatmış, onlara himayədarlıq etmişdi. Onların arasında gürcü də vardı, erməni də. Buna görə də, bu şəhərdə milis kapitanı Nurəddinin xətrini çox istəyirdilər. İşləri çətinə düşən hər bir qafqazlı ümid yeri bildikləri Nurəddinin yanına gəlib, məsləhət alır, onlara kömək etməyini xahiş edirdilər. Polis kapitanı isə işlədiyi müddətdə millətindən asılı olmayaraq, heç kimsəyə haqsızlıq etmədi, kimsəni nahaq yerə incitmədi. Ona görə də Nurəddin Krivoy-Roqu tərk edib Azərbaycana qayıdanda, onu yola salanlar arasında, hətta, göz yaşlarını saxlaya bilməyənlər də olmuşdu...

***

1992-ci ilin may ayında Nurəddin bir qrup polis həmkarları ilə birlikdə Şuşa yaxınlığındakı Böyük Kirs dağında növbə çəkirdilər. Neçə gün idi ki, aşağıdakı döyüş yoldaşlarından əlaqə kəsilmişdi. Onların ərzaqları tükənmişdi, içməyə bir

qurtum su belə qalmamışdı. Onlar bu dağın başında sanki unudulmuşdular. Uşaqların bəzisi “Maksim” pulemyotunun suyunu içmək məcburiyyətində qalmışdı. Nurəddin döyüşçü dostlarının bu durumuna tab gətirə bilməyib, dağdan aşağı enməyə qərar verdi. O, yoldaşlarına üzünü tutub dedi:

- Uşaqlar, görünür bizə kömək gəlməyəcək. Biz burada ac-susuz oturub kimsəni gözləyəcək halımız yoxdur. Mən aşağı enib, hardan olursa-olsun sizlərə yemək və su gətirəcəyəm. Siz isə ayıq-sayıq olun. Düşmən kəşfiyyatı buraya hər an gələ bilər.

Nurəddin uşaqlarla sağollaşaraq, durduqları mövqedən aşağı enməyə başladı. O, təxminən uşaqlardan 450-500 metr aralanmışdı ki, düşmən pusqusuna düşdü. Hər tərəfdən Nurəddinin üstünə güllə yağışı yağmağa başladı. Ermənilər sanki onu gözləyirlərmiş. O, cəld iri bir daşın arxasına keçib, ermənilərlə tək döyüşə girdi. O, açılan atəşlərdən təxmini müəyyən etdi ki, onlar altı nəfərdilər. Kapitan sərrast atəşiylə dığaların ikisini susdura bildi. Amma avtomatın gülləri qurtarmaq üzrə idi. Düşmən yavaş-yavaş Nurəddini dövrəyə almağa çalışırdı. Cəsur döyüşçü düşmənin bu hiyləsini anladı. Onlar Nurəddini əsir götürmək istəyirdilər. Nəhayət, avtomatın gülləri qurtardı. Nurəddin əl atıb qoburdan tapançasını çıxardı və yenidən atəş açmağa başladı. O, atdıqca gülləri sayırdı. “Bu da sonuncu güllə!” deyə Nurəddin döyüş yoldaşlarını, evdəkilərini - səkkiz yaşlı bircə oğlunu, həyat yoldaşını, atasını, anasını, bacısını, qardaşını bir-bir xəyalından keçirdi. O, ölümdən qorxmurdu, sadəcə yarımçıq qalmış, gələcəkdə bu Vətənə, bu millətə daha çox xeyir verə biləcək arzularını həyata keçirə bilməyəcəyi üçün heyfsilənirdi. O, son gülləsi qalmış tapançasını gicgahına dayadı, ancaq nə düşündüsə, fikrindən tez də vaz keçdi. “Aha, məndə hələ bir qumbara da var!” deyə cəsur döyüşçünün çöhrəsində təbəssüm cilvələndi. “Nə qədər

düşmən öldürsəm, ruhum bir o qədər rahat olar. Bu sümsük dığalara təslim olmaqdansa...” deyə kapitan düşündü.

Düşmənlər də Nurəddinin gülləsinin bitdiyini bilirdilər. Ona görə də onlar gizləndikləri yerdən çıxaraq, əllərindəki avtomatları hazır vəziyyətdə Nurəddinə tərəf addımladılar. Nurəddin artıq nə edəcəyini götür-qoy etmişdi. Dığalardan üçü bir tərəfdən, yəni qarşı və sol tərəfdən, o birisi isə tək sağ tərəfdən ona yaxınlaşırdı. Kapitan qumbaranın kilini çıxarıb, sol əlində hazır saxladı. O, sağ tərəfdən ona qarşı tək gələn dığanı tapançasının sonuncu gülləsi ilə vurmaq, sonra da qumbaranı digər üç düşmənin üstünə atmağı planlaşdırmışdı. Amma o, istəyirdi ki, üç nəfər erməni ona daha da yaxınlaşsın. Elə də oldu. Nurəddin ilk oncə, sağ tərəfdən gələn erməni dığasını sonuncu güllə ilə alnından vurdu və sol əlindəki qumbaranı isə qalan üç erməninin üstünə atdı. Bu zaman həm güllə, həm də güclü partlayış səsi eşidildi. Ətrafı toz-duman bürüdü. Sonra araya ölüm sükutu çökdü. Hər kəs - həm düşmənlər, həm də cəsur kapitan yerdə sərilib qalmışdılar. Bu vaxt hardansa üç azərbaycanlı kəşfiyyatçısı peyda oldu. Onlar düşmənlərin ölüb-ölmədiyini yoxladıqdan sonra Nurəddinə yaxınlaşdılar. Nurəddin al-qan içində idi. Amma o, sağ idi. Kəşfiyyatçılar tez Nurəddini götürüb, aşağı enməyə başladılar. Az keçməmiş onlar da düşmən pusqusuna düşdülər. Atışma başladı. Kəşfiyyatçılar yaralı Nurəddini böyük bir daşın arxasında gizlədib, özləri ermənilərlə qeyri-bərabər döyüşə atıldılar. Amma bu döyüşdə cəsur kəşfiyyatçılarımızın üçü də şəhid oldu, ağır yaralı Nurəddini isə ermənilər əsir götürdülər...

Həmin vaxt Nail Kazımov batalyonu ilə uşaqlara köməyə getməli idi. Amma o, gecəykən 120 nəfərlik batalyonunu uşaqlara kömək etməyə aparmaq əvəzinə, geriyə çəkdi. Bu, açıq-aşkar xəyanət idi. O yerdən ki, bizimkiləri o, müdafiə edəcəkdi, həmin istiqamətdən gözlənilmədən ermənilər

hücum etdilər. Düzdür, sonradan xəyanətkar layiqli cəzasını aldı. Amma onun xəyanəti nəticəsində say-seçmə oğullarımız şəhid oldular. Elə alınmaz qala olan Şuşa da həmin vaxt düşmən tərəfindən işğal olundu...

***

Nurəddin gözlərini açanda, başının üstündə tanımadığı, yad dildə danışan adamları gördü. O, anladı ki, deyəsən onu əsir götürüblər. Bədənində şiddətli ağrılar vardı. Bu zaman bir nəfər başını ona tərəf yaxınlaşdırıb dedi:

- Nurik, mənəm, Edik Poqosyan! Tanıdınmı?!

Ağrıdan Nurəddinin başı hərlənirdi, gözləri tor görürdü. Onun kim olduğunu hardan tanıyacaqdı. O, güclə eşidiləcək səslə mızıldadı:

- Kimsəni tanımaq halım yoxdur. Deyin görüm, mən hardayam?

- Nurik, narahat olma. Yaxşı ki, mənə rast gəldin, yoxsa səni öldürəcəkdilər. Sən mənə indi hava, su kimi lazımsan. Düzdür, yaraların çox ağırdır. Həkimin dediyinə görə güllə boyun nahiyəndən girib, ağ ciyərini zədələyərək sağ qabırğanda ilişib qalıb. Bundan əlavə, bədənində də çoxlu sayda qumbara qəlpələri var. Amma həkimə yalvar-yaxar etmişəm ki, səni hələlik ölməyə qoymasın. Çünki sən mənə indi çox lazımsan. Oğlum Aşot sizinkilərin əlindədir. Səni onunla dəyişəcəyik. Müalicəni isə öz xəstəxananızda alarsan. Burada səni onsuz da yaxşı əməliyyat etməyəcəklər. Həkim dedi ki, möcüzə nəticəsində sağ qalmısan. Səni xəstəxanadan alıb, buraya gətirdim. Xəstəxanada oğlumla dəyişmək üçün yaralı azərbaycanlı axtarırdım. Təsadüfən səni gördüm və komandirdən səni mənə verməyi xahiş etdim. Onlar oğlumun sizinkilərin əlində olduğunu bildikləri üçün səni mənə verdilər, yoxsa

danışıqlarından məlum olurdu ki, danışmadığın təqdirdə səni öldürəcəkdilər. Oğlum Aşot da sizinkilərə könüllü əsir düşüb, o, sizlərə güllə atmayıb. O, əsir düşəndə deyib ki, “mən qardaşlarıma necə güllə ata bilərəm. Axı mən Bakıda doğulmuşam, orada böyüyüb boya-başa çatmışam, o torpağın çörəyini yeyib, suyunu içmişəm, orada çoxlu dostlarım qaldı. Hər yerdə mənə hörmətlə yanaşdılar. Bütün bunları unutmaq olarmı?!” Mən də oğlumun fikirlərilə tam razıyam. Biz sizinlə dinc və rahat yaşayıb, gözəl günlər keçirirdik. İnanın ki, həyatımızın ən gözəl və unudulmaz günlərini Bakıda keçirmişik. Allah mərdimazarın, xainlərin evlərini yıxıb xaraba qoysun! Necə ki, bizi isti yuvamızdan, ev-eşiyimizdən didərgin saldılar. Nurikcan, biz əvvəlcə Rusiyaya getdik. Orada 5-6 ay yaşadıqdan sonra Stepanakertdəki qohumum bizi buraya dəvət etdi. Amma Bakıdakı ermənilərə burada yaxşı baxmırlar, bizə yad adam kimi, ögey münasibət bəsləyirlər. Oğlum Aşotu da zorla əsgərliyə apardılar. Oğlumu səninlə dəyişdikdən sonra, buradan qaçıb gedəcəyik. İnan ki, burada qala bilmirik, sıxılırıq, sanki havamız çatmamış kimi boğuluruq. Burası bizlik deyil. İndi Bakı üçün burnumuzun ucu göynəyir...

- Mən səni heç xatırlamıram. - Nurəddin zarıdı.

- Mənəm də, bərbər Edik! Evimiz Razində idi. Yadındadırmı, sən Rusiyada milis işlədiyin vaxt bir blok siqaretlə məni həbs olunmaqdan qurtardın. Bir “karobka” nar əhvalatı! İndi xatırladınmı?

- Hə..ə..ə.. Deməк, o..o.. sən...sən idin?!

- O vaxt sən məni həbsdən qurtardın, indi isə mən səni ölümdən qurtaracağam. Biz artıq sizinkilərlə danışıqlara başlamışıq. Üç gündən sonra səni oğlumla dəyişəcəyik. - Edik nəfəsini dərmədən bildirdi.

Nurəddinin fikri xəyallar aləminə qanad açdı...

O, Krivoy-Roqda milis işlədiyi zaman, bir gün onun tabeliyində çalışan serjant Vadim dedi ki, “yoldaş Mamedov,

sizin “zemliyakı”nızı tutublar, rəisin otağındadır.” Nurəddini maraq götürdü ki, görəsən tutulan şəxs kimdir. Ona görə də o, dərhal rəisin otağına getdi. Mayor Sergey Vasilyev Nurəddini görcək gülərək dedi:

- Mamedov, bu erməni sənin yerlindir, özü də Bakıdandır.
- Seryoja, bu nə edib? - Nurəddin ərkyana mayordan soruşdu.
- Nar satarkən yaxalanıb! - Mayor yenidən qımışdı.
- Nə etmək istəyirsən?
- Daha orasını sən bilərsən. Edik Poqosyan sənin yerlindir. Cəzasını da sən verməlisən! - Bu dəfə Sergey ucadan güldü.

Bundan sonra Nurəddin Edikə tərəf dönərək soruşdu:

- De görüm, nə etmisən? Hər şeyi mənə ətraflı danış, ancaq yalan olmasın.

Məlum oldu ki, Edik buraya əsgərilikdə olan oğlunun yanına gəlib. Gələrkən də yol xərcini çıxarmaq üçün özü ilə bir “karobka” nar da gətirib. O, narı küçədə ədədlə satarkən milis işçiləri tərəfindən tutularaq, şöbəyə gətirilib. Nurəddinin Edikə yazığı gəldi. Nə də olmasa, Edik onun yerlisi hesab olunurdu. Nurəddin ondan Bakının harasından olduğunu və harada işlədiyini soruşdu. Edik dedi ki, o, Razində yaşayır, elə orada da bərbər işləyir. Nurəddin sağ əlini erməninin çiyninə qoyub dedi:

- Yaxşı, dur get, mayora bir blok siqaret al, gətir!
- Bu dəqiqə, yoldaş kapitan! - Edik oturduğu yerdən güllə kimi sıçrayıb, ayağa qalxdı.

Heç aradan beşcə dəqiqə keçməmiş, Edik əlində iki blok siqaret geri qayıtdı. Beləliklə, Nurəddin iki blok siqaretə erməni Ediki ən azından iki il həbs olunma cəzasından qurtardı. Erməni az qalırdı ki, Nurəddinin ayaqlarına düşsün. Nurəddin buna imkan vermədi...

***

Bu hadisədən yeddi ay ötmüşdü. Nurəddin işlə əlaqədar on günlük Bakıya ezamiyyətə gəlmişdi. O, məslək yoldaşı ilə görüşməli idi. Görüş vaxtına hələ vardı. Nurəddin bu zamandan istifadə edib, saçını qırxdırmaq üçün bərbərxanaya girdi. O, keçib müştəri gözləyən bərbərin boş stulunda əyləşdi. Bərbər mələfəni bir-iki dəfə çırpdıqdan sonra onu Nurəddinin boynuna bağladı. Usta güzgüdə diqqətlə müştərisinə baxıb, heyrət içində ucadan qışqırdı:

- Nurikcan, bu sizsiniz?! Aman Allah! Gözlərimə inana bilmirəm!

- Biz tanışıqmı? Məni hardan tanıyırsınız? Mən ki sizi xatırlamıram. - Nurəddin də təəccüblə bərbərə baxdı.

- Necə yəni xatırlamırsınız? Siz ki məni yeddi ay bundan öncə, Krivoy-Roqda həbs olunmaqdan qurtardınız! Məni nar satdığım üçün tutmaq istəyirdilər. - Bu dəfə bərbər Nurəddinin onu tanımadığını görüb, canfəşanlıqla dilləndi.

- A..a!.. indi xatırladım. Demək, siz həmin Edik Poqosyansınız?! - Kapitan bərbəri indi xatırladığını bildirdi.

Edik tez gedib telefonla harasa zəng etdi. Və gülə-gülə gəlib Nurəddinin saçlarını qırxmağa başladı:

- Nurikcan, heç bilirsiniz sizi nə qədər axtarmışam. Yaxşı ki, öz ayağınızla gəldiniz. Bu gün nahar yeməyinə bizə gedəcəyik, artıq evə zəng də etmişəm. Heç bir etiraz istəmirəm.

- Edik, bu gün olmaz, çünki bir azdan məslək yoldaşımla görüşüm olacaq. Bəlkə, sizə getməyi axşama saxlayaq? - Nurəddin naharda onlara getməyin imkansız olduğunu bildirdi.

- Yaxşı, siz deyən kimi olsun. Amma axşam mən özüm gəlib sizi dediyiniz yerdən alacağam, - deyə onlar razılığa gəldilər.

Axşam şam yeməyində Nurəddin erməni Edik Poqosyangildə idi. Onlar kapitanın şərəfinə gözəl bir süfrə açmışdılar. Evdəkilər - Edikin arvadı, qızı və oğlu Nurəddinlə elə davranırdılar ki, onlar sanki kapitanı çoxdan tanıyırdılar.

Edik sözgəlişi vurğuladı ki, o, Nurəddin haqqında evdə çox danışıb. Ona görə də onu evdə hamı qiyabi də olsa tanıyırdı. Düzü, onların Nurəddinə qarşı bu cür qonaqpərvərliyi, canfəşanlıq göstərmələri, başına pərvanə tək fırlanmaları kapitanı çox utandırırdı. Sonda Edik Nurəddinə dedi:

- Nurikcan, sizdən bir ricam olacaq. Krivoy-Roqa nə vaxt qayıdacaqsınız?

- Hardasa, iki gündən sonra. Necə bəyəm? - Nurəddin soruşdu.

- Mənim orada bir dostum var, ona bir bağlama göndərəcəyəm. Deyirəm ki, əgər sizə zəhmət deyilsə, onu dostuma çatdıra bilərsinizmi? O, sizi qatar vağzalında qarşılayacaq. - Edik bildirdi.

- Nə zəhməti var, çatdıraram, narahat olmayın. - Nurəddin arxayınlıqla dilləndi.

İki gündən sonra Edik öz maşınında Nurəddini Bakı qatar vağzalına gətirdi. O, maşından səliqə ilə qablaşdırılmış əl çantasını götürüb və qoltuq cibindən çıxardığı bir məktubu Nurəddinə verdi. Edik hər ehtimala qarşı özünün ev telefonunu da kapitana verib dedi:

- Əmanətləri dostuma verəndən sonra, mənə zəng edə bilərsiniz.

- Yaxşı, siz narahat olmayın. Əmanətləri dostunuza hökmən çatdıracağam. Buna əmin ola bilərsiniz! - Nurəddin gülərək bildirdi.

Edik qardaşcasına qollarını Nurəddinin boynuna doladı...

Nurəddini Krivoy-Roqdakı qatar vağzalında kimsə qarşılamadı. Nurəddin Edikin dostunu çox gözlədi. Əlacsız qalan kapitan elə vağzaldan Edikin evinə zəng vurdu:

- Edik, məni burada kimsə qarşılamadı. Neçə müddətdir ki, burada gözləyirəm. Amma gələn yoxdur. Bəs mən bunları nə edim?!

- Nurikcan, kimsə gəlməyəcək! Onların hər ikisi sizin üçündür. Bilirdim ki, onları burada sizə versəydim,

götürməyəcəkdiniz. Bunlar sizin mənə etdiklərinizin qarşısında nədir ki?! Di, salat qal! Verdiklərim halal xoşunuz olsun! - deyib Edik telefonun dəstəyini yerinə qoydu.

Nurəddin evə gəlib, əvvəlcə Edikin ona verdiyi məktubu açdı. Məktubun içində iki min manat pul vardı. Bağlamada isə üç ədəd hisə verilmiş və qurudulmuş balıq, iki ədəd Yerevan konyakı, evdə bütün ədviyyatları ilə xüsusi hazırlanmış üç "rulon" kolbasa, yarım kiloluq bankada qara kürü və evdə bişirilmiş iki kiloqrama yaxın paxlava var idi...

Üç gündən sonra ermənilər doğrudan da, ağır vəziyyətdə olan kapitan Nurəddin Məmmədovu Edik Poqosyanın oğlu Aşotla dəyişdilər.

Beləliklə, cəsur kapitan həkimlərimizin səyi nəticəsində ölümün pəncəsindən qurtuldu.

**20.12.2014**

# Nərəy dərəsində qanlı döyüş

(hekayə)

**P**olkovnik Yevgeni Alekseyeviç azərbaycanlı tərcüməçisi Akif Zeynalovu yanına çağırıb dedi:

- Zeynalov, bilirəm, bu sizin vəzifəniz deyil, ancaq bu işi sizə tapşırmaq məcburiyyətində qaldım. Bizim Keşlak*dakı xəbərçimiz ötən həftə mücahidlər tərəfindən öldürülüb. İndi biz məlumatsız qalmışıq. Mərkəzdən bizə verilən xəbərə görə, bu günlərdə Pakistandan mücahidlər üçün yeni silah karvanı

gələcək. Nəyin bahasına olursa - olsun biz bu silahların mücahidlərin əlinə keçməsinə yol verməməliyik.
- Mən nə etməliyəm, yoldaş polkovnik? - Akif soruşdu.
- Yenə deyirəm, bu bir kəşfiyyatçı işidir. Amma siz Puştu dilini daha yaxşı bilirsiniz, həm də zahiri görnüşünüz heç də əfqanlardan seçilmir. Onların libaslarını da əyninə geyinəndən sonra kimsə sənin sovet əsgəri olduğunu qətiyyən hiss etməz. Ona görə bu əməliyyata həyata keçirmək üçün sizi seçdim. İnanıram ki, siz bu işin öhdəsindən gələcəksiniz. İndi keçək əsas məsələyə. Keşlakda bir dükançı var. Bizdə olan məlumata görə, həmin dükançı mücahidlərlə əlbirdir. Silah karvanı barədə o, hökmən məlumatlıdır. Sən Keşlakdakı həmin dükana girib inandırıcı çıxsın deyə, bir az alış-veriş edərsən. Bizə sadəcə, silah karvanının Pakistan sərhəddindən keçəcəyi dəqiq vaxt lazımdır. İnandırıcı çıxsın deyə, sizə hər iki heybəsi qarpızla dolu olan bir eşşək də verəcəyik. Hər ehtimala qarşı, bu ratsiyanı da özünlə götürərsiniz. Bir şey

----------------------------------------

***Keşlak (Qışlaq)** – Əfqanlar aulu, kəndi belə adlandırırlar.

olarsa, dərhal bizimlə əlaqə yaradarsınız. Amma çox ehtiyatlı olmalısınız.
- Demək, Qışlağa kəşfiyyata gedirəm, yoldaş polkovnik? - Akif təbəssüm etdi.
- Tamamilə elədir, yoldaş Zeynalov. Siz indi tərcüməçi deyil, əsl kəşfiyyatçı vəzifəsini yerinə yetirirsiniz, - deyə Polkovnik də gülümsədi.
- Nə vaxt yola düşməliyəm, yoldaş polkovnik?
- Bir saatdan sonra. Uğur olsun, Zeynalov! - Polkovnik ayağa qalxıb Akifin əlini sıxdı.
- Tapşırığınızı yerinə yetirmək üçün əlimdən gələni edəcəyəm, yoldaş polkovnik! - Akif farağat vəziyyəti aldı.
- Gedə bilərsən! - Polkovnik dedi.

- Oldu, yoldaş polkovnuk! - deyə “kəşfiyyatçı” otağı tərk etdi.

Günorta namazından sonra “kəşfiyyatçı” Akif Zeynalov həmin Qışlağa çatdı. O, eşşəyi dükanın qarşısındakı tənha ağaca bağlayıb dükana girdi. “Kəşfiyyatçı” təmiz puştu dilində dükançıya salam verdikdən sonra, ondan bir kiloqram qənd, bir kiloqram xurma, bir kiloqram şəkər tozu və bir ədəd quru çay istədi. Dükançı Akifin dediyi şeyləri tərəzidə çəkə-çəkə gözaltı ona baxırdı və dözə bilməyib soruşdu:

- Deyəsən, siz bizim Qışlaqdan deyilsiniz, eləmi? Çünki mən Qışlaqdakılarımızı tanıyıram.
- Düz deyirsiniz, qonşu Qışlaqdanam. - Akif sakit halda dedi.
- Qarpızları satırsınız?
- Alan olarsa, sataram.
- Neçəyə satırsınız?
- Bir kiloqramı 10 əfqaniyə. - Akif dedi.
- Elə isə o qarpızlardan ikisini mənə ver, aldığın şeylərlə hesablaşarıq. - Dükançı dedi.
- Yaxşı, siz deyən olsun, - deyə Akif bayıra çıxaraq, eşşəyin heybəsindən iki qarpız götürərək, gətirib dükançıya verdi.

Bu vaxt içəri naməlum bir adam daxil oldu. O, dükançıya yaxınlaşıb kef-əhval tutduqdan sonra soruşdu:

- Yeni nə xəbər var?
- Sabah axşam yeni mal alacağam. Bu dəfəki mallar Pakistandan gələcək. - Dükançı təzə gələn adama bildirdi.

“Bu paroldur. Demək, silah karvanı sabah axşam Pakistan sərhəddindən keçəcək”, deyə Akif düşündü. Akif məlumatın bu qədər tez əldə etməyinə heç cür inana bilmirdi. Sanki “kəşfiyyatçı”nın bəxti gətirmişdi. O, tez aldığı şeylərlə dükançı arasındakı haqq-hesabını bitirib bayıra çıxdı. Akif ağaca bağladığı eşşəyi açaraq, birbaş hərbi hissəyə tələsdi. O, sevincindən sanki quş kimi qanad açıb uçurdu. “Kəşfiyyatçı” dükançıdan əldə etdiyi məlumatı polkovnikə çatdıranda, Alekseyeviç oturduğu yerdən ayağa qalxıb Akifi qucaqladı və:

- Zeynalov, siz böyük bir iş bacardınız. Təşəkkür edirəm. - sevincək dedi.

Ertəsi gün axşam Sovet əsgərlərinin keçirdikləri gizli əməliyyat nəticəsində Pakistandan mücahidlər üçün gələn silah karvanı ələ keçirildi. Bu uğurlu əməliyyata görə tərcüməçi-kəşfiyyatçı Akif Zeynalov "İgidliyə görə" Əfqan medalı ilə təltif olundu...

***

1984-cü ilin yay ayı idi. Əfqanıstanın Pakistanla həmsərhəd olan Paktiya vilayətində qanlı döyüşlər gedirdi. Həmin vilayətdə mücahidlər daha fəal hərəkət edərək, həm Əfqan qoşunlarının, həm də Sovet qoşunlarının xeyli sayda döyüş texnikasını məhv etmişdilər. Bu qanlı döyüşdə hətta, bir Sovet generalı da həlak olmuşdu.

Bir gün səhər yeməyindən sonra Əfqanıstandakı Sovet polkuna xəbər gəldi ki, onların bir polku mücahidlər tərəfindən pusquya düşüb və xeyli sayda əsgər həlak olub. Yuxarıdan tapşırıq gəldi ki, təcili olaraq həmin polka köməyə tələsmək lazımdır. Ona görə də, vaxt itirmədən həmin əraziyə yaxın olan Sovet polkunun komandiri polkovnik Yevgeni Alekseyeviç Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir ilə toplantı keçirdi. Sonra polkovnik Yevgeni Alekseyeviç tərcüməçisini yanına çağırıb dedi:

- Zeynalov, hazırlaş, yenə döyüşə gedirik!
- Oldu, yoldaş polkovnik! - deyə gənc tərcüməçi Zeynalov farağat vəziyyəti aldı.

***

*Akif Zeynalov BDU-nun Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Müəllimlər əvvəlcə onu Universitetdə*

*saxlamaq istədilər, çünki onun Tələbə Elmi Cəmiyyətindəki elmi çıxışları müəllimlərinin diqqətini çoxdan çəkmişdi. Daşkənddə keçirilən Tələbə Elmi Konfransında da Akifin çıxışı ikinci mükafata layiq görülmüşdü. Amma istedadlı tələbənin day-dayısı olmadığından onu Universitetdə saxlamadılar. Onlar Akifin şəhərdə daimi qeydiyyatı olmadığını bəhanə gətirdilər. Bu bəhanəni kəsmək üçün şərqşünas alim Rüstəm Əliyev istedadlı tələbəsinə kömək etmək üçün onu öz evinə qeydiyyata salmağa belə hazır idi. Amma "yuxarı"dan tapşırıq buna mane oldu. Kafedraya Akifin yerinə, day-dayısı olan başqa bir savadsız tələbəni işə götürdülər. Sonra Akifi İranda diplomatik korpusda işləməyə dəvət etdilər. Bu dəfə də Akif onların təklifini qəbul etmədi. Tərcüməçi olmağı üstün tutdu. Amma onun ilk arzusu kimyaçı olmaq idi. Hələ orta məktəbdə oxuyarkən o, rayonda keçirilən Kimya Olimpiadasının qalibi olmuşdu. Kimya müəllimi Akifin istedadını görüb onunla daha əzmlə çalışmağa başladı və bacarıqlı şagird də sevimli müəllimi olan İxtiyar Bəxtiyarovun əməyini yerə vurmadı, əksinə onun sevincinə daha bir sevinc qatdı. Belə ki, Akif sinif yoldaşı Zeynalla bərabər respublika üzrə keçirilən Kimya Olimpiadasında üçüncü yeri tutdu. O, təkcə kimya fənnini deyil, bütün fənnləri yüksək səviyyədə bilirdi. Amma tale elə gətirdi ki, Akif kimyaçı deyil, dilçi- tərcüməçi və Əfqanıstanda 3 il hərbi xidmətdə, qanlı-qadalı döyüşlərdə oldu...*

*******

İki ildən artıq idi ki, Akif Əfqanıstanda həm döyüşçü kimi, həm də tərcüməçi kimi çalışırdı. O, həm Əfqan, həm də Sovet ordusunda xidmət edirdi. Tərcüməçi-döyüşçü artıq güllə səslərinə, top mərmilərinə, təyyarə bombardmanlarına, raket atəşlərinə alışmışdı. Hətta, bir dəfə Kabulda yaşadığı evin əlli metrliyinə raket mərmisi düşmüşdü. Güclü partlayışdan evin pəncərələrinin şüşələri çilik-çilik olub yerə tökülmüşdü. Akif

Qəndəharda, Heratda, Məzari-Şərifdə, Xosda, Calalabadda, Paktiyada, Vazaxvada gedən ağır, qanlı döyüşlərdə iştirak etmiş və göstərdiyi igidlik və şücaətlərə görə iki dəfə “Döyüşlərdə göstərdiyi xidmətə görə” Sovet medalına, iki dəfə də “İgidliyə görə” Əfqan medalına layiq görülmüşdü. Əlbəttə, bu təltiflər Akifin komandiri, polkovnik Yevgeni Alekseyeviçin təqdimatı nəticəsində olmuşdu. Polkovnik tərcüməçi Zeynalovun xətrini çox istəyirdi. Bu istək təkcə onun döyüşlərdəki xidmətinə görə deyildi. Tərcüməçi-döyüşçü polkovnikin həyatını bir neçə dəfə xilas etmişdi. Bu xilasetmə təkcə döyüşlərdə olmamışdı.

Bir dəfə Akif Yevgeni Alekseyeviçi Kabulun mərkəzində, dükandan alış-veriş edərkən ölümdən qurtarmışdı. Akifin zahiri görünüşü əfqanlardan elə də seçilmirdi, onlara çox bənzəyirdi - qarabuğdayı, bığlı, saqqallı. Küçədə, bazarda olarkən hamı onu Əfqan əsgəri olduğunu sanırdı. Əfqanlar əsasən Puştu dilində danışırdılar. Akif də Fars dilindən savayı, Puştu dilini də yaxşı bilirdi. Tərcüməçi əsgərimiz bu dildə də çox gözəl, qüsursuz və səlis danışırdı.

Bir gün polkovnik Akifə dedi ki, arvadına ad günü münasibətilə qızıl boyunbağı almaq istəyir. Polkovnik tərcüməçisinin qızıl dükanlarını yaxşı tanıdığından ona müraciət etməli oldu. Akif komandiri ilə Kabulun ən yaxşı qızıl dükanlarına baş çəkməli oldu. Təcüməçi onu da bilirdi ki, dükanlara Sovet əsgəri və ya hər hansı rütbəli zabit üçün tək girmək qorxuludur. Çünki dükan sahibləri hər bir Sovet əsgərinə və zabitinə qarşı olan nifrət hisslərini heç də gizlətmirdilər. Buna görə də, dükana girən əsgər və ya zabit tək olarsa, onu aradan götürmək onlar üçün çox asan olurdu. Belə ki, hər bir dükanda əfqanların hökmən gizli bir qapısı olmalı idi. Həmin qapı arxasında isə hər zaman iki Əfqan mücahidi gizlənirdi. Dükan sahibi dükana tək gələn Sovet əsgər və ya zabitini yaxşı malların içəridə olduğunu söyləyərək, onu həmin qapıdan içəri ötürürdü və bu zaman

qapı arxasında şikarını gözləyən mücahidlər həmən "qonağın işini bitirirdi"lər. Bu minvalla günün-günorta çağında çoxlu Sovet əsgəri və zabiti bilinmədən, xəbərsiz-ötərsiz yoxa çıxırdı. Bütün bunlardan həm polkovnikin, həm də Akifin xəbəri vardı. Ona görə də onlar alış-veriş üçün dükana heç vaxt tək getməzdilər. Həm də bütün əsgər və zabit heyətinə təlimat verilmişdi ki, şəhərdə, küçədə, bazara gedərkən, dükanlardan alış-veriş edərkən tək olmasınlar.

Həmin gün qızıl dükanına əvvəlcə polkovnik daxil oldu. Akif maşını saxlamaq üçün münasib yer axtardığından dükana komandirindən bir qədər sonra daxil oldu. Yevgeni Alekseyeviç piştaxta altındakı qızıllara baxmaqla məşğul idi. Həmin dükanda iki nəfər satıcı vardı - biri dükan sahibi, o birisi isə onun köməkçisi. Akif polkovnikdən bir az aralıda dayanmışdı. Eyni zamanda dükançılar Akifi Əfqan əsgəri hesab etmişdilər. Bu vaxt tərcüməçi əsgərimiz dükan sahibi ilə onun köməkçisinin arasındakı puştu dilindəki danışığı eşitdi. Dükan sahibi Sovet zabitinin tək olduğunu köməkçisinə söyləyirdi. Dükan sahibi polkovnikə gülərüzlə dedi ki, onda ən yaxşı mallar içəridədir. Əgər baxmaq istəyirsə, bu qapıdan içəri buyursun. Polkovnik dükan sahibinin təklifini qəbul edib, "gizli qapı"dan içəri keçmək istərkən, Akif komandiri başa düşməsin deyə, dükan sahibinə təmiz puştu dilində:

- Ze tənha nəim!* - dedi.

Bu sözləri eşidəndə, dükan sahibini sanki ildırım vurdu, rəngi avazıdı. Əlbəttə, Akif həmin vaxt bu barədə polkovnikə heç bir söz demədi. Dükan sahibi tez üzündə süni təbəssüm yaradaraq, içəri girib ən yaxşı qızıllarını gətirib polkovnikin qarşısına tökdü. Yevgeni Alekseyeviç qarşısındakı müxtəlif çeşidli qızıllar arasından arvadına ən layiqli bir boyunbağı seçdi. Sözarası dükan sahibi yenə puştu dilində Akifə dedi ki, o, elə bilib ki, o, Əfqan əsgəridir.

Akif bu hadisə barədə polkovnikə sonralar üstüörtülü, fərqli bir şəkildə söylədi. Bundan sonra polkovnikin tərcüməçisinə

olan rəğbəti və güvənci daha da artmışdı. O, hara gedirdisə, həmişə Zeynalovu da özü ilə aparırdı.

***

Pakistanla sərhəd bölgəsində, mühasirəyə düşən Sovet polkuna kömək etmək üçün təcili hazırlıqlar görüldü. Sərhəd polkuna yardıma 2 Sovet polku və bir Əfqan polku yola düşdü. Düşmənlər mühasirəyə aldıqları polka kömək gələcəyini öncədən bilirdilər. Çünki onların da özlərinə görə hər yerdə adamları vardı. Polkovnik Yevgeni Alekseyeviçlə birgə Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir də onlara köməyə gedirdi. Tərcüməçi Zeynalov, polkovnik və general eyni maşında idilər. Onlar ikinci polkda hərəkət edirdilər. Onlardan qabaqda birinci polk, arxada isə üçüncü polk gedirdi. Əsas döyüş maşınları tanklar və BMP-lərdən ibarət idi. Sovet və Əfqan döyüşçüləri Nərəy dərəsinə çatdılar. İkinci polk, Akifgilin polku artıq dərənin yarısına qədər gəlmişdi. Bu zaman polkovnik Alekseyeviçə ratsiya vasitəsilə bildirdilər ki, bu dərədə düşmənlər onlara pusqu qura bilərlər. Elə bu zaman

--------------------------

*O, tək deyil!

yer-göy titrədi, onların qabağınca gedən tank və BMP-lər bir-bir alovlanmağa başladı. Minamyot və qumbaraatanlardan açılan atəşdən, yağış kimi yağan güllələrdən qulaq batırdı. Bu zaman polkovnikin amiranə səsi eşidildi:

- Zeynalov, dərhal maşından tullan! O, böyük daşın arxasında gizlən!

Akif cəld maşından yerə sıçradı və özünü böyük bir sal daşın arxasına verdi. Onun arxasınca general da özünü yerə atdı. Sürücü sükan arxasındaca vurulmuşdu. Polkovnik isə Akifgildən 4-5 metr aralıda olan kiçik bir daşın arxasına sığına bildi. Bura polkovnik üçün əlverişli mövqe deyildi. Mücahidlər onu hər an vura bilərdilər. Bu zaman onların maşını güclü

partlayışdan sonra od tutaraq yanmağa başladı. Baş qaldırmaq mümkün deyildi, güllələrdən yayınmaq çətin idi. Yeganə çıxış yolu daşın arxasından çıxmamaq idi. Mücahidlər yüksəklikdə olduğundan onlar dərədəki hər bir əsgəri aydınca görürdülər. İndi əsas hədəf Akifgil idi. Akif heybəsindəki qumbaraları və ehtiyat avtomat darağlarını çıxarıb yanına düzdü. O, geri qanrılıb 3-cü polkun vəziyyətinə baxmaq istədi. Gördü ki, 3-cü polk geri çəkilərək, qaçırlar. BMP-lər, tanklar od tutub yanırdılar. İndi Akifi özündən daha çox polkovnik narahat edirdi. Onlar artıq düşmən mühasirəsindəydilər. “Nəyin bahasına olursa-olsun, onu qorumalıyam!” deyə tərcüməçi-döyüşçü öz komandiri barədə düşündü. O, üzünü polkovnikə tutub ucadan qışqırdı:

- Yoldaş polkovnik, mənim yanıma tullanın! Ora sizin üçün təhlükəlidir. Düşmənlər sizi hər an vura bilərlər. Hər tərəfdən düşmənlər sizi görürlər. Mən sizi qoruyacağam.

Akif yanındakı qumbaranın birini götürüb düşmən tərəfə atdı və polkovnikə qışqırdı:

- Yoldaş polkovnik, indi yanıma tullanın!

Qumbaranın partlaması nəticəsində toz dumanı havaya qalxdı və bundan istifadə edən polkovnik Alekseyeviç bir göz qırpımında, pişik cəldliyi ilə Akifin sığındığı daşın arxasına sıçradı. Akif başını qaldırıb avtomatını işə saldı. Mücahidlər get-gedə onlara yaxınlaşırdılar. Artıq düşmənlər onlara qarşıdan deyil, sağ və sol cinahlardan da atəş açırdılar. Demək, düşmən onları əsir götürməyə çalışırdı. Akif güllələri bacardıqca qənaətlə sərf edirdi. Tərcüməçi-döyüşçü bir də gördü ki, polkovnikin avtomat silahı əlində deyil. O, tələsdiyindən avtomatını və ratsiyasını ilk gizləndiyi daşın arxasında unutmuşdu. Bu heç də yaxşı hal deyildi. Polkovnik silahını döyüş mövqeyində qoymuşdu. Bunu görən Akif polkovnikə dedi:

- Yoldaş polkovnik, icazə verin silahınızı gətirim. Güllələrimiz tükənmək üzrədir.

- Olmaz, Zeynalov! Mən buna icazə vermirəm! Bu çox təhlükəlidir, - deyə o, Akifin yanındakı qumbaradan birini götürüb gizlənə-gizlənə onlara yaxınlaşan üç mücahidə tərəf atdı.

Toz-duman çəkiləndən sonra, onlar mücahidlərin üçünün də yerdə sərili vəziyyətdə qaldığını gördülər. Akif bu dəfə komandirinin əmrini dinləmək istəmədi. O, necə olursa-olsun polkovnikin avtomat silahını oradan götürməli idi. Buna görə də o, əvvəlcə silahını komandirinə verib dedi:

- Yoldaş polkovnik, məni qoruyarsan.
- Zeynalov, dedim ki, olmaz! Mən buna icazə vermirəm! Əmrimi dinlə! - Polkovnik ikinci dəfə Akifə dedi.
- Bağışla, yoldaş polkovnik, bu dəfə əmrinizə tabe olmayacağam. - Akif məyus halda dedi.

Daha gecikmək olmazdı. Düşmən onlara daha da yaxınlaşırdı. Akif avtomat silahını komandirinə verib, qumbaralardan birini götürüb qarşıdan irəliləməkdə olan düşmənlərə tərəf atdı. Toz-duman havaya qalxan kimi, Akif cəld polkovnikin silahı olan yerə sıçradı. Düşmənlər bunu aydın görürdülər. Və onlar Akifi bir də geri qayıtmamaq üçün onunla polkovnik arasında güllələrdən çəpər çəkdilər. Arası kəsilməyən atəşlərdən nə baş qaldırmaq, nə də geri tullanmaq mümkün deyildi. Çətin vəziyyət yaranmışdı. Akifi bu durumdan yalnız polkovnik çıxara bilərdi. Polkovnik gördü ki, sağ cinahdan Akifə tərəf iki düşmən yaxınlaşır. Onların məqsədini komandir dərhal anladı. Belə ki, o, dalbadal mücahidlərə tərəf iki qumbara atdı və Akifə bərkdən qışqırdı:

- Zeynalov, indi tullan!

Akif silahı və ratsiyanı götürüb yaranmış toz-dumandan istifadə edərək, yenidən geriyə, əvvəlki yerinə sıçradı. O, polkovnikin silahını özünə qaytardı. “Çox sağ ol, Zeynalov!” deyə komandir silahı əlinə alan kimi, əvvəlcə sola, sonra da sağ tərəfə dönərək atəş açdı. Akifi heyrət bürüdü. Onların xəbəri olmadan, iki tərəfdən onlara yaxınlaşan iki düşmən

polkovnikin sərrast atəşi ilə yerə sərildi. Tərcüməçi-döyüşçü yarım saatdan bəri davam edən atəşdə Əfqan generalının heç bir səsi çıxmadığını və bircə dəfə də olsa atəş açmadığını görüb onun avtomat silahını əlindən aldı. O, generala qarşı bu hərəkəti həm də özlərinin təhlükəsizlik baxımından etdi. Akif ani olaraq düşündü ki, mücahidlərin onlara yaxınlaşdığını görüb, general arxadan onları vura bilər. Digər tərəfdən də onsuz da onların gülləleri qurtarırdı. Generalın avtomat silahında isə düşmənlə vuruşmaq üçün hələ xeyli güllə vardı. Akiflə polkovnik avtomatdan tək-tək atırdılar. Polkovnikin atdığı boşa çıxmırdı. O, hər atəşlə bir düşmən vururdu. Mücahidlər mühasirə halqasını get-gedə daraltmağa başladılar. Polkovnik tam əmin idi ki, düşmənlər onları əsir götürmək istəyirlər. Akif və polkovnik hər biri əlinə yenə də qumbara götürərək, onlardan biri sağ tərəfdən gələn, digəri isə sol tərəfdən yaxınlaşan mücahidlərə tərəf  atdı. Bu partlayışda da daha üç düşmən öldü. Artıq güllələr tükənmək  üzrə idi, cəmi iki qumbara qalırdı. Akiflə komandir bir-birlərinə baxdılar. Bu səssiz baxışlarda hər şey anlaşılırdı. Yəni, indi bu son demək idimi?! Polkovnik Akifi tam anladığından dedi:

- Xeyr, Zeynalov, bu hələ son demək deyil! Bizim hələ daha bir şansımız  var! - Polkovnik Alekseyeviç nəsə tapmış kimi ucadan qışqırdı. - Mən indi qırıcı bombardmançı təyyarələrə kordinatları verib, buranı bombalamalarını əmr edəcəyəm.
- Yoldaş polkovnik, siz nə danışırsınız? Elə isə biz də həlak olacağıq! - Akif təəccüblə komandirinə baxdı.
- Zeynalov, siz bu barədə narahat olmayın. Mən hər şeyi dəqiqliklə hesablayacağam. Bu bombardmanda bizə bir şey olmayacaq. - Polkovnik özünə əminliklə bildirdi.

Polkovnik Alekseyeviç ratsiya vasitəsilə hərbi hissəylə əlaqə saxlayanda, oradakılar onların hələ də sağ qaldıqlarına heyrət etdilər. Çünki döyüşü qoyub geri qaçan 3-cü polkun əsgərləri hamının həlak olduğunu hərbi hissədə söyləyibmişlər. Sovet qırıcı bombardmançı təyyarələri artıq

havaya qalxmışdılar, hansı ərazini bombardman edəcəkləri polkovnikin verdiyi kordinatlar da onların əlində idi. Beş dəqiqədən sonra qırıcılar onların başı üzərində fırlanırdı. Qırıcılar əvvəlcə bir dövrə vurdular, sonra polkovnik ratsiya ilə onlara, "Bombalayın!" deyə əmri verdi. Sonra polkovnik üzünü Akifə tutub dedi:

- Zeynalov, bombardman sona çatana qədər başını daşın arxasından qaldırma!

- Oldu, yoldaş polkovnik! - Akif əmrə tabe olduğunu bildirdi.

Bu zaman qırıcılar aşağı şığıdılar. Bir-birinin ardınca ölümsaçan, dəhşətli partlayışlar eşidildi. Toz-dumandan ətraf görünməz oldu. O böyüklükdə sal daşlar, qayalar parçalanaraq yumuşaq torpağa çevrildi. Hər üç qırıcı bombalarını töküb qurtardıqdan sonra geri qayıtdılar. Aralığa ölüm sükutu çökdü.

- Zeynalov, sağsanmı?! - deyə ilk olaraq polkovnik Akifi səslədi.

- Hər şey qaydasındadır, yoldaş polkovnik! - Akif başını daşın arxasından qaldırıb cavab verdi.

Bombardman nəticəsində düşmənlərin əksəriyyəti məhv edilmişdi. Sağ qalanlar isə dağdakı mağaralardan qaçıb qurtulmuşdular.

Qanlı döyüşdən sonra Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir, Sovet polkovniki Yevgeni Alekseyeviç və azərbaycanlı tərcüməçi-döyüşçü, leytenant Akif Zeynalov piyada hərbi hissəyə qayıdarkən yol boyu yanmaqda olan tanklar, BMP - lər və çoxsaylı yaralı əsgərlərlə qarşılaşdılar...

Ertəsi gün hərbi hissənin divar qəzetində "Tərcüməçi-döyüşçü öz komandirini necə xilas etdi?" adlı yazı dərc edilmişdi. Bu yazı tərcüməçi, leytenant Akif Zeynalov haqqında idi. Yazının təşəbbüsçüsü polkovnik Yevgeni Alekseyeviç olmuşdu. Bundan sonra polkovnik azərbaycanlı döyüşçüyə dərhal "Qızıl Ulduz" verilməklə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülməsi üçün Moskvaya raport göndərdi. Amma

təəssüflər olsun ki, Moskvada Müdafiə Nazirliyində özünə yuva salmış nankor erməni zabitləri azərbaycanlı oğlanın belə bir yüksək ada layiq görülməsini heç cür həzm edə bilməyib, buna paxıllıqla, qısqanclıqla yanaşaraq, hər vasitə ilə Akif Zeynalovun bu mükafatı almasına qəsdən maneçilik yaratdılar. Akif Zeynalovu "Qızıl Ulduz" əvəzinə, yenə də "İgidliyə görə medalı" ilə təltif etdilər. Polkovnik Yevgeni Alekseyeviç bunu eşidən kimi, bərk qəzəbləndi və növbəti məzuniyyətində Moskvaya gələrkən Müdafiə Nazirliyinə baş çəkdi. Polkovnik onun əsgərinə belə bir ad almasına mane olanların yanında ucadan dedi:

- Siz həyatımı xilas edən, dəfələrlə ağır və çətin döyüşlərdə həmişə yanımda olan, mənimlə iki ildən artıq çiyin-çiyinə döyüşən bir qəhrəman gəncin bu ad almasına niyə razı olmadınız? Niyə "Qızıl Ulduzu" ona qıymadınız? Niyə bu adın Zeynalova verilməsinə bu qədər qısqanclıqla yanaşdınız?! Bu gün mən burada sizinlə söhbət edirəmsə, buna görə həyatımı ona borcluyam. Onun döyüşlərdə göstərdiyi şücaəti, igidliyi mən heç bir zaman unutmayacağam. Bu işdə siz hamınız Zeynalova qarşı böyük bir haqsızlıq etdiniz. Siz təkcə ona deyil, həm də mənə qarşı böyük sayğısızlıq göstərdiniz, təqdimatıma laqeyd yanaşdınız. Bu adam mənimçün həm gözəl tərcüməçi, həm cəsur döyüşçü, həm də bacarıqlı "kəşfiyyatçı" olub. Siz rəsmi olaraq Zeynalova qəhrəmanlıq adı verməsəniz də, o, mənim üçün əsl qəhrəmandır!

Polkovnik Yevgeni Alekseyeviçin artıq istefaya çıxmaq yaşı da çatmışdı. Ona görə o, elə həmin gün raport yazaraq, nazirə təqdim etdi...

Bundan sonra polkovnik Yevgeni Alekseyeviçlə azərbaycanlı tərcüməçi-döyüşçü Akif Zeynalov arasında dostluq əlaqələri uzun illər davam etdi. Akifin yolu nə vaxt Moskvaya düşərdisə, o, hökmən keçmiş komandirinə baş çəkərdi.

**07.02.2014**

# Ölüm düşərgəsindən qaçış

(hekayə)

Mikayıl əslən Kəlbəcərdən idi. Ancaq Bərdədə ailə həyatı qurduğundan rayonun Qaradəmirçi kəndində traktorçu işləyirdi. Kəlbəcərin "qara xəbər"ini eşidəndə, o, qohum-əqrabasından xəbər tutmaq üçün oraya getməyi qərara aldı. Amma o, Kəlbəcərə çatmamış, yarıyolda ermənilər tərəfindən əsir götürüldü.

Ermənilər Mikayılı digər əsirlərlə birlikdə Şuşa həbsxanasına gətirdilər. Onun həyatının ən dəhşətli, amansız və işgəncə dolu günləri buradan başladı...

Hər kamerda 15-20 əsir vardı. Adamların sıxlığından nəfəs almaq olmurdu. Darısqallıqdan, nəmişlikdən, havasızlıqdan

fiziki cəhətdən zəif olanlar səhərə yaşamaq ümidini itirmək məcburiyyətində qalırdılar. Mikayıl isə fiziki cəhətdən çox mökəm idi, 106 kiloqram çəkisi vardı. Bu çəki ona əzab və işgəncələrə dözmək üçün hələlik bəs edərdi. O, çalışırdı ki, ümidsizliyə qapılmasım, nə vaxtsa, bu cəhənnəm əzabından qurtulacağı barədə düşünürdü. Amma erməni vəhşilərinin onların başına gətirdikləri müsibətləri gördükcə, içindəki ümid qığılcımları günü-gündən sönməyə başlayırdı. Bir də çalışırdı ki, o, içindəki qorxu hissini çıxarıb atsın. Mikayıl qorxmurdu. Erməni dığaları ona digərləri tək işgəncə verərkən dirənirdi, o, əsir yoldaşları tək susub dayanmırdı. Dikbaşlığına görə, ermənilər ona daha çox əzab verirdilər. Onlar əsirləri həm mənəvi, həm də fiziki cəhətdən işgəncələrin müxtəlif iyrənc üsullarından istifadə etməklə, onları əzib şikəst etməyə, şərəf və qürurlarını alçatmağa çalışırdılar. Ermənilər hər gün döyüb, işlətdikləri, ağır işgəncələr verdikləri əsirlərə gün ərzində yemək üçün iki dilim qara çörək və içmək üçün isə iki “kruşka” su verirdilər.

Bir gün hərbi əsirlərdən biri bu işgəncələrə dözə bilməyib ermənilərə etirazını bildirdi:

- Sizin heç Allahdan qorxunuz yoxdur bəyəm?! İnsana da bu qədər zülm edərlər? Nə olsun ki, biz əsirik. Müharibənin də öz qanunları var. Əsirlərlə bu qədər qəddarcasına rəftar etmək heç bir müharibə qanununa sığmır. Əgər Qırmızı Xaç Komitəsinin nümayəndələri buraya gələrsə, sizin bizə qarşı necə rəftar etdiyiniz barədə onlara şikayət edəcəyəm.

- Buna bir bax! Nə uzun dilin var sənin. Sənin uzun dilini kəsərik, bir daha danışa bilməzsən. Sən bizim əsirimizsən. Səninlə istədiyimiz kimi rəftar edə bilərik. Bəs əlinə silah götürüb bizə qarşı vuruşa bilirdin? - deyə erməni zabiti sağ əlindəki dubinkanı sol əlinin içinə vura-vura gənc oğlana yaxınlaşdı.

- Biz torpaqlarımızı sizin kimi xain və şərəfsizlərdən qorumaq üçün əlimizə silah götürmüşük. Biz heç bir zaman başqasının

torpağına göz dikməmişik. Amma siz əsrlər boyu başqalarının torpağını min bir hiylə ilə əldə etməyə çalışmısınız, - deyə hərbi əsir yenə də dilini dinc saxlamadı.

- Qarabağ bizim ata-babalarımızın torpağıdır. Bunu birdəfəlik bilməlisiniz! Siz türklərə bu torpaqlarda yer yoxdur. Vaxtilə sizinkilər babalarımızı soyqırımına məruz qoyaraq, bu torpaqları əllərindən alıblar. Bundan sonra Qarabağı bir də heç kəsə verməyəcəyik! Bunu da bilməlisiniz ki, arxamızda güc dövlətləri dayanıb. Əgər axmaqlıq edib bizə qarşı yenidən hər hansı döyüşə başlasanız, onda qalan torpaqlarınız da əlinizdən gedəcək! - Erməni zabiti fəxrlə dilləndi.

- Bu qələbə müvəqqətidir. Biz yenə də torpaqlarımızı sizin kimi məkrli, hiyləgərlərdən, işğalçılardan azad edəcəyik! Türk heç zaman enilməyib və bundan sonra da enilməyəcək. Siz də bunu birdəfəlik qulaqlarınızda sırğa yerinə asın! Gec-tez bu torpaqlardan izinizi siləcəyik! - əsir əsgər başını dik qaldıraraq, nifrət dolu baxışlarla onun qarşısında dayanmış erməni zabitinin düz gözlərinin içinə baxdı.

- Deyəsən, dilin get-gedə uzanır. Əgər mən sənin bu uzun dilini kəsməsəm, elə hey çərənləyəcəksən. Mənə bir kəlbətin və bir iti bıçaq gətirin! Cəld olun! - Erməni zabiti dəlicəsinə bağırdı.

Erməni əsgəri zabitin dediklərin gətirib ona verdi. Zabit dəlicəsinə bağırdı:

- Bu küçüyün əllərini tutun!

İki erməni dığası cəld əsir əsgərin qollarını qavırıb, arxasında tutdular. Bu zaman zabit sağ əlindəki kəlbətini əsirin ağzına salıb, onun dilini tutaraq bayıra çıxardı. Sonra o, əl atıb bıçağı götürdü və: “İndi danış görüm, necə danışacaqsan!” - deyib əsirin dilini bir anda kəsib yerə atdı.

Oğlan bayılaraq yerə yıxıldı. Zabit əsgərlərin üstünə qışqırdı:

- Götürün, bunu atın kameraya!

Aralığa ölüm sükutu çökdü. Hamı yerdə uzanmış, dili kəsilmiş əsgərə baxırdı. Kimsənin səsi çıxmırdı. Mikayıl bu dəhşətə dözə bilməyib, irəli yeriyərək yerdə bayılmış əsgərə kömək etmək istədi. Amma yanındakı yoldaşı onun qolundan tutub saxladı. Erməni əsgərləri bayılmış əsiri qol-qıç edib apardılar...

Ertəsi gün əsirlərdən biri taqəti olmadığı üçün işləməkdən boyun qaçırdı. Buna görə, ermənilər həmin əsiri iki gün ac-susuz itlə baş-başa zəncirlədilər. Onlar itlərinə yemək, su verdikləri halda, bu əsirə içmək üçün bir qurtum su belə vermirdilər. Onun adı Azər idi, Cəbrayıl rayonundan idi. O, susuzluğa dözə bilməyib, ermənilərdən su istədi. Erməni dığası da onu ələ salmaq üçün; "mən indi sənə su əvəzinə, sizin Badamlıdan gətirəcəyəm" - deyə gedib Badamlı şüşəsində qab-qacaq yuyulmuş yaxantı sudan gətirib Azərə verdi. Azər də möhkəm susadığından fərqinə varmadan, Badamlı şüşəsini birnəfəsə başına çəkdi. İçəndən sonra onun çirkab su olduğunu hiss etdi və dərhal da geri qaytardı. Ermənilər də buna baxıb gülüşdülər.

Gündüzlər əsirləri meşəyə ağac qırmağa aparırdılar. Meşəyə qədər məsafə 3-4 kilometr olardı. Hər gün bu məsafəni ac qarına, piyada, qaça-qaça qət etmək insandan dözüm və möhkəm iradə tələb edirdi. Ermənilər əllərində avtomat silah UAZ maşınlarla onları arxadan təqib edirdilər. Onlar taqətdən düşmüş, yerə yıxılan əsirlərin üstündən maşınla keçib gedirdilər. Bu yolla on yeddi əsirimiz öldürüldü...

Mikayıl nəyin bahasına olursa-olsun qaçmağı planlaşdırmışdı. O, qaçış əməliyyatını ən yaxınlarına da söylədi, amma onlar buna razı olmadılar. Dedilər ki, buradan qaçmaq heç cür mümkün deyil. Amma Mikayılın qərarı qəti idi. "Tək də olsa, bu cəhənnəmdən qaçıb qurtulacağam!" deyə o, düşündü.

Bir gün Mikayılgili maşına yığıb bir erməni qəbiristanlığına gətirdilər. Ermənilər dedilər ki, bu gün onların bayramıdır. Ona

görə də, burada bir Azərbaycan əsgərini qurban kəsəcəklər. Kəsilmiş qurbanlıq ətindən kabab çəkəcəklər və bütün əsirlərə yedirəcəklər. İnsanlıqdan uzaq olan qaniçənlər dedikləri kimi də etdilər. Cavan, cüssəli bir Azərbaycan əsgərini qəbirlərin birinin yanına gətirdilər. Daşnak zabiti gəlib gənc əsirin qarşısında dayandı və qımışaraq soruşdu:

- Bilirsən ki, həyatının son dəqiqələrini yaşayırsan. Bəlkə, bizlərdən bir istəyin var?

Əlləri arxasında bağlanmış cavan oğlan başını qaldırıb əvvəlcə səmanınənginliklərini, sonra da məsum baxışlarla əsir soydaşlarını bir-bir seyr etdi. Və birdən üzünü saqqallı zabitə tərəf çevirdi. Bu dəmdə onun gözlərində nifrət qığılcımları parladı:

- Bəli, var. Ancaq bir az mənə yaxın gəlin - dedi.

Zabit əsirə yaxınlaşdı. Əsir qəzəbli baxışlarla ucadan dedi:

- Mən indi bir şeyə çox təəssüf edirəm ki, sizin kimi qatil və şərəfsizlərdən daha çox öldürə bilmədim. Amma bunu bilməlisiniz ki, hamınız bu torpaqlarda it kimi gəbərəcəksiniz! Leşiniz qarğa-quzğunlara yem olacaq! Siz dünyanın ən alçaq, yaltaq, hiyləgər, qaniçən və rəzil millətisiniz! Hamınız cəhhənnəm atəşində yanacaqsınız! Bu etdiklərinizə görə Allah -təala sizi əsla əfv etməyəcək!

Cavan oğlan sözünü tamamlayan kimi, qəfildən erməni zabitinin əvvəlcə üzünə tüpürdü, ardıyca da başı ilə onun sifətinə güclü bir kəllə zərbəsi vurdu.

- Ay burnum! - deyə saqqalı daşnak əlləri ilə üzünü tutub yerə oturdu.

Bunu görən erməni dığaları cavan oğlanın üstünə düşdülər, onu təpiklə, avtomatın qundağı ilə o ki var döydülər. Sonra huşsuz halda yerə uzanmış əsiri sürüyə-sürüyə gətirib bir qəbirin üstündə “uf” belə demədən, başını kəsdilər. Mikayıl bu mənzərəyə tab gətirməyib, yanında əlində avtomatlı dayanmış erməni dığasının sifətindən gözlənilmədən güclü bir yumruq zərbəsi ilişdirdi. Dığa zərbədən səntirləyib arxası üstə yerə

yıxıldı. Bu dəfə də ermənilər Mikayılı bayılına qədər əzişdirdilər. Dığalardan biri avtomatını ayağa çəkib onu vurmaq istədi, amma yoldaşı onun qulağına nəsə dedi və o, fikrindən daşındı. Çünki ermənilər QXK-nin siyahısında olan əsirləri öldürməkdən çəkinirdilər.

Daha sonra qaniçənlər başı kəsilmiş cavan oğlanın ətini şişlərə taxıb, kabab bişirdilər və hər bir əsirin başına dayanmış silah gücünə onlara məcburən yedirdilər. Sanki əsirlər bir anda özlərini Afrika cəngəlliklərində yaşayan adamyeyən tayfalar arasında olduqlarını hiss etdilər. Bu film deyildi, həyatın gerçək üzü idi! Bu erməni vəhşiliyinin, erməni faşizminin iç üzü idi!!!

Axşam əsirləri yenidən həbsxanaya qaytardılar. Onlar əsirləri sıraya düzdülər. Erməni zabiti əsirlərin qarşısında var-gəl edərək dedi:

- Bilirəm, bu gün qarnınız toxdur. Amma tox qarın başa bəladır. İndi əsgərlərim sizi axşam idmanı ilə məşğul edəcəklər.

Zabit kinayə ilə gülərək, saqqallılara tərəf döndü və onlara əvvəlki işlərilə məşğul olmağı əmr etdi. Onlar yenə də əsirləri dubinka ilə döyməyə başladılar...

Həmin axşam əsirlərdən bir neçəsi səhərə sağ çıxmadı. Erməni daşnaklarının ən çox xoşladıqları və həzz aldıqları "döyərək öldürmə əməliyyatı" idi. Onlar çəkic və ya odun parçası ilə azərbaycanlı əsirlərin başlarına vura-vura öldürməkdən xüsusi zövq alırdılar. İnsanın bu qədər işgəncələrə dözməsinə Mikayıl heyrət edirdi. Gecələr dubinkanın dəydiyi yerlər, əzilmiş sümüklər sızım-sızım sızlayırdı. Taqəti tükənmiş bəzi əsirlər isə ağrıdan tez-tez bayılırdılar. Ermənilər hər axşam əsirlərə nəsə dərman verirdilər. Onlar həmin dərmanı qəbul edəndən sonra, başları keyləşir və gündüzlər onlara verilmiş işgəncələrin heç birisini xatırlamırdılar.

Bir gün QXK-nin nümayəndələri həbsxanaya gəldilər. Bir gün öncə isə ermənilər bütün əsirlərə tapşırdılar ki, onların

rəftarından gələn nümayəndələrə şikayət etməsinlər. Amma sorğu-sual zamanı QXK-nin nümayəndələri hər şeyin şahidi oldular. Onlar əsirlər üçün pal-paltar gətirmişdilər. Gedərkən dedilər ki, bir həftədən sonra yenə gələcəklər.

Qonaqlar gedən kimi, saqqallılar əsirlərə verilmiş paltarları onların əllərindən aldılar və əsirlər şikayət etdikləri üçün onları gündə bir dəfə döyürdülərsə, qonaqların gedişindən sonra üç dəfə döyməyə başladılar. Nümayəndələr getdikdən sonra onlar əsirləri iki gün ac-susuz saxladılar.

Yanvar ayının şaxtalı bir günü idi. Daşnaklar əsirləri kameralardan çıxarıb həbsxananın həyətində cərgəyə düzdülər. Həyətin ortasında iki bayraq - biri Azərbaycan bayrağı, digəri isə Erməni bayrağı sancılmışdı. Bayraqların yanında böyük bir yemək qazanı qoyulmuşdu. Yeməyin iyi iki gün ac-susuz qalmış əsirləri dərhal vurdu. Onlar soyuqdan titrəyirdilər, buna baxmayaraq hamının könlündən bu yeməkdən dadmaq keçirdi. Amma əsirlər bilirdilər ki, ermənilər onlar üçün növbəti "tamaşa" hazırlayıblar. Bir azdan erməni zabiti əllərini arxasında daraqlamış halda gəlib bayraqların yanında dayandı və amiranə səslə dedi:

- Bilirəm, iki gündür sizə yemək-içmək vermirlər. Mən isə sizi bu gün dadlı, ləzzətli şorbaya qonaq edəcəyəm. Ancaq bir şərtim var. Sizlərdən hansınız bizim bayrağı öpüb, Azərbaycan bayrağına tüpürəcəksə, ona bax, bu dadlı şorbadan verəcəyəm. Şorbadan yemək istəyənlər buyursunlar, - deyə zabit gülərək əsgərlərə nəsə işarə etdi.

Zabitin işarəsindən sonra əsirlərə gətirib əzilmiş alüminium boşqabları verdilər. Bir müddət heç kəs yerindən tərpənmədi. Bütün əsirlər məyus halda dayanıb şorba dolu qazana həsrətlə baxırdılar. Onlar çıxılmaz durumda qalmışdılar. Bir tərəfdən acından ölmək təhlükəsi, digər tərəfdən isə bağışlanılmaz təhqir...

Bu zaman İlqar cərgədən çıxıb qürurla bayraqlara tərəf addımladı. O, əsir düşdüyü zaman Cəbrayıl şəhəri üzrə İcra

hakimiyyətinin nümayəndəsi vəzifəsində işləyirdi. Ermənilər nə qədər cəhd göstərsələr də, onu özlərinə işləməyə məcbur edə bilməmişdilər. İlqara görünməmiş işgəncələr verilməsinə baxmayaraq, daşnaklar onu sındırmağı bacarmamışdılar. Əsirlər arasında İlqarın böyük hörməti vardı...

Hamı heyrətlə dönüb İlqara baxırdı. Onlar bilirdilər ki, o bu dəfə də qeyri-adi hərəkətilə erməniləri heyrətə salacaq. Əsirlər fikirlərində yanılmamışdılar. İlqar əvvəlcə Azərbaycan bayrağının önündə dayandı, dönüb əsir yoldaşlarına baxdı. Sonra o, diz çöküb Azərbaycan bayrağını öpərək gözlərinə çəkdi. Və yenidən ayağa qalxdı, erməni bayrağına yaxınlaşaraq ona tüpürdü və tez bayrağı ayaqları altında tapdalamağa başladı. Bunu görən daşnaklar quduz itə döndülər. Onlar İlqarı bayılana qədər döydülər, sonra sürüyə-sürüyə harasa apardılar. Bu mənzərədən sonra əsirlər acından ölməmək üçün hər iki bayrağı öpmək məcburiyyətində qaldılar...

Düz on altı ay Mikayıl hər gün bu əzab və işgəncələrlə üzləşdi.

1994-cü il iyulun 14-də Mikayılı bir neçə əsirlə bərabər işləmək üçün Xocalıya gətirdilər. O, buradan hökmən qaçacağına qəti qərar verdi. Elə həmin günün axşamı o daha dörd əsir yoldaşı ilə birlikdə ermənilərin xəbəri olmadan, ölüm düşərgəsindən qaçmağa müvəffəq oldu. Onlar gecələr yol gedib, gündüzləri gizlənməyi qərara almışdılar. Qarşıda minalanmış sahələr və bir neçə erməni postu vardı. Mikayıl dedi ki, əgər yoldaşları onu dinləsələr, onlar burdan sağ-sağlam xilas ola bilərlər. Onlar bu gecə bacardıqca daha çox məsafə qət eləməlidilər. Çünki ermənilər onların qaçışından yalnız sabah xəbər tuta biləcəklər. Ona görə də, onlar sabaha kimi bir xeyli məsafə gedib, buradan uzaqlaşmalıdılar. Mikayıl yoldaşlarına bildirdi ki, ən əsası qarşımıza çıxan ilk postu keçməkdir. Bunun üçün onlar daha diqqətli olmalıdılar. Novruz

isə dedi ki, onlar posta tərəf deyil, postdan şərq istiqamətə , meşəyə tərəf hərəkət etməlidilər. Mikayıl buna qəti etiraz etdi:

- Novruz, açıq sahələr minalanıb. Sən bunları bildiyin halda, niyə həmin sahəyə tərəf gedirsən? Mən əminəm ki, post istiqaməti açıqdır, ermənilər oranı minalamayıblar. Qalan üç istiqamətin üçü də minalanıb.

- Mikayıl, bunu hardan bilirsən ki, mən dediyim yer minalanıb? Deyirsən ki, biz düz ermənilərin üstünə gedək? Onlar silahlı, biz isə əliyalın. Bu necə olacaq? Deməli, belə çıxır ki, biz göz-görəti ermənilərin qucağına, ölümə doğru gedək?! - Novruz Mikayılın fikrilə heç cür razılaşmaq istəmədi.

- Nəsə, təcili bir qərar verməliyik! - Aydın dilləndi.

Rahib isə əli ilə kiçik bir sahəni göstərib dedi:

- Bəlkə, bu sahəni keçib, meşəyə girək?

- Biz onsuz da meşəyə girəcəyik, ancaq postu keçəndən sonra. - Mikayıl fikrində israrlı idi.

- Axı, biz postu necə keçəcəyik, Mikayıl? - Novruz yenidən soruşdu.

- Biz pusquda dayanıb, ermənilərin yuxuya getməsini gözləməliyik. Sübh çağı onları hökmən ölüm yuxusu yaxalayacaq. O zaman biz də onların işini bitirərik. - Mikayıl bildirdi.

- Nə danışdığını bilirsən heç?! Biz silahsız onlarla necə bacaracayıq? - Novruz təəccübünü gizlədə bilmədi.

- Bəs sən nə düşünmüşdün? Burdan elə belə, qorxaq erməni kimi qaçıb gedək? Bəs onların bizim başımıza açdıqları müsibətləri nə tez unutdun, Novruz?! Xeyr, erməni dığalarının mənə etdikləri işgəncələrin, eləcə də ölmüş qardaşlarımızın intiqamını almadan qaçıb gedə bilmərəm. Bu fürsəti əsir düşüdüyüm gündən gözləyirəm. Mən intiqamımı hökmən alacağam. Buradan elə belə qaçıb getmək kişilikdən deyil. Əgər siz istəyirsinizsə, dediyiniz istiqamətdə qaçıb aradan çıxa bilərsiniz, - deyə Mikayıl yoldaşlarına qəti fikrini bildirdi.

Bu yerdə fikirlər haçalandığından, yollar da ayrıldı. Üç yoldaş meşəyə girmək üçün açıq sahəyə, Mikayıl isə düşmən postuna üz tutdu. O, əvvəlcə iti addımlarla, sonra isə sürünə-sürünə posta yaxınlaşdı. Postda dörd nəfər idi; ikisi sığınacaqda oturub söhbət edir, ikisi bayırda gəzişirdi. O, posta  bir az da yaxınlaşıb gözlədi. On-on beş dəqiqə keçdi. Bayırdakı ermənilərdən biri yoldaşına nəsə deyib aralandı və düz Mikayılın gizləndiyi tərəfə gəldi. Mikayıl dərhal başa düşdü ki, erməni təbii tələbatını ödəmək istəyir. Bu Mikayıl üçün göydəndüşmə fürsət oldu. Erməni avtomatını yerə qoyan kimi, Mikayıl pələng cəldliyi ilə gizləndiyi yerdən sıçrayıb ermənini qamarladı. Bunu elə bir anda etdi ki, erməni heç cınqırını belə çıxara bilmədi. O, bir göz qırpımında qavırıb dığanın boynunu sındırdı. "Bu maşınla tapdaladığınız qardaşlarımın intiqamı" - deyə astadan dilləndi. Sonra erməninin paltarını geyinib avtomat silahını götürdü, posta gəzişən erməninin yanına getdi. Pəzəvəng erməni yoldaşının gec gəldiyini görüb çağırdı:

- Akop!.. Akop!..

Akopdan səs çıxmadığından, gicgahından aldığı ölüm zərbəsindən daş kimi, o da yerə sərilib qaldı. Mikayıl onun döyüş bıçağını götürdü və bu an ermənilərin qəbir üstündə başını kəsdikləri cavan əsgəri xatırladı və bir andaca düşmənin başını bədənindən ayırdı. "Bu da qəbir üstündə başını kəsdiyiniz cavan əsgərimizin intiqamı!" - deyə gözlərində sanki qığılcım parladı.

İndi blindajdakı ermənilərin işini bitirmək onun üçün çətin deyildi. O, asta addımlarla sığınacağa tərəf getdi. Heç nədən xəbəri olmayan erməni dığaları şirin-şirin söhbət edirdilər. Mikayıl alıcı quş kimi qəfildən onların üstünə şığıdı. Onlar özlərini itirdilər və bir anda nə baş verdiyini anlaya bilmədilər. Mikayıl əlindəki bıçağı silahı götürmək istəyən erməninin boğazına çəkdi. O birisi yerindən qalxıb, silahı götürmək istədi. Amma Mikayıl ona da imkan verməyərək, bıçağı arxadan onun kürəyinə sapladı. "Bu da acından və soyuqdan ölmüş

yoldaşlarımın intiqamı!" - deyə Mikayıl dərindən köks ötürdü. O, cəhənnəmlik olmuş erməni daşnaklarının ərzaqlarını götürüb meşəyə girdi. Artıq sübh çağı idi. Bu zaman güclü partlayış eşidildi. Mikayıl yoldaşlarının getdiyi istiqamətə baxdı. Onlar minaya düşmüşdülər. Bu partlayışı ermənilərin digər postu hökmən eşitmişdi. Bacardıqca burdan uzaqlaşıb meşənin dərinliklərinə girmək lazım idi. "Ax, Novruz! Axı, sənə dedim ki, oradan getmək qorxuludur. Dinləmədin məni!" - Mikayıl yoldaşları üçün çox heyfsiləndi, üzüldü və ayağı tutduqca qaçıb meşənin dərinliklərində görünməz oldu...

Mikayılın yoldaşları minaya düşmüşdü. Rahib həlak olmuşdu, Aydın isə qılçasının birini itirmişdi. Novruz da qorxaraq daha irəli gedə bilməyib, yerindəcə oturub qalmışdı. Tezliklə digər postdakı ermənilər partlayışın səsinə gəlib, Novruzla Aydını yenidən tutub aparmışdılar. Adları Qırmızı Xaç Komitəsinin siyahısında olduğu üçün onları öldürə bilməyiblər. Çünki düşərgədən qaçan əsirlərin cəzası ölüm idi.

Mikayıl isə 14 gün gecələr yol gedib, gündüzlər meşənin dərinliyində gizlənirdi. Bu müddət ərzində Mikayıl meşədəki meyvələrdən yeyib dolanırdı. Bir axşam Mikayıl yuxuda ikən gördü ki, evlərindədir. Həyətlərində yığıncaq var. Məlum oldu ki, oğlunun toyudur. Vağzalı çalınır, ancaq oğlu Tural mağara girmək istəmir. Əmiləri ona çox təkid edirlər ki, Tural mağara girsin. Amma Tural deyir:"Atam gəlməyincə, mən toy mağarına girməyəcəyəm!" Bu zaman Mikayıl yuxudan ayıldı və gülərək dedi: "Demək, mən bu ölüm düşərgəsindən xilas olacağam. Mənə bundan sonra daha ölüm yoxdur!"

On dörd gündən sonra Mikayıl Daşkəsən rayonuna gəlib çıxdı. Beləliklə, on altı ay cəhənnəm əzabı görən Mikayıl əsirlikdən xilas oldu. O, əsir düşərkən yüz altı kiloqram idi, indi isə 64 kiloqram qalmışdı. O cür cüssəli, boylu-buxunlu bədəndən əsər-əlamət qalmamışdı. Amma Mikayılın on altı aylıq işgəncələrlə dolu əsirlik həyatını, çəkdiyi cəhənnəm

əzabını onun ermənilərdən aldığı intiqamı qismən də olsa, unutdururdu...

**20.11.2013**

# E S S E L Ə R

# Əlim yetmədi sənə

(Esse)

**N**ə qədər çalışsam da əlim sənə yetmir. Çünki indi sən məndən çox-çox uzaqlardasan. Elə bir yerdəsən ki, istəsəm də oraya gələ bilmərəm. Amma hər axşam yuxularıma gəlirsən. Nə yaxşı ki, yuxular var. Bu yuxularla təsəlli tapıram yenə... Son dəfə səninlə telefonda danışanda dedim ki, sənə bir sürprizim var, görüşəndə özün görəcəksən. Dedin ki, indi görüşməmiz hələlik mümkün deyil. Səbəbini sordum. "Qismət olsa, görüşəndə söylərəm" dedin. "Bəs nə vaxt görüşəcəyik biz? Səsində bir qəribəlik var, sanki öz səsin deyilmiş kimi," deyə nigaran halda soruşdum. "Bu görüşün tarixi - günü, saatı bəlli deyildir hələ. O ki qaldı səsimə, səsim həmin səsdi, ancaq avazım dəyişib" gülərək dedin. "Amma ömrümdə ilk dəfədir ki, səni görməyə daha çox tələsirəm. Bu tələskənlik nədənsə

əvvəlkilərə heç bənzəmir. İçimdə bir narahatlıq, bir sıxıntı, bir qorxu var” dedim.

“Qorxu?! Sən ki heç nədən, heç kimdən heç bir zaman qorxmazdın. İndi bu qorxu hardan çıxdı belə?!” deyə soruşdun. “Səni həmişəlik itirəcəyimdən qorxuram!” dedim. “Yaxşı, deyəsən o, gəlir. Qapatmam lazımdır. Onu da deyim ki, bir aya kimi zəngimi gözləmə! Buralarda olmayacağam. Öpürəm, salamat qal!” dedin.

“Əllərim əllərinə toxunmamışdı heç. İndi hardan çıxdı birdən-birə “öpürəm” kəlməsi deyə düşündüm...

Bəli, bizi bir-birimizdən ayıran, bizim bir yerdə olmağımıza mane olan onun əri idi. O, Çin Səddi kimi aramızda dayanmışdı. İki sevən könül arasında çəkilən keçilməz bir sədd!

Qovuşmağımızın mümkünsüz olduğunu bilə-bilə, yenə də nəyəsə ümid bəsləyirdik. Sən indi sevmədiyin birisiylə ailə həyatı yaşamağa məhkum olunmuş bir sevdalı, mən isə sevdiyi uğrunda canını fəda etməyə hazır olan bir aşiq...

Bir ay tamam olan kimi, sənə zəng etdim. “Bu nömrəyə zəng çatmır” deyə operator bildirdi. Həmin gün axşama qədər hər yarım saatdan bir sənə zəng vurdum. Amma operatorun eyni cavabını eşitdim. Təlaşlandım. Axşam da zəng etdim. Amma yenə də eyni cavab...

Ertəsi gün iş yerinə getdim. İş yoldaşından səni soruşdum. Qızın bir anda sifət rənginin necə dəyişdiyini gördüm. Təəccüblə üzümə baxıb: “Siz Arzunun nəyi olursunuz?” soruşdu. Heç bilmədim nə cavab verim. Qız bu sualdan tutulduğumu görüb dedi: “ Demək, xəbəriniz yoxdur!”

- Nədən?! - həyəcanla soruşdum.
- Arzunu on gün bundan öncə Türkiyədən gətirdilər.
- Necə yəni Türkiyədən gətirdilər? Arzunun Türkiyədə nə işi vardı?!

- Arzu boğazından “rak” olmuşdu. Burada əlac olmadı, ona görə də valideynləri onu Türkiyəyə apardılar. Ancaq təəssüf ki...

- Siz nə danışırsınız?! Bu ola bilməz! - bərkdən qışqırdım.

Qulaqlarımda uğultu yarandı, beynimdə sanki ildırım çaxdı, ürəyim şiddətlə döyünməyə başladı, gözlərim önündə nəhəng dalğalar sal qayalara çırpılaraq çilik-çilik olurdu...

Ayılanda başımın üzərində ağ xalatlı həkimi gördüm.

- Qorxulu bir şey yoxdur. Sadəcə həyəcandan bayılmısınız. İstəsəniz, durub gedə bilərsiniz. Keçmiş olsun, - deyə həkim mənə təskinlik verdi.

Demək, xəstə olduğunu məndən gizlədirmişsən. Hər şey yarımçıq qaldı. Nə acı taleyin varmış sənin! Ölüm üçün heyfsilənməzlər deyirlər. Amma mən sənin son gedişinə çox heyfsilənirəm. İlk dəfə səninlə görüşəndə, baxışlarında nədən bu qədər dalğınlıq, kədər, həsrət, intizar, məsumluq olduğunun səbəbini soruşdum. Sən cavabında: “Bu baxışlar nakam məhəbbətimin intizar, həsrət dolu baxışlarıdır” dedin. Elə o zaman da mən sənin o, dalğın, kədərli, intizar dolu, məsum baxışlarına vuruldum. O gündən bəri sənin o qara gözlərinin əsirinə çevrildim. O, məsum, qara gözlərə bilmədən aşiq oldum. Amma bunu uzun zaman səndən gizlətdim. Bunu sənə söyləyə bilməzdim, çünki sən ərli bir qadın idin. Talelərlə bağlı yazılarımı oxuyandan sonra özün məni axtarıb tapmışdın. Sonra sən qovuşa bilmədiyin nakam sevgindən söz açdın mənə. Dedin ki, bunu nə vaxtsa qələmə alarsan. Mən də həmin gün sənin vüsalına yetmədiyin nakam məhəbbətin barədə yazacağıma söz vermişdim. Üstündən illər keçsə də, mən sözümə əməl edib, sənin nakam eşqini əbədiləşdirdim. Onu yazılı tarixə çevirdim. Əfsuslar olsun ki, sən bunu görə bilmədin. Amma narahat olma. Mən bu kitabı sənin məzarın üstünə qoyacağam...

Sənin yoxluğuna heç cür inana bilmirəm. Bəs içimdəki boşluğu indi kim dolduracaq?! Səni belə tez itirdiyim üçün

yanıb-yaxılıram. Özümə yer tapa bilmirəm. Bu geniş dünya dar gəlir mənə. Özümü məngənə arasında hiss edirəm. Sanki hər tərəfdən məni sıxırlar, nəfəsim çatmır, ürəyim çırpınır...

Bəs bu sevginin adı nə? Səni sevdiyim üçün günahmı etdim?! “Ərli qadını sevmək günahdır” dedilər. Demək, sevgimizin adı “günah.” Sevmək, birisinə aşiq olmaq nə vaxtdan bəri günah hesab olundu?! Heç günah iş tutmaq istəmədim həyatda. Amma bu günahı etdim, biləərəkdən günaha batdım. Və sənə Məcnun tək aşiq oldum.

Bir dəfə: “Daha dözə bilmirəm. Yalan sevgidən, saxta davranışdan, riyakar səmimiyyətdən, saxta gülüşlərdən, saxta yaşamaqdan bezdim. Artıq özümü öldürmək istəyirəm. İnsanın bütün ömrü boyu maska ilə, sevmədiyi birisiylə, səni başa düşməyən, anlayış göstərməyən, məqsəd və məramı bəlli olmayan, duyğusuz, hissiyyatsız, kobud təbiətli birisiylə məcburi ömür sürməsi doğrudan da cəhənnəm əzabıdır!!!” dedin.

“Sənin fikrinlə razı deyiləm. Bədbin olmaq uğursuzluğa düçar olmaq deməkdir. Həyat gözəldir, yaşamaq isə ondan da gözəldir. Sən ümidini həyatdan üzmə. Nə bilirsən, bəlkə səni hardasa başa düşən, sənə inanan, sənin qəlbini fəth edən birisi var. O, nə vaxtsa gəlib səni tapacaq. Ona görə də ümidlə yaşamalısan!” dedim.

“Elə məni indiyə qədər yaşadan o ümidlərdir də. Yaxşı ki, sən varsan. Səninlə söhbətdən sonra bir az rahatlanıram. Yaşamaq həvəsim artır. Çünki insan onu başa düşən, qəlbən anlayan birisiylə həmsöhbət olanda istər-istəməz rahatlıq tapır. Mənə ümid verən, yaşamaq həvəsimi artıran həm də sənin yazıların oldu. Qadın dünyasına bələd olan birisi kimi, son anda məni intihardan qurtardın. Sən olmasaydın, indi mən çoxdan həyata əlvida demişdim. İndi nə yaşayıramsa, səninçün yaşayıram. Çünki sən məni qəlbən anlayan ikinci adamsan. Birincisi sənə məlumdur. Bütün rəftarınla, səmimiyyətinlə, xarakter və düşüncələrinlə eyniylə ona

bənzəyirsən. Ona görə də, onun kimi səni də itirməkdən qorxuram!” dedin.

Ax, gülüm, məni səni intihardan, böyük günah sahibi olmaqdan qurtardım. Amma zalım xəstəlikdən xilas edə bilmədim! Son anda əlim çatmadı sənə! Taleyə bir bax! İlk sevdiyin insanı da, səni də o, amansız xəstəlik apardı...

Əzizim, bundan sonra mən səni yazılarımda yaşadacağam. Növbəti yazım “Günaha batmış sevgi” olacaq...

Səndən mənə yalnız həsrət dolu baxışlar qaldı. Məndən sənə nə qaldı?! Bax, onu bilmədim!..

**25.06.2013**

# Yuxularına gələcəyəm

(Esse)

**S**əndən ayrılandan bəri yuxum ərşə çıxıb. Nə gecəm bilinir, nə də gündüzüm. Niyə ucuz tutdun bu saf məhəbbətimi? Niyə xəyanət etdin bu təmiz eşqə? Əvvəllər “səni dünyalar qədər sevirəm” deyən dilin, niyə birdən-birə “daha biz ayrılmalıyıq, biri-birimizə nifrət etmədən” deyə hamının qibtə etdiyi sevgimizə qarşı “üsyan” etdi. Nədən? Niyə səbəbini söyləmədən tərk etdin məni?! Axı, mən bu cür ayrılığa layiq deyildim. Məni dünya malına dəyişdiyini sonradan öyrəndim. O, imkanlı birisiymiş. Demək, aramızdakı saf duyğuları var-dövlətə, şan-şöhrətə satdın?! Niyə ucuz tutdun bu eşqi, bu sevdanı? Buna dəyərdimi?! Amma mən bu

eşqin heykəlini qəlbimdə əbədiləşdirdim. Daha bundan sonra qəlbimdə kimsəyə yer olmayacaq!

Niyə günahsız bir bəndəni ağlatdın?! Dərdi, kədəri muncuq kimi niyə boynuma düzdün?! Niyə küskün, incik baxışlarla dağladın məni?! Həmin gün ruhumu incitdin, qəlbimi üzdün. Həmin gün ömrümə həsrət ələndi. Yanaqlarımda kədər cığırları iz saldı. Taleyim üzümə güldüyü zaman, tamarzı qaldım sənin ətrinə! Sən mənim ülvi eşqimi yetim qoydun! Artıq sənin ürəyində ünvanım itib. Sənə verdiyim eşq əmanətini qoruya bilmədin. İndi geri qaytar o sevgimi, özümə qaytar!

İndi sənin ətrini xatirələrdən alıram. Dəniz sahilindəki o gülüş səslərin hələ də qulaqlarımdadır.Yenə də həmin sahildəyəm. Sənli xəyallara dalmışam yenə. Adın çiçəkləyir dodaqlarımda. Sevincə bürünüb kövrək duyğular. Arzular sinəmdə təzəcə çiçək açdığı zaman tərk etdin məni. Hər gecə içimdə həsrət yuxular, “görəsən, vüsal harayıma hay verəcəkmi?” deyə düşünürəm. Nədəndir ki, heç yuxularıma da gəlmirsən. Amma hardan gələ bilərsən ki? Mən ki heç yatmıram. Mən isə sənin yuxularına hökmən gələcəyəm, sən istəməsən belə. Bilirəm, yuxularına gələn gecə isinəcəksən.

Bundan sonra ömrüm bir şam kimi ərisə belə, qəm, kədər içimdə yerisə belə, mən səni yenə də gözləyəcəyəm!

Bir axşam soruşdun: “Axı, məhəbbət nədir?” Dedim: “Məhəbbət oddur, atəşdir. Qəlbi daim yandırıb-yaxar.” Soruşdun: “Bəs, onda bu atəşə necə dözmək olar?” Dedim: “Əgər bu eşq, bu məhəbbət qarşılıqlıdırsa, onda bu atəş sevən könüllərə sərinlik verər.”

İndi bayırda qar yağır. Hava soyuqdur. Bilirəm ki, üşüyürsən. Mən yenə də qəlbimlə bacara bilmirəm, sənin üşüməyinə heç cür dözmürəm. Darıxma, mən səni heç vaxt üşüməyə qoymayacağam! Hər zaman qəlbimdəki sənin eşq atəşinlə soyuq gecələrdə yuxuna gələcəyəm. Və səni eşqimin oduyla isindirəcəyəm!..

29.07.2013

# Sənsizəm

(Esse)

Pəncərə önündə sənsiz durmuşam. Amma əvvəllər bu pəncərədən ikimiz baxardıq yağan payız yağışına. İndi isə sənsizəm. Səni sevdiyimi isbatlasam da, inanmadın mənə. “Riyakarsan” deyib birdəfəlik tərk etdin məni. Bu sözündən incidim, qırıldım. Çünki bu söz düzgün ünvana deyilməmişdi. Axı, sevginin əzabı tanışdır mənə. Mən bu əzabı necə daşıyacağam? Mən səndən başqa kimsəni sevmədim, inan! Sən isə mənimlə gördüyün o, qızın kim olduğunu öyrənmədən, “bitdi eşqimiz!” dedin mənə. Sən yalnız özünü dinlədin, özünə haqq qazandırdın. Mən isə sakitcə dayanıb, məlul-məlul gözlərinə baxdım. Sən isə: “Bundan sonra gözlərimə baxıb,

qarşıma dikilib, məndən sevgi diləmə! Sənə qarşı ölmüş hisslərimi oyatmağa çalışma bir də! Gəl, məni bir də dərdə bələmə! Bil ki, başımın üstünü ölüm alsa da, sənsizlik nə qədər çətin olsa da, daha bitdi bizim eşq nəğməmiz!" dedin. Mən isə bitirə bilmədim bu eşq nəğməsini. Çünki könlümdə sənin eşqinin odunu qalamışdım. Bu odu söndürmək çətindir mənə. Sənsiz günlərimdə nə qədər çalışdımsa da, içimə axan göz yaşlarım belə sənin eşq atəşini söndürə bilmədi yenə. Çünki özümdən ucadır arzum, niyyətim. Getmir başımdan ilk məhəbbətin sevdası.

Yenə hava tutqun, dumanlı, çənlidir. Pəncərə önündə dayanmışam. İndi sən hardan biləsən ki, bu gökəmimdə yalnız səni düşünürəm, səni anıram. Sanki göz yaşımdır ələyir payız. Bilsən necə həsrətindəyəm?! Sənsiz olduğum üçün üşüyürəm bu payız günündə. İcazə ver, qəfildən döyüm qapını. Gör ki, nə haldayam, dəliyəm, nəyəm?! Bəlkə, payız mənim qəmimdən, kədərimdən belə dolub? Bəlkə, payız da dərdimə, sərimə ortaq olmaq istəyir mənim?!

İndi haraya baxıram ancaq səni görürəm. Sanki sənin surətinlə dolubdur dünya! Bəlkə mən yanacağam bu dərd içində. Bəlkə bu payız yağışı söndürəcək qəlbimdəki sənin eşq atəşini. Amma mən buna heç inanmıram. Axı, məni yaşatmağa niyə gücün çatmadı?!

İndi son yükünü daşıyır ömür qatarı. Sənsizəm. Naləm qayalardan qaya qoparır. Yelkənsiz qayığa bənzəyirəm indi. Səmtini itirmiş yolçuyam indi.

Artıq bulud ötüb, yağış dayanıb. Yerdəki gölməçələr ayna tutubdur mənə. Mən ona baxıram. Aynada tək mənəm. Sənsizəm yenə!..

**29.07.2013**

## Həsrət

(Esse)

İndi həsrət yağışı yağır içimə. Sənin səsinə tamarzı qalmışam. Sənsizlik ürəyimi yandırıb-yaxır, içimdəki tufan sanki sal qayadan daşı qoparıb apardığı kimi, nəyisə alıb aparır. Bundan sonra içimdə bir boşluq yarandı.

Bu şaxtalı qış axşamı odlu baxışlarına həsrət qalmışam. Çünki o baxışlarla isinirdim həmişə. Heç bilmədim hardan yol alıb gəldi bu həsrət?!

İndi sənsiz duyğularım da yetim qalıb. Gözlərimdən qəmkədər süzülür. Qəlbimdə sənsizlikdən bir həsrət ağacı cücərib indi. Bütün ümidlərim bu həsrət ağacının arxasından boylana-boylana qalıb. Gözlərim sənin həsrətindən yollarda qalıb. Hiss edirəm ki, sənsizlik dərdi məni son mənzilə səsləyir. Heç

olmasa bircə dəfə görün, nəfəsini, ətrini duyum. Axı ümidlərim, kövrək duyğularım, arzularım sənin nəfəsinlə boy atırdı.

Mən şehli çiçəkləri, qönçə gülləri bəxtimin üzünə tutmaq istədim. Bütün dünyanın dərdi-sərini unudub, ancaq sənin dizlərində yatmaq istədim. Nə olar, qayıt gəl! Yenidən dünyanı bağışla mənə. Qoy bitsin bu həsrət, bu acılar. Sənsiz ürəyim bu həsrəti, qəm yükünü çəkə bilmir inan!

Qayıt gəl, gülüm, qayıt! Əgər indi gəlməsən, bir gün məzarım önündə göz yaşı tökəcəksən. İstərdim həsrət bizim dünyamızdan qaçaq düşsün, kədərsə həmişəlik yox olub getsin! Qoy ümid bağçasında həsrət həmişəlik solub-soluxsun! Vüsal atəşindən çiçəklər açsın. Bitsin bu həsrət, bitsin bu ayrılıq! Nə olursa olsun, harda olursan ol, unutma ki, səni dualarımda hər gün dilə gətirəcəyəm...

Baxdıqca özümə həyat görmürəm, amma içimi dinlədikdə ürəyimin döyüntüsü mənə bir ümid verir - haradasa Sən varsan deyə. Sən mənim içimdə kədər, sevinc, göz yaşları və gülüş olan kiçik ürəyimdə böyük Dünyam idin.

İndi Sənin varlığından başqa, həyatda hər şeyim var. Amma buna baxmayaraq, özümü dünyanın ən miskin və kasıb bəndəsi hesab edirəm. Çünki Sən yanımda deyilsən!

Gəl, əzizim, yenidən qayıt, gəl mənə! Yenə əvvəlki tək tələs görüşə!!!

**24.08.2013**

# Sən gedəni

(Esse)

Sən gedəni cığırları ot-ələf basıb. Sən gedib-gəldiyin cığırlar sənin addımlarına indi yaman qəribsəyib. Sən gedəni cığırlar da həsrətinə tab gətirə bilməyib, üstündən yorğunluq yükünü atmağa hazırlaşır.

Mən hardan biləydim ki, bəzi cığırların ancaq gedişi var, dönüşü yoxdur. Gedişli-gəlişli cığırlara alışmışdım. Səbəbi nə oldu bu gedişin? Anlaya bilmədim ki! Niyə aramızda sərhəd çəkildi, ikiyə bölünmüş Azərbaycantək?!

Ürəyimdə kök salan sevgin, nədən sənin qəlbində bir tikan oldu? Mən səni qəlbimdə sevgi atəşi ilə isindirirdim. İndisə hardasa soyuqlamısan.

Son dəfə məndən ayrılanda, nədənsə gözlərini gizlədirdin. İndi anlayıram ki, gözlərini məndən niyə gizlədirdin. Sən ondan qorxurdun ki, gözlərində başqa birisinin gizləndiyini görə bilərəm. Bundan bildim ki, niyə son vaxtlar gözlərin gözümə baxmaqdan utanır. Çünki günahkar sən idin. O günah yükü kirpiyindən sallanaraq göz qapaqlarını aşağı dartırdı...

Sənə vəfasızmı deyim, bilmirəm. Allah da şahiddir ki, sevgimizə heç zaman xəyanət etmədim. Bu ülvi, saf eşqi həmişə qoruyub saxlamağa çaılşdım. Sən isə bu eşqin qədr-qiymətini bilmədin. Görünür, sevgi, məhəbbət yollarında naşı bir yolçusanmış. Onun üçün də sevgimi bu cür ucuz tutdun, onu anlamağa heç çalışmadın da. İçimdə açmış sevda çiçəklərini nə tez soldurdun?!

Sən gedəni bu eşq atəşindən yaşıl ot odda necə qıvrılaraq yandığı kimi, mən də onun kimi yanıb-yaxılıram.

Sən gedəni intizarından gecələr də uzun göründü mənə.Yatmaq istəyirəm. Deyirəm, bəlkə yuxularıma girərsən. Heç olmasa yuxuda səni görmək istərdim. İndi yeganə təsəllim budur.

Sən gedəni bağçadakı o bülbül də daha nəğmə oxumur. Sanki o yazıq quşcuğaz da bizim nakam eşqimizə yas saxlayır. Sən gedəni daha çiçəklər də açmır. Sən demə, güllər, çiçəklər də həsrətə dözə bilmirmişlər.

Sən demə, çiçəkləri, gülləri də təravətləndirən eşq, sevgi imiş...

**24.08.2013**

# Şəhid anası

(Esse)

Gözləri yollara dikilib Şəhid anasının. Təsəlli verir özü-özünə: "Mənim balam məni belə tənha, gözüyaşlı qoyub getməz! O məni heç bir zaman yalqız buraxmayacağına söz vermişdi! Vüqar balam mənə heç zaman yalan danışmazdı. Onun qəlbində düşmənə hədsiz nifrət hissi vardı. Həmişə əsəbiləşib deyirdi: "Haqlı olduğumuz halda, bütün dünya yenə də "onlara" gözün üstə qaşın var demək istəmir. Torpaqlarımızı işğal etdikləri bəs deyil, hələ bir dünya ictimaiyyətinin gözündə özlərini haqlı çıxarmağa çalışırlar. Çünki arxaları böyük güc sahibinə bağlıdır. Kaş ki, üççə gün dığaların ağası onlardan üz döndərəydi, o zaman türkün kim olduğunu onlara göstərəydik. Nə edək ki, beynəlxalq aləm: "bu

münaqişə sülh yolu ilə həll edilməlidir!" deyərək əl-qolumuzu bağlayır. Özündən qat-qat zəif birisinin sənin doğma ata-baba torpaqlarında at oynatması istər-istəməz adamın qüruruna, şəninə toxunur."

Ana oğlunu əsgərliyə yola salarkən o, geri qanrılıb, günahkarcasına anasına baxaraq deyir: "Əgər geri qayıtmasam, bağışla məni, ana! Haqqını halal et! Əlimə fürsət düşən kimi, düşməndən intiqam almağa çalışacağam! Yoxsa vicdan əzabı, torpaq namusu məni heç zaman rahat buraxmaz!" Elə də oldu. Düşmən növbəti dəfə təxribat törədərək, səngərlərimizə doğru irəliləyiblər. Bu zaman şiddətli atışma başlayıb. "Daha bundan yaxşı fürsət ola bilməz! Göstər özünü! İndi o quduz köpəklərin payını vermək vaxtıdır!" deyə Vüqar düşmənin başına od yağdırır. Vüqarın əl pulemyotundan açdığı atəşlə bir neçə düşmən torpağa sərilir. Qalanları hücuma keçdiklərinə peşman olaraq, yoldaşlarını döyüş meydanında qoyub, geri qaçırlar. Bu zaman düşmən snayperinin açdığı atəş Vüqarın gənc həyatına son verir.

İndi şəhid anasının həsrət dolu baxışları yollara dikilib qalıb. Söz kimi, göz yaşları da ananın yanaqlarında eləcə də donub qalıb. Sanki göz yaşı ananın yanaqlarında hələ yol gedir kimi görünür. Yaşamaq ana üçün indi bir aldanışdır. Qara qanlar axır ananın qəlbindən. Onun qəmli ürəyində bahar öz yerini əbədi olaraq qışa vermişdir. Yollara göz dikməkdən Şəhid anasının arzusu, ümidi qırış-qırışdı.

Ələnib ömrünə həsrətin qarı, hər yerdən bağlayıb fələk yolları. Dərd, kədər sarmaşıq tək sarılıb ananın boynuna. Oğul dərdiylə yol gedir Şəhid anası!

Hər ötən axşamı, açılan səhəri intizarla, həsrətlə, qəhərlə qarşılayır Şəhid anası! O, qəhrəman oğlu haqqındakı xatirələri indi göz yaşlarıyla yuyaraq əzizləyir.

İndi Şəhid anası heç kəsin görə bilmədiyi, duymadığı şəhid oğluna qəlbində ağrı-acıdan, dərddən, kədərdən, iztirabdan, həsrətdən əbədi bir heykəl qoyubdur!..

**02.12.2013**

# Mənə dözüm ver, İlahi!

(Esse)

Bu nadanlardan, riyakarlardan, məddahlardan, yaltaqlardan, namus və şərəfini heçə sayanlardan, mənən kasıblardan, qürursuz, ləyaqətsiz, mənliyini iki quruşa satanlardan, əqidəsi sürüşkənlərdən, eşqinə, torpağına, Vətəninə, ailəsinə, mənliyinə sahib çıxa bilməyənlərdən, rüşvəti həyat amalına çevirənlərdən, özünü, axirətini unudanlardan, yarımçıq "insan"lardan, soy kökündən uzaq düşmüş, harınlaşmış məmurlardan, saxtakar, həmişə yalan danışanlardan, etibarsız dostlardan, xəyanətkar yoldaşlardan, dinsiz-imansızlardan, məsləki məlum olmayanlardan məni hifz elə, İlahi!

Sənin yaratdığın bəndələrin hansı oyunlardan çıxdığını Sən bizdən daha yaxşı görürsən, İlahi! Çünki Sən hər şeyi görən və bilənsən. İndi mən bu insan cildinə girmiş şeytanlardan qaçıb harada gizlənim?! Bilirəm, bu mümkün deyil. Onlarla çiyin-çiyinə yaşamağa məhkum olunmuşuq. Ancaq onlar da yağışdan sonra çıxan göbələklər kimi günü-gündən çoxalır. Düz söz kəsərdən düşüb, haqsız özünü haqlı sayır. Yalan insanlara həqiqət donunda sırınır. Oğul onu əkən dogma atasına qarşı çıxır, ona hörmətsizlik göstərir, bəzən isə kiçik bir mübahisə üstündə onu qanına qəltan etməkdən belə çəkinmir. Ar-namus deyilən daha bir şey qalmayıb. Böyük-kiçik pərdəsi aradan götürülüb. İstədin-istəmədin yaşadığın cəmiyyətin yazılmamış qanunlarına tabe olmalısan. Bu qanunlar sənin əleyhinə yönəlmiş olsa belə. "Demokratiya" pərdəsi altında sənə hər gün "avtoritarizm şorbası" yedizdirirlər. Uzun illərdən bəri tanıdığın, etibar etdiyin, ürəyini açdığın dostun, iş yoldaşın sənə arxadan elə bir zərbə vurur ki, ömrün boyu bunun acısını unuda bilmirsən. Sevdiyin qız sənə xəyanət edir. Buna görə o, heç tükünü belə darağa vermir. Ömründə, həyatında ilk dəfə rastlaşdığın bir adam sənin üzünə at kimi dirənir, nəticədə səni haqsız yerə həbs edirlər. Ədalət məhkəməsindən: "Axı nəyə görə?!" deyə soruşanda, o, da cavabında: "Yuxarıların göstərişidir. Burada bizlik bir iş yoxdur. Biz də buyruq quluyuq" deyir. Budurmu ədalətli cəmiyyət?! Budurmu hüquqi dövlət?! Cəmiyyətdə insanların haqlı şikayətlərinə baxılmayanda, haqsız yerə incidiləndə, hüquqları tapdalananda, qüruru, şərəfi, mənliyi şərəfsizlər tərəfindən ayaqlar altına atılanda, o zaman insanlar arasında intihara cəhd halları çoxalır. Haqsızlığa, ədalətsizliyə dözməyən insanlar son çarəni intiharda - hamının gözü qarşısında özünə od vurub yandırmaqda görür. Heç nəyi vecinə almayan harınlaşmış məmurlar isə bu odu pulla, rüşvətlə söndürməyə çalışır. Kağız üzərindəki qanunlar isə sanki aşağı təbəqə üçün yazılmışdır. Bu "ədalətli qanunlar" demokl qılıncı kimi cəmiyyətin yalnız

kasıb təbəqələrinin başı üzərində asılıb qalmışdır. Yuxarılar üçün isə bu qanunlar heç bir əhəmiyyət kəsb etmir. Onlar "atları"nı istədikləri kimi, istədikləri səmtə çapa bilirlər. Kimsə onlara "gözünün üstə qaşın var" deməyə cəsarəti çatmır.

İndi hamı özünə arxa axtarır. Arxan yoxdursa, sənə yaxın durmurlar, səni eşitmirlər, ən önəmli təkliflərin, ideyaların, mütərəqqi fikirlərin, elmi kəşflərin həyata keçilməsi mümkünsüz olur. Dediyin hər bir qiymətli sözün nadanlar yanında qiymətsiz olur, sözün kəsərdən düşür. İlahi, Sən mənə dözüm ver! Məni bu əbləhlərə möhtac etmə! İlahi, Sən özün mənə dayaq, arxa ol! Ümid yerim yalnız Sənsən, ya Rəbbim!

Şair dostum Əlizadə Nurinin dediyi kimi: "Gərək heç vaxtını almayaydım, İlahi! …Gileyimdən incimə, lütfünə qurban, İlahi! Səndən heç nə istəmirəm, mənə dözüm ver, Allah! Başım üstə dayanan bu başıboş başlara, bu ürəyi daşlara, bu oğru başılarına, bu əfəl əbləhlərə, taleyimə dolaşan min rəngli kələfləri çözə bilməyim üçün mənə dözüm ver, İlahi! … Çəpər çəkib yoluma, Qurd olmaya-olmaya Qurd kimi ulayanlar, bax bu zatı qırıqlar, bu meydan sulayanlar, hər axşam mədəsini o meydən sulayanlar… Kimə namə yazdımsa, bir kimsədən mənə cavab gəlmədi. Ha gözlədim "can" deməyə bircə cənab gəlmədi… İlahi, dediyim sözlərə görə hər yandan qılınclar enir üstümə. Sən gəl, mənə qalxan ol! Allah, mənim arxam yoxdur, Sən başım üstə arxam ol!"

Məni yaşadan, bu gün həyatda ayaqda durmağıma səbəb Sənə olan inamım və ümidimdir, İlahi! İçimdəki imandan heç zaman uzaq düşmədim, ən çətin anımda belə. Güvəndiyim insanlardan üz döndərəndə də, yalnız Sənə sığındım, Sənə pənah gətirdim. Sən mənə sahib çıx, ya Rəbbim!

**04.02.2014**

## Kaş biləydin ki...

(Esse)

Səni sevdiyimi kaş ki, biləydin. Hardan düşdü bu od canıma bilmirəm. Ancaq onu bilirəm ki, səni görən gündən bu od içimi yandırıb-yaxır. Bilirəm ki, içimdəki atəşi bayıra çıxara bilməsəm, tezliklə yanıb kül olacağam. Axı bunu sənə necə izhar edim? Bu bir gizli eşq! Yalnız mənim duyduğum, mənim iç dünyama məxsusi bir eşqdir. Bundan kimsənin xəbəri yox belə. Bunu sənə necə söyləyəcəyəm?! Sən bu mübhan eşqə necə cavab verəcəksən? Bilmirəm! Bircə onu bilirəm ki, eşidən kimi qımışıb, güləcəksən mənə. Bəlkə də: “Bu mümkün deyil, Aşiq! Sən gecikmisən. Mən artıq başqasının yarıyam!”

deyəcəksən. O zaman mən də təəssüflə: “Axı niyə bu qədər gec çıxdın qarşıma? Bəs indiyə kimi haradaydın?!” deyə əllərimlə başımı döyəcləyəcəyəm. Mənmi gecikdim bu sevdaya, yoxsa sənmi tələsdin bu mənsiz eşqə?! Allahım, indi mən nə edəcəyəm?! Bu gizli eşqi sevdiyim insana necə söyləyim?!

Ünvanını öyrəndim. Qapınıza qədər gəldim. Amma qapının zəngini çalmağa əlim qalxmadı. Qapının önündə donub qaldım, sanki heykələ döndüm. Bəli, bu bir gizli eşq heykəli idi. Geri döndüm. Düşündüm ki, səni sevəninin yanında aşağılamayım. Sənə qarşı anlayışsızlıq göstərib, səni qınaya bilər. Bəlkə də zəif iradəli olub səndən uzaqlaşa bilər, səndən soyuya bilər. O zaman günahkar olduğum üçün özümü heç cür bağışlaya bilmərəm. Bir ailə səadətinə qıyıb, sevənlər arasında qanqal ola bilmərəm. Buna mənim nə əxlaqım, nə tərbiyəm, nə düşüncə tərzim, nə də ki sevgiyə olan etibarım, sadiqliyim və inamım yol verə bilər. Elə isə bircə yol qalır: bu gizli eşqdən heç kim xəbər tutmadan qəlbimdə əbədi gömmək! Bəs sonra  halım necə olacaq? Mən bu sevda yükünü qəlbimdə necə daşıya biləcəyəm?! Buna gücüm, iradəm, səbrim çatacaqmı?!

Xoşbəxtlik axtarırdım, sən çıxdın qarşıma. Dost-tanışlar, qohum-əqraba hər dəfə məni qınayırdılar: “Daha bəsdir, bu qədər subay gəzib-dolaşdın! Evlənmək vaxtın ötüb keçir. At bu subaylığın daşını. Sevindir atanı, ananı, bacı-qardaşını. Sevindir səni sevənləri!” İndi mən onlara səni sevdiyimi, xoşbəxtliyimi yalnız səndə tapdığımı necə söyləyim?! Söyləsəm, gülərlər mənə. Amma hiss edirəm ki, içimdəki və axtardığım xoşbəxtlik məhz sən imişsən! Bağırmaq istəyirəm: “Ey canıma eşq alovun salan, Mələk, hardan çıxdın qarşıma?! Kaş biləydin ki, səni necə sevirəm!”

Taleyə bir bax. Sevirəm, sevgimi deyə bilmirəm. Kövrək duyğularım ağladır məni.  Getdiyin yollara həsrətlə baxıram. İnan ki, səni o yollara da qısqanıram. Dünənki tədbirdə yenə

də qarşılaşdıq. Hamıya təbəssüm hədiyyə etdin. Mən isə başqalarına dostcasına ərmağan etdiyin bu təbəssümləri də onlara qısqandım. Qısqandım təbəssümlərini sən duymadan.

Səni sevdiyimi kaş ki, biləydin. Bilirəm, bu gizli, nakam məhəbbət öldürəcək məni. Kaş bircə gecə yuxuna girə biləydim. Aşkara sevdiyimi deyə bilmədiyimi, heç olmasa yuxuda sənə bəyan edərdim. Kaş ki, deyə biləydim: “Sevirəm Səni!”

İndi sənin həsrətin mənim yuxusuz gecələrimə çevrilib. Sən isə bu gecələrin sənsiz açılan səhərisən. Bilirəm, sənin eşqin mənə ən böyük acı çəkdirir. Amma səni düşündükcə, içimə axan göz yaşları mənə ən böyük sevinc yaşadır.

Səni sevəndən bəri daha kimsəni yaxınıma buraxmıram. Nədənsə yalqız qalmaq istəyirəm həmişə. Dost-tanışlardan da uzaq qaçıram. “Niyə birdən-birə dəyişdin?!” deyə hamı məni qınayır. İndi mən iç dünyamla baş-başa qalmışam. Orada ancaq tək sən varsan. Səndən başqa kimsəyə yer yoxdur bu dünyada! İndi sən mənim içimdə kədər, qüssə, sevinc, göz yaşları olan böyük Dünyamsan!

İlahi, bəs “niyə evlənmirsən?” deyə məni qınayanlara başqasının halalını canımdan artıq sevdiyimi necə bəyan edim?!.

**22.01.2014**

# Həsrətə dözmür ürəyim

(Esse)

Sən məni tərk edəni bir il olub. Amma unuda bilmirəm sənli günləri. Bu gedişin, bu incikliyin səbəbini mənə anlatmadan saf eşqimizə, məhəbbətimizə əlvida dedin. Nədən?! Hələ də bu sualların girdabında çabalayıram, amma özümə təsəlli verə biləcək bir cavab tapa bilmirəm. Təsəllim yalnız onda oldu ki, düşündüm: “Bəlkə, sevgilim məni həsrətlə sınağa çəkir. Hardasa qayıdar geri, bitər bu həsrətli günlər!”

Sənsə geri qayıtmadın. Niyə səni özündən də artıq sevən birisinin saf eşqini yetim qoydun bu dünyada?!

Sən dəfələrlə məni dəlicəsinə sevdiyini bəyan etmişdin. Bəs necə oldu ki, birdən-birə, mənə nəsə anlatmadan tərk edib, getdin? Bu gedişdə günahım vardısa, gərək deyəydin. Bu cür səssiz-səmirsiz getməyəydin kaş! İndi bütün günahları məndə görürlər. "Qızın qəlbinə möhkəm toxunub, yəqin ondandır tərk edib!" deyə düşünürlər. Mənsə özümə heç cür bəraət qazandıra bilmirəm. Allah şahidimizdir ki, mən hər zaman təkcə sənin sevginə möhtac olmuşam. Mən bu gün sənə yenidən qovuşmaq ümidi ilə səbr edib gözləyirəm. Həsrətə dözmür ürəyim. Qayıt gəl, Gülüm! Yenidən qayıt gəl, ömrümə, günümə! Mən sənin üçün uzaqdan sevməyə də, sənə baxmadan görməyi də, göz yaşlarımla gülməyi də, qovuşmaqdan ötrü səbr etməyi də öyrəndim. Amma bircə sənsizliyə əsla öyrəşə bilmədim!

Bircə gün səsini eşitməyəndə, ürəyim çırpıntıdan az qalırdı ki, yerindən çıxsın. Amma indi ürəyimdə bir həsrət heykəli ucalıb. Bu həsrət heykəlini əritmək üçün indi sənin əvvəlki tək isti, yanar, odlu baxışların lazım deyil. Bu heykəli əritmək üçün indi sənin sadəcə soyuq baxışların da buna kifayət edər. Əzizim, mən səni indi yağışı gözləyən torpaq kimi gözləyirəm. Mən səni küləyi gözləyən yarpaqlar kimi əsirəm. Dodaqlarım sənin sevginə susamış dodaqlar kimi titrəyir. Səni dəlicəsinə gözləyirəm! Qayıt gəl, vəfalı eşqinə sahib çıx, Gülüm! İnan ki, əgər sən dalğa olsan, mən sənin dənizin olaram. Sən yandırıb-yaxan atəş olsan, mən sənin külün olaram. Mən sənin əbədi sevgin olmağa hazıram, Gülüm! Mənimlə olduğun günlərdə qəlbimdə üç çiçək böyütdüm. Biri sevgi çiçəyi, biri sevilmək çiçəyi, biri də həsrət çiçəyi. Sən gedərkən bu çiçəklərin ikisini qəlbimdən qoparıb apardın. Mənə yalnız həsrət çiçəyini saxladın, Gülüm! Bu gün sənin həsrətinə dözmür ürəyim artıq! Kaş ki, yenidən payız yarpaqları tək xəzana dönmüş həyatıma qayıdıb gələydin, Gülüm!!!

**13.01.2014**

# Mənimçün heç qocalmadın ki...

(Esse)

Ana!!! Gözümün işığı, döyünən ürəyim, danışan dilim, düşünən beynim! Sənsiz sanki mən deyil, bütün dünya yetim qaldı! Sənin gedişin hamımızı yandırıb - yaxdı. Hələ ki, inana bilmirəm yoxluğuna. O, nurani çöhrənə elə alışmışdıq ki! Sən dünyadan doysan da, övladlarından heç doymadın. Yuxularına haram qataraq, bizi böyüdüb ərsəyə çatdırdın. Yuxusuz gecələr üçün heç vaxt heyfsilənmədin də. Son günlər elə bil ki, bu fani dünya ilə vidalaşacağını duymuşdun. Yamanca həlimləşmişdin, dinməz olmuşdun. Gözlərin bir nöqtəyə dikilir,

uzun yol getdiyinə işarə edirdi. Bir gün süfrə başında hamımıza müraciətlə: “Balalarım, bir-birinizin qədrini bilin. Məndən sonra aranızda umu-küsülük olmasın, mehriban yaşayın, nahaqdan kimsənin qəlbini qırmayın, həmişə bir-birinizin hayına-harayına yetişin. Öz gücünüzə güvənin, öz zəhmətinizlə dolanın. Çalışın ki, evinizə haram tikə gətirməyin. Dedi-qodudan, qeybətdən, nahaq danışıqdan uzaq olun. Ailənizdə daim mehribançılıq, inam və səmimiyyət olsun. Çətin gününüzdə ancaq Allahın dərgahına, mərhəmətinə sığının, Ona pənah aparın!” - dedin.

Nəvə - nəticələrinlə öyündün, onlarla fərəhlənib qürrələndin. Onlara baxıb: “Daha bu dünyada arzu-kamım qalmadı” dedin. Hamımızın qəlbində özünə bir dağ məhəbbəti yaratdın. Niyə bu həsrəti bizlərə qıydın, Ana?! Sənin həsrətindən necə yanmayaq?! Bir övlad ömrünü niyə borc almadın, Ana? Çünki Sən onların heç birisinə qıymazdın. Həmişə: “Onlara gələn qada-bala mənə dəysin!” deyərdin. Analar övladlarından ötrü canlarını fəda verirlər. Sən belə analardan idin.

Ölümünlə ümidlərimizi qıran dünya boyda dərd qoydun bizə. Heç bilmədim niyə belə erkən özünü yetirdi bu ölüm qatarı. Sənli həyatımı nə tez alıb apardı? Niyə bu qatar tələsdi belə?! Kaş ki, bir az da gecikəydi bu həsrət qatarı! Bu elə həsrət ki, ürəyim dözməyir bu sonsuz dərdə. Deyirəm ki, kaş bu qatar məni aparaydı anam əvəzi.

Ana, qəlbim həsrətindən param-parça oldu. Göz yaşlarım sel olub qəlbimə axdı. İndi hər yerdə gözüm səni arayır. Sənsiz günlərimiz çətindir, Ana! İndi o doğma çöhrənin, o məsum baxışının, o xoş sözlərinin həsrətindəyik. Bilirəm, bizimçün çox darıxmısan. Artıq uca göylərdən baxırsan bizə. Kaş ki, yenidən qayıdıb bizə dönə biləydin! İnan ki, mənə bəxş etdiyin ömür payımı heç çəkinmədən sənə qurban edərdim. Bu həsrətə dözmək çox çətindir, Ana! Sən gedəni sanki dərdlərimiz də çoxaldı. İndi anladıq ki, hər bir evdə Ana

təsəllisi bütün dərdlərin dərmanı imiş. Hər dərdimizə yananım, Ana! İndi biz ana südünə həsrət qalan quzular kimi, Sənin yoxluğuna mələr quzulara dönmüşük. Ana, sən gedəni sevincli günlərimiz, xoş günlərimiz yasa döndü. Sən gedəni neçə payız ötdü, neçə qış ötdü. Sənsizlik dərdi, həsrət dolu günlər qəlbimizdən daş olub sallandı. Sən gedəni ömrümüzdəki bahar gülləri daha çiçək açmadı. Sanki onlar da Sənin gedişinə yas saxlayır, həsrətindən boynu bükük qalıblar.

Indi mənə ən yaxşı təsəlli Sənin hər gecə yuxularıma gəlməyindir. Yuxularda yenidən təbəssümlü çöhrəni görür, məsum baxışlarını seyr edirəm. Həlim xasiyyətli, kövrək qəlbli, mehriban, qayğıkeş, övladları üçün fədakar, kişi qeyrətli, Anam! Ötən gecə yenə yuxuma gəlmişdin. Sənin sağında və solunda mələklər vardı. Mənim mələk simalı, Anam. Özüm boyda sevincimi, kədərimi öz qəlbinə qatanım, Ana! Bizim dərd-sərimizi öz qəlbində bizdən gizli çəkdin həmişə. Duaların üstümüzdən heç zaman əksik olmadı. İndisə gözümüzü yollarda qoydun, həsrət dolu dünyam mənim, xoş baxışlı, Anam mənim!

Xeyli vaxtdır isti nəfəsinə, nəvazişinə həsrət qalmışıq. Heç cür rahat ola bilmirəm. Gecələr narahat yatıram. Həmişə deyərdin: “Övlad ana qoynunda yatmasa, rahat olmaz!”

Ana, indi mən sənsizlik dərdinin karvanına bir sarvan olmuşam. Bu ayrılıq sinəmizi dağladı. Hər dəfə məzarın başına gedəndə, sanıram ki, indicə məzardan qalxıb boynumuza sarılıb deyəcəksən:“Yaxşı balalarım, bəsdir ağladınız! Bilirəm, mənsiz sizlər üçün çox çətin oldu. İndisə həyatımıza yenidən davam edək! Mənsiz günlərinizə əlvida deyək! Qoy yenidən həyatınız qaynayıb, coşsun! O nigaran baxışlara, qəm karvanına, dünyanın həsrət yükünə birdəfəlik vida deyək! Bütün aləm duysun ki, Ana övladları üçün heç bir zaman ölmür. Analar övladların, övladlar isə anaların qəlbində əbədi yaşar!”

Bu təsəlliyə mən də qoşuluram. Çünki övladlar anaların gözündə qocalmadığı kimi, analar da övladların qəlbində ilk gördükləri tək həmişə cavan qalarlar!..

**08. 01. 2014**

## Başqasına dəyişdin məni

(Esse)

Məni tərk edib, başqasına dəyişdin. Səni saf, ülvi bir məhəbbətlə sevən birisini, sənin gözlərini pul, qızıl, ləl-cəvahirat, şan-şöhrətlə dolduran birisiylə əvəz etdin. Bu sahədə siz qadınları o qədər də qınamaq olmur. Çünki sizlər bu parıltılara daha asan aldanırsınız, gözləriniz tez qamaşır, başınız həmən hərlənir, bu var-dövlətdən tez məst olursunuz. Necə ki sən də məst oldun. Sən mənim saf, təmənnasız eşqimə xəyanət etdin. Xəyanət isə heç bir zaman bağışlanmır. “Səni ölüncəyə qədər sevəcəyəm!” deyirdin. Bəs harda qaldı o sevgi, o eşq?! Demək, hamısı yalanmış. Sənin mənə qarşı olan sevgin də, səmimiyyətin də yalanmış, saxta imiş. Getdiyin oğlanı yaxşı tanıyıram. Onun məndən heç bir xüsusiyyəti

üstün deyil. Nə boy-buxunda, nə yaraşıqda, nə xasiyyətdə, nə də ki sevgidə. Onun məndən ancaq bir üstün cəhəti var ki, o da onun varlı-karlı olmasıdır. Sən vara aldandın, ay vəfasız! Bir gün peşman olacaqsan məni tərk etdiyin üçün. O zaman artıq çox gec olacaq. Çünki bizim aramızda geri qayıda biləcək heç bir körpü qalmayacaq. Sən məyus olmuş halda, yazıq görkəmdə dayanıb uzaqdan mənə baxacaqsan. Mənsə sən tərəfə heç baxmayacağam da! Sevgin mənim üçün çox əziz idi. O sevgini sındırdın, param-parça etdin. Bundan sonra hələ bir sənə yenidən baxmağımı da istəyirsən?! Əsla! Mən sənə qarğış etmək istəməzdim. Amma gör ki, məni gedişinlə necə yandırmısan, onunçün səni qarğıyıram. "Qoy sənin sevincin hər zaman kədərə dönsün! Qoy sənin sevdiyin hər zaman sındırsın səni! Görüm ki, qüssə, həsrət, qəm-kədər çöhrəndən heç zaman əksik olmasın! Arzun, muradın içində qalsın!" Mən səni deyil, sən məni itirdin, ay bivəfa! Sən bunu daha sonralar anlayacaqsan. Sən mənim saf eşqimi qarşılıqsız buraxdın. Mən öz eşqimə sahib çıxdığım zaman, sənsə ona xəyanət etdin.

Mən sənə olan eşqimi uca dağlardan axan şəlalərə, sahilə can atan dalğalara, gecənin qaranlığında göydə sayrışan ulduzlara, dağ çeşməsinə, şəlalənin coşqusuna bənzətdim hər zaman. Sənsə...

İndi mən səni ürəyimdən necə qoparıb atacağım barədə düşünürəm. Bunu bacaracağammı?! Bilmirəm! İndi mənim sənə qarşı olan sevgim nifrətlə əvəz olunub. Sənə hədsiz nifrət edirəm! Çoxları deyir ki, əgər sən sevginə bu qədər nifrət edirsənsə, deməli onu heç sevməmisən. Deyirlər insanı sevmək üçün bir an belə kifayətdir. Bəs unutmaq necə? Buna da bir an bəs edərmi? Amma deyilənə görə, sevdiyin insanı unutmaq üçün bəzən bir ömür bəs etməz. Mənsə buna inanmıram. Səni necə sevdiyimi sən daha yaxşı bilirdin. Daha yuxularıma da gəlməyini istəmirəm. Birdəfəlik həyatımdan

çəkilib getməyini istəyirəm. Sən gedəndən sonra, bəlkə rahatlıq tapdım. Yoxsa, bu həsrət yükü məni bitirə bilər...

**14.01.2014**

## Dost itkisi

(Elegiya)

“Ölüm haqdır, ondan qaçmaq olmaz!” deyirlər. Ancaq bu ölüm çox erkən gəldi. Mən istərdim ki, dostlarım barədə həmişə xoş sözlər yazım, ancaq bu gün mənə çox etibarlı, səmimi, mehriban, sədaqətli bir dostum, tələbə yoldaşım barədə ağı, elegiya yazmaq nəsib oldu. Əgər Səndən yazmasaydım, dəftər də, qələm də məndən küsər, inciyərdi. Amma Səndən yazmaq mənim üçün çox çətindir. Axı dost itkisi ağır olur. Onu hər kəs qaldıra bilmir. Elə mən də xeyli vaxtdır ki, bu əbədi gedişə, bu acıya alışa bilmədim. Ölüm xəbərini eşidən zaman bir müddət özümə gələ bilmədim. Əvvəlcə inanmadım. Dedim bəlkə, bu xəbər yalan olar.

Bununla özüm-özümü aldatmaq istədim. Ölüm kimsədən soruşmadan, kimsəyə xəbər vermədən, gözlənilmədən, qəfildən qapını döyür. Bu əbədi gedişə, "indi ölümə hazıram" deyənlər də olur, "mən hələ həyatdan doymamışam" deyənlər də. Sən bu həyatdan doymayan, vaxtsız köç edənlərdən oldun, Aygün! Fələk nə tez qıydı Sənə?! Çiçəkli baharına nə tez qar yağdı?! Sanki dağ basıldı səni sevənlərin köksünə. Sanki bir hicran yağışı yağdı səni sevənlərin qəlbinə. Özündən sonra xoş xatirələrin qaldı. Bu xatirələr səni sevənlərin könlündə əbədi bir heykəl ucaltdı ki, heç zaman unudulmayasan. Sən gedərkən xatirələrin qalsa da, ancaq içindəki gözəlliklər də Səninlə bərabər getdi.

Niyə istəklilərini belə tez tərk edib getdin, Aygün?! Niyə gözü yaşlı, qəlbi nisgilli qoydun o, gül balaları-Aytəni, Pərvini, Rənanı? Hələ səni dünyalar qədər sevən Arifi, yaxınları, qohum-əqrabaları demirəm!..

Aygünün ölüm xəbərini mənə telefon vasitəsilə qrup yoldaşım Ellada verdi. Sənin həyatda yoxluğun xəbərini mənə çatdıranda, sanki beynimdə ildırım çaxdı, bir anlıq nitqim tutuldu. Otaq yoldaşım Ramiz müəllim əhvalımın birdən-birə dəyişdiyini görüb, həyəcanla soruşdu:

- Camal, sənə nə oldu?!

Telefonun o biri başında isə Elladanın təkrar-təkrar: «Camal, Camal!» - deyə ucadan gələn səsi eşidilirdi. Bir azdan özümə gəlib Elladaya cavab verdim. Ancaq bu dəfə nə onun dediyini eşidirdim, nə də ki, ona dediklərimin fərqində idim.

Görəsən bir nəfər tapılarmı ki, desin Aygün nə vaxtsa onun xətrinə dəyib, və ya kimsəni incidib. Oxuduğumuz beş il müddətində hər cür hadisələrlə qarşılaşmışıq. Bəzən böyüklərdən, hətta müəllimlərdən, yaxınlardan, dostlardan və qrup yoldaşlarından gördüklərimiz haqsızlıq, etinasızlıq, xudbinlik bizlərin heysiyyatına toxunur, istər-istəməz qəlbimizi incidirdi. Bütün zamanlarda insanın əsl qiymətini vermək çətin olub. Müxtəlif xarakterli, insanlarla dil tapıb, onlarla səmimi, yoldaşlıq, dostluq körpüləri salmaq o zaman hər qrup nümayəndəsinə nəsib olmurdu. Amma Aygünün özünə qarşı tələbkarlığı, prinsipiallığı, ətrafdakıları dərhal başa düşüb, onlarla anlaşması, ən mübahisəli məsələləri belə sülh yolu ilə həll olunmasının tərəfində durması, istər-istəməz hamının bu qıza qarşı olan rəğbət hissini artırırdı.

Aygün həmişə çalışırdı ki, kimsənin qəlbinə dəyməsin. Qəlbində kin, həsəd, paxıllıq, qısqanclıq, riyakarlıq və s. bu kimi qeyri-insani xüsusiyyətlərdən onda zərrəcə olsun əsər-əlamət yox idi. Onun qəlbinə kimsə toxunurdusa, həmin adamı tez bağışlardı. Özünün çətin vəziyyətə düşməsinə baxmayaraq, həmişə qrup yoldaşlarını müdafiə edərdi. Onlar haqsız olsaydı da belə. Qrupumuzda bir bədxah xanım həmişə onun paxıllığını çəkirdi. Çünki o, Aygün kimi qrup yoldaşları ilə səmimi, mehriban, qayğıkeş ola bilmirdi. Həmin bədxah xanımın qəlbindəki kin-küdurət, paxıllıq, qısqanclıq, həsəd, və s. xüsusiyyətlər onu yaxşı xanım olmağa qoymurdu. Onun yeganə həmdəmi yalqızlıq, tənhalıq idi. İnsanlarla, tələbə yoldaşları ilə səmimi ünsiyyət qurmağa həmin “xanım”ın nə əxlaqi, nə davranışı, nə də mədəniyyəti imkan verirdi. O, qız sanki cəngəlliklər qanunu ilə tərbiyə alıb böyümüşdü. Sonradan öyrəndim ki, bu “xanım”ı ata, anası deyil, qoca nənəsi böyüdüb. O, bizimlə oxuduğu 5 il müddətində heç

kəslə nə yoldaşlıq etdi, nə də ki dostluq. Bütün tələbəlik illəri tək oturdu və yalqız gəzib dolandı. Onun insana yaraşmayan bu xüsusiyyətlərinə görə institutda heç bir tələbə onu dindirib-danışdırmırdı...

Aygünün rəfiqələrinə, qrup yoldaşlarına, tələbə dostlarına qarşı qayğıkeşliyi, xeyirxahlığı, səmimiliyi həmin "xanım"ın içini didib parçalayırdı, onu daim narahat edirdi. O, Aygünə qarşı dəfələrlə haqsızlıq və riyakarlıq etməsinə baxmayaraq, Aygün həmişə ona qarşı böyüklük və təmkinlilik nümayiş etdirirdi.

Əxlaqi kamilliyin zirvəsini fəth etmiş Aygün xanım rəftar və davranışı ilə istər tələbə yoldaşlarının, istərsə də müəllimlərinin dərin hörmət və rəğbətini qazanmışdı.

Yaxşı yadımdadır, bir gün 2-ci dərsdən sonra təcili işim olduğu üçün mühazirəyə girmədim və Aygünə dedim ki, mənim dərsdə olmadığımı jurnalda qeyd etməsin. Aygün gülərək dedi: "Camal, buna görə narahat olma. Sən işində ol." O, bütün qrup yoldaşlarını həmişə hər hansı çətin vəziyyətdən çıxarmağı bacarırdı. Ona görə də Aygünə hamının inamı böyük idi.

Ertəs gün instituta gələndə, təsadüfən jurnalda gördüm ki, adımın qarşısında qayib yazılıb. Düzü, qəlbimdə Aygündən incidim. Və bunun səbəbini soruşmadan ona qarşı azca səsimin tonunu qaldırdım. Aygün isə mənə heç nə demədən, bulud kimi dolmuş halda auditoriyaya keçdi. Bunu görən qrup yoldaşlarım məni məzəmmət etdilər. Onlar məni başa saldılar ki, mənim qarşımdakı qayibi Aygün deyil, mühazirəni aparan müəllim yazıb. Buna da səbəb qrupumuzdakı həmin o, bədxah xanım olub. O, mühazirə zamanı müəllimə deyib ki, bəzi qrup nümayəndələri dərsdə iştirak etməyən tələbələrə himayədarlıq edərək, onlara jurnalda qayib yazmırlar. Bundan sonra mühazirə müəllimi də bütün qrup jurnallarını bir-bir özü

yoxlayıb. Qızlardan bunu eşidəndən sonra mən Aygün xanımdan üzr istəmək üçün auditoriyaya girdim. Gördüm ki, Aygün başını qollarının arasına alıb ağlayır. Etdiyim hərəkətə görə ona üzrxahlığımı bildirdim, könlünü aldım. O, heç nə olmamış kimi, gözlərinin yaşını silib, yenidən üzümə gülümsədi. Bu Aygünün ürəyinin genişliyindən, sadəliyindən, yoldaşa qarşı səmimiliyindən, xeyirxahlığından irəli gəlirdi. O, hamını bağışlamağı bacarırdı, çünki o, böyük ürək sahibi idi, onun qəlbində qətiyyən kin yox idi.

Gözəl insan, etibarlı dost və yoldaş, xoş rəftarlı, məsum baxışlı, həmişə həssas və kövrək qəlbli Aygün xanım heç vaxt onu sevənlərin yaddaşından silinməyəcək!

Allah səni qəni-qəni rəhmət eləsin, Aygün xanım! Məkanın cənnət olsun! Amin!

Səni həmişə qəlbində xoş xatirələrlə əbədi yaşadacaq qrup yoldaşın

**Camal Zeynaloğlu!**

# Mündəricat

Ön söz.........................................................................3

Hekayələr

Gecikmiş sevgi.......................................................6
Ziyarət............................................................................13
Qızıl külqabı.......................................................48
İftira.................................................................................54
Paxıllıq.......................................................................60
Quru çörək..........................................................81
Qonşu tikəsi......................................................89
Xeyirxah düşmən..................................................93
Nərəy dərəsində qanlı döyüş............................102
Ölüm düşərgəsindən qaçış..............................115

## Esselər

**Əlim yetmədi sənə..........................................127**
**Yuxularına girəcəyəm.....................................131**
**Sənsizəm.........................................................133**
**Həsrət...............................................................135**
**Sən gedəni.......................................................137**
**Şəhid anası.......................................................139**
**Mənə dözüm ver, İlahi!....................................141**
**Kaş biləydin ki.................................................144**
**Həsrətə dözmür ürəyim....................................147**
**Mənimçün heç qocalmadın ki..........................149**
**Başqasına dəyişdin məni..................................152**
**Dost itkisi..........................................................154**

**Camal Zeynaloğlu: “Gecikmiş sevgi” kitabı**
(Azərbaycan dilində)

**Bakı, “Ünsiyyət” nəşriyyatı – 2014, - 160 səh.**

Nəşriyyatın direktoru: **Bəxtiyar Əliyev**
Rəssam: **Süleyman Mustafaoğlu**
Operator: **Turan Zeynalova**
Korrektorlar: **Sevinc Quliyeva**
**Aysel Zeynalova**

Çapa imzalanmışdır**:** 19.04.2014
Kafız formatı: 84 x 108 1/16
Fiziki çap vərəqi: 10.0
Sayı: 500 nüsxə
Sifariş: 50
Müqavilə qiyməti ilə.

**"Uni Print"** mətbəəsində çap edilmişdir.



## ZEYNALOV CAMAL ZEYNAL OĞLU
## (CAMAL ZEYNALOĞLU)

C.Zeynaloğlu “Uğursuz nikah” (1998), “Məni qınamayın” (1998), “Qanlı fevral gecəsi” (1999), “Ölümlə üz-üzə” (2000), “Tanrı cəzası” (2010), Aqata Kristinin “Baş nazirin oğurlanması” adlı tərcümələr toplusu (2011), “Həqiqət işığında” (2012), “Nakam məhəbbət” (2012), “Ölüm doğmalığı” (2013) və “Talelər dünyası” (2013 - I kitab) kitablarının müəllifidir.